www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 yanvar 2017-ci il Bazar ertəsi № 9 (6623) Qiyməti 60 qəpik

**Xəbər**

**Bərdədə 7-ci sinifdə oxuyan oğlan niyə öldürüldü - təfərrüat**

yazısı səh.14-də

**Gündəm**

**Sərhəddə düşmən təxribatlarının artmasının arxasındakı motiv**



İşğalçı ölkə özünün Azərbaycan əleyhinə avantüralarına KTMT ölkələrini qoşmağa çalışır

yazısı səh.11-də

**İsrail dövləti cinayətkar Lapşini niyə müdafiə edir -ekspertdən maraqlı şərh**

yazısı səh.9-da

**Xəzərdə itkin düşən neftçilərdən son xəbər - qəzadan bir ay ötdü**

yazısı səh.3-də

*Sabiq MTN zabiti:*

**“Eldar Mahmudov məsələsi hüquq çərçivəsindən çıxıb”**

yazısı səh.6-da

**Yeni ilin ilk yarım ayında ərzaq 10-30 faiz bahalaşıb**

yazısı səh.14-də

**Qarabağda hərbçimiz şəhid oldu**

yazısı səh.5-də

**Qərbi azərbaycanlı siyasətçidən Əli İnsanova açıq dəstək**

yazısı səh.12-də

**Valyutadəyişmə məntəqələri bərpa olunmaya bilər - tanınmış iqtisadçı ekspert**

yazısı səh.6-da

**Rus politoloqların “Rusiya savaşa qarışmayacaq” açıqlamalarının arxasındakı iki hədəf**

yazısı səh.3-də

**Prezidenti ağladan qadın - Mişel Obama barədə bilinməyənlər...**

yazısı səh.15-də

**Müxalif partiya sədri ölkəyə qarşı təhlükələrdən xilas formulu dedi**

yazısı səh.5-də

## Güney Qafqaz mühüm gəlişmələr astanasında

# KRIMDAN QARABAĞADƏK - AZƏRBAYCAN ÜÇÜN KRİTİK TRAMP DÖNƏMİ BAŞLAYIR

Bu həftə ABŞ-ın yeni prezidenti and içəcək; Azərbaycan yeni çağırışlar və reallıqlarla üz-üzə; Kreml Qarabağ məsələsində şəriksiz moderatora çevrilir?; Bakı, Ankara və Moskvanın uzlaşdırılmış siyasəti Ermənistana qarşı yeni diplomatik cəbhənin açılmasına və işğalçının təklənməsinə də gətirə bilər...




yazısı səh.8-də

## Bakı “sexovşik”inin oğlu Moskva milyonçusuna necə çevrildi, “AST Telman”ın həyat hekayəsi

Moskvanı atom sığınacaqlarından məhrum edən, MOSSAD-ın siyahısına “Sayan” ləqəbi ilə düşən Telman İsmayılov barədə sensasion faktlar

yazısı səh.4-də



**Sülhəddin Əkbərdən ölkə gündəmi ilə bağlı həyəcanlı açıqlamalar**

yazısı səh.5-də



*Ağalar Bayramov:*

**“Ürək yoxdursa, uğur da olmur”**

yazısı səh.13-də



*Etimad Əsədov:*

**“Ermənistanla yalnız silah dilində danışmaq lazımdır”**

yazısı səh.7-də

**16 yanvar 2017**

# Güney Azərbaycanda böhran - Ərdəbil sement zavodu da bağlandı



## İrandan ABŞ-a nüvə xəbərdarlığı

**Əgər ABŞ-ın yeni hökuməti Hərtərəfli Birgə Fəaliyyət Planını (HBFP) icra etməzsə, İran tez bir zamanda nüvə fəaliyyətlərini əvvəlki formada davam etdirəcək. APA-nın Tehran bürosunun məlumatına görə, bunu bu gün İranın xarici işlər nazirinin beynəlxalq və hüquq məsələləri üzrə müavini Abbas Əraqçi keçirdiyi mətbuat konfransında deyib.**

A.Əraqçi deyib ki, ABŞ-ın yeni hökumətiylə HBFP ilə bağlı heç bir müzakirə aparılmayacaq: "HBFP İranla 6 ölkə və Avropa Birliyi ilə imzalanmış çoxtərəfli razılaşmadır. ABŞ prezidenti planı bir kənara qoymaq üçün qərar qəbul edərsə, bu onun öz işidir və bundan sonra baş verənlərlə görə də məsuliyyəti özü daşımalıdır. Əgər onlar bu planı cırıracaqlarsa, İran bu planı yandıracaq. Əmin olun, HBFP təzyiqlərlə birgə icra olunmayacaq. Bu planın icrasına dair öhdəlik xoş niyyətlik atmosferində baş tutacaq, təzyiqlərlə deyil. Təzyiqlər və sanksiyalar olarsa, bu öhdəliyin icra olunmaması anlamında olacaq".

Əraqçi deyib ki, İranın ABŞ ilə nüvə müzakirələri başa çatıb və danışıqlar bundan sonra HBFP-nin icrasi ilə bağlı bəzi texniki məsələlərə dair olacaq. "İranın nüvə fəaliyyətləri tamamilə qanunidir və davam edir. Bu gün uranın zənginləşdirilməsi və uranın zənginləşdirilməsi sahəsində araşdırma prosesi qabaqcıl texnologiya ilə davam etdirilir. Uranın zənginləşdirilməsi üçün yeni sentrifuqalar hazırda test olunur və MAQATE ilə əldə olunan proqrama əsasən, 15 il ərzində İran sənaye zənginləşdirilməsi mərhələsinə çatacaq".

A.Əraqçinin sözlərinə görə, Ərak nüvə reaktoru hazırda modernləşdirilir. "İranın nüvə proqramı dəqiq hesablanmış cədvəl üzrə inkişaf etdirilir". Xarici işlər nazirinin müavini deyib ki, HBFP-nin icrasından sonra ötən bir il ərzində İran beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə kimi deyil, bəlkə yeni bir simada tanınıb. "ABŞ və İranın düşmənləri İranın sülhyönümlü nüvə proqramından sui-istifadə edərək ölkəmizi beynəlxalq aləm üçün təhlükə kimi göstərirdilər. Deyirdilər ki, İran nüvə silahı əldə etmək istəyir və səs-küy salırdılar. Lakin HBFP-dən sonra bu səs-küy yatdı".

## Bu gün Bakıda hava buludlu olacaq

**Bakıda və Abşeron yarımadasında bu gün buludlu hava şəraiti üstünlük təşkil edəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, bəzi yerlərdə arabir yağış yağacağı, günün ikinci yarısında əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi əsəcək.**

Havanın temperaturunun gecə 2-4° isti, gündüz 6-9° isti, Bakıda gecə 2-4° isti, gündüz 7-9° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu, nisbi rütubət 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarına gəlincə, yanvarın 16-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacağı, bəzi şərq rayonlarında isə yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı gözlənilir.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**

**Güney Azərbaycanda hökm sürən iqtisadi gərginlik və bazarın durğunluğu istehsal müəssisələrini ardıcıl sıradan çıxarır. Son məlumata görə, Ərdəbil sement zavodunun müdiri Adil Ruhi Ərdəbil valisinə məktub yazaraq zavodun bağlandığını bəyan edib.**



O, bölgədə sementə olan tələbatın azalması, zavodun qonşu vilayətlərin zavodları ilə rəqabət gücündə olmaması və anbarlarda 270 min ton sementin qaldığını qeyd edərək, zavodun bağlanmaq məcburiyyətində qaldığını açıqlayıb. GünAz TV xəbər verir ki, Arta Ərdəbil Sement Şirkəti 1987-ci il iyunun 15-də təsis edilib, zavod bu müddətdə bölgədə inşaat sektorunun sementə olan tələbatını ödəməkdə böyük rol oynayıb.

Qeyd edək ki, böhranlı vəziyyət Azərbaycan əhalisinin yaşadığı bölgələrə ciddi təsir göstərib. Üstəlik, Tehranın ayrıseçkilik siyasəti də öz sözünü deyib. Bundan əvvəl Təbrizin İran parlamentindəki millət vəkili Şərqi Azərbaycanda yüksək vergi dərəcəsindən şikayətlənmişdi. "Yanvarın 4-də Büdcə və Planlaşdırma Təşkilatının rəisi və prezident müavininə məktub yazaraq Şərqi Azərbaycanda yüksək vergi dərəcəsinə öz etirazımı bildirdim. Məktubda vergi dərəcəsi səviyyəsinin 13.4 faiz artımına işarə edilib. Bəzi ekspertlər isə bu rəqəmin 24 faiz olduğunu bildirir. Nə üçün Şərqi Azərbaycan əhalisi belə bir ağır vergi ilə üz-üzə qalmalıdır! Bütün bunlar yazdığım məktubda qeyd olunub" deyə Məhəmməd İsmail Səidi "Fars" Xəbər Agentliyinin müxbiri ilə danışıqda deyib. Azərbaycanlıların tehranlılardan daha çox vergi ödəməsinə etiraz bildirən millət vəkili vurğulayıb ki, belə problemlər yatırımçıların digər vilayətlərə, xüsusi ilə də Tehrana köçməsinə səbəb olduğu üçün bölgəyə ağır iqtisadi zərbə vurur və bu problem getdikcə dərinləşir.

❑ **Cavid TURAN**



## Qazaxıstanda kütləvi həbslər

**Astanada 6 il Qazaxıstan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini postunu tutmuş Baqlan Maylıbaev həbs edilib. Virtualaz.org KazINFO Today agentliyinə istinadən bildirir ki, ondan başqa, Prezident Administrasiyasının bir sıra əməkdaşları da saxlanılıb.**

Əməliyyat yanvarın 13-də aparılıb. Amma agentliyə məlumat verən mənbə Prezident Administrasiyasının konkret hansı əməkdaşlarının saxlandığını deməyib. Sadəcə, onu bildirib ki, bütün saxlananların telefonları əhatə dairəsindən kənarda olduğu üçün onlarla əlaqə saxlamaq mümkün deyil. Onlar xidməti vəzifədən sui-istifadədə, həmçinin Cinayət Məcəlləsinin korrupsiyaya qarşı bir sıra maddələri ilə ittiham olunurlar.

Başqa məlumatlara görə isə söhbət Prezidentin Administrasiyası əməkdaşlarının Qazaxıstanın keçmiş milli iqtisadiyyat naziri Kyandık Bişimbaev və "Bayterek" dövlət şirkəti barəsində qaldırılmış cinayət işlərində iştirakından gedir. Qeyd olunur ki, həmin nazir Qazaxıstan prezidentinin 12 yanvarda imzaladığı fərmanla vəzifədən azad edilib.




## Astarada sərxoş sürücü maşını yol polisinin üstünə sürdü

**Astarada qayda pozuntularını aşkarlamaq məqsədi ilə reyd keçirilib. Reyd zamanı 50-yə yaxın nəqliyyat vasitəsi saxlanılıb. Onlardan 20-si barədə inzibati protokol tərtib edilib. ARB TV xəbər verir ki, reyd zamanı polisin "saxla" əmrinə məhəl qoymayaraq aradan çıxan və sükan arxasında sərxoş tutulan sürücülərə də rast gəlinib. Polisin "Nə üçün spirtli içki içib maşın sürürsən" sualına sürücü "Rəis, pivə içmişəm də" cavabını verib.**

Reyd zamanı protokollar əsasən spirtli içki içərək nəqliyyat vasitəsini idarə etmək, təhlükəsizlik kəmərindən istifadə etməmək, sürücülük vəsiqəsinin olmaması və texniki baxışdan keçməyən avtomobillərlə bağlı yazılıb. Qeyd edək ki, müxtəlif qayda pozuntularının aşkarlanması və vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində Astara rayonunda belə reydlər davam etdiriləcək.

## İrəvanda 3 erməni gəncin meyiti tapılıb

**Yanvarın 15-də Ermənistan paytaxtında üç gənc kişinin meyiti aşkar edilib. Bu barədə musavat.com erməni mətbuatına istinadən xəbər verir. Səhər saat 10 radələrində xəstəxanalardan birindən polisə məlumat verilib ki, Nazarbekyan küçəsində 22 yaşlı oğlanın meyiti tapılıb.**

Hadisə yerinə gedən polis sözügedən ünvanda daha iki gəncin cəsədini aşkarlayıb. Məlumata görə, onlar qarajdakı avtomobildə ölü vəziyyətdə tapılıblar. Hələlik ölənlərin şəxsiyyəti müəyyən edilməyib. İlkin məlumatlara görə, gənclər dəm qazından ölüblər. Erməni mediasının yaydığı məlumatda deyilir ki, ölənlərdən ikisi qardaşdır, onlardan biri xilasedici işləyirmiş.

❑ **Cavid TURAN**

## Azərbaycan və Çexiya memorandum imzalayacaq

**Çexiyaya iri neft tədarükçülərindən biri olan Azərbaycan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. Bu barədə Trend-ə Azərbaycanın Çexiyadakı səfiri Fərid Şəfiyev bildirib. Onun sözlərinə görə, hazırda Azərbaycan və Çexiya arasında enerji sahəsində qarşılıqlı anlaşmaya dair memorandum hazırlanır.**

Səfir deyib: "Bu memorandumun imzalanması iki ölkə arasında əməkdaşlığın dərinləşməsi üçün yeni imkanlar yaradacaq". Diplomat bildirib ki, memorandumun layihəsi üzərində iş bitdikdən sonra sənəd Azərbaycanın energetika naziri Natiq Əliyevin Praqaya səfəri çərçivəsində imzalanacaq. Səfərin bu il baş tutacağı planlaşdırılır.

Azərbaycanın Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, iki ölkə arasında mal dövriyyəsi 2016 ilin yanvar-noyabr aylarında 312,02 milyon dollar təşkil edib.

## Yeniyetmə ailə üzvlərini balta ilə öldürdü

**Rusiyada 17 yaşlı yeniyetmə məişət zəminində mübahisəyə görə nənəsini, atasını və bacısını qətlə yetirməkdə şübhəli sayılır. APA-nın məlumatına görə, bu barədə Rusiya İstintaq Komitəsinin saytında məlumat yerləşdirilib.**

Hadisə yanvarın 14-də Tambovsk vilayətinin Sosnovka qəsəbəsində baş verib. Evlərdən birində 67 yaşlı qadın, onun 43 yaşlı oğlu və 14 yaşlı qız nəvəsinin meyitləri tapılıb. Meyitlərin üzərində zorakılıq əlamətləri aşkarlanıb. Qısa müddət sonra 17 yaşlı yeniyetmə saxlanılıb. İstintaqın versiyasına görə, yanvarın 14-də səhər ailədaxili mübahisəyə görə qəzəbli olan yeniyetmə yuxuda olan nənəsinə, atasına və bacısına çoxsaylı balta zərbəsi endirib. Nənə və bacı hadisə yerində, xəstəxanaya çatdırılan ata isə az sonra xəstəxanada ölüb.

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017

# Xəzərdə itkin düşən neftçilərdən son xəbər - qəzadan bir ay ötdü

## Mirvari Qəhrəmanlı: "Neftçi ailələri maddi dəstəkdən narazı deyillər, ancaq onlar yaxınlarının cəsədlərini istəyirlər"

**"Azneft" İB-nin N. Nərimanov adına Neft Qaz Çıxarma İdarəsinin 3 saylı Neft Yığım Məntəqəsinin sağ və sol hissəsində yerləşən estakadasında baş verən qəzadan bir ay ötdü.**

2016-cı il dekabrın 15-də səhər saat 05.00 radələrində Xəzər dənizində 41 metr/saniyə sürəti ilə əsən güclü külək "Azneft"in N.Nərimanov adına Neft Qaz Çıxarma İdarəsinin 3 saylı Neft Yığım Məntəqəsinin sağ və sol hissəsində yerləşən estakadanı, ona bitişik meydançanı və içərisində 10 neftçinin də olduğu budkanı dənizə yuvarlamışdı. Neftçilərdən birinin meyiti tapılsa, axtarışlara rəğmən digər 9 neftçinin cəsədi hələ də tapılmayıb.

Neftçilərin ailələrinin vəziyyəti və axtarışla bağlı son durum barəsində "Yeni Müsavat"a Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı danışdı. O bildirdi ki, itkin düşən neftçilərin ailələri ilə tez-tez əlaqə saxlayır: "Axtarışın nəticəsi ilə bağlı heç bir müsbət xəbər yoxdur. Ailələrə gəlincə isə onlara müəyyən köməkliklər olunub. Ailələrə köməkliklərin edilməsi dekabrın axırından etibarən başladı. Belə ki, idarənin Həmkarlar Təşkilatından 500 AZN, Azərbaycan Neft və Qaz Sənayesi İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən 1000 AZN, hansısa xeyriyyə cəmiyyəti tərəfindən də həmçinin, hər bir ailəyə 1000 AZN verilib. Bundan başqa SOCAR tərəfindən ailələrə kart vasitəsi ilə 5 min manat vəsait də ödənilib. İşsiz ailələrdə bir nəfər ailə üzvünün işə düzəldilməsi üçün sənədlərini də istəyiblər. Sənədlər toplanıb verilsə də, hələ ki onlar işlə təmin olunmayıblar. Daha çox Ələtdə yaşayan ailə üzvləri ilə əlaqə saxlayıram. Bəlli olduğu kimi, itkin düşən neftçilərin əksəriyyətinin evi Ələtdədir. Orada yaşayan ailələrin hamısına yuxarıda qeyd etdiyim köməkliklər olunub. Axtarışa gəlincə isə düşünürəm ki, bu adamların tapılması ehtimalı olduqca aşağıdır. Ona görə ki, hadisə baş verən gün külək güclü olub, cəsədlər sürətlə hadisə baş verən yerdən uzaqlaşıb. Sadəcə olaraq, təsadüfi tapılmaya ümid bəslənilir. Dövlət Neft Şirkətinin özünün gəmiləri yoxdur. Əvvəl var idi və özləri dərhal reaksiya verirdilər. İndi isə onlar gəmi ilə bağlı digər quruma müraciət edirlər. Yəni operativ hərəkət etmək üçün şirkətin imkanları məhduddur. Bundan əlavə, düşünürəm ki, axtarışla bağlı müəyyən idarələrdə hazırlıq, peşəkarlıq da aşağıdır. Onlar xüsusi beynəlxalq təlimlər keçməlidirlər".


Mirvari Qəhrəmanlı

M.Qəhrəmanlı dedi ki, ailələrin hazırda istədikləri bir şey var, o da itkin düşən yaxınlarının cəsədlərinin tapılmasıdır: "Ailələr hamısı bildirirlər ki, bizə yaxınlarımızın cəsədi lazımdır. Onlar vəsaitdən heç zaman şikayətlənmirlər. Deyirlər ki, heç olmasa bir qəbir olsun ki, biz ora gedib təskinlik tapaq. Ən dəhşətli situasiya da budur. Ödənilən məbləğlə əlaqədar əvvəl də heç nə demirdilər, indi də narazılıqlarını bildirmirlər. Kompensasiyalardan da hələ ki narazılıq edən yoxdur. Çünki neftçilər itkin düşüblər. Ölüm kağızı alındıqdan sonra da yəqin ki, nəzərdə tutulan vəsaitlər ödəniləcək. Ancaq ilk növbədə ailə üzvlərinə 5 min manat vəsaitin verilməsi yaxşı oldu. Ən azından onlar bu gün ac qalmırlar. Bunu biz də təklif etmişdik ki, itkin düşənlərin ailələrinə, onların meyiti tapılana qədər hər hansı bir formada maddi yardım edilsin. Yəqin ki, iyunda itkin düşənlərin ölüm kağızı veriləcək. Ondan sonra isə əsas sığortalar ödəniləcək. Nəticə olaraq onu deyim ki, itkin ailələrinə edilən maddi köməkliklər normaldır".

M. Qəhrəmanlı əlavə elədi ki, itkin düşən neftçilərlə bağlı şəhərdə abidə qoyularsa, heç olmasa onların ailələri təskinlik taparlar: "Ötən il baş verən qəza zamanı itkin düşənlərdən biri mənim qonşumdur. Bir ildir ki, gecələr onun anasının fəryadı ərşə yüksəlir. Məni görən kimi də ağlayıb deyir ki, heç nə yox, bircə qəbir daşı istəyirəm ki, başımı dayayıb, ağlayım. İndi əlavə 9 ailə bu vəziyyətdədir. "Günəşli" yatağındakı qəzada itkin düşən neftçilərə Cilov adasında abidə qoyuldu. Ancaq yaxşı olardı ki, şəhərdə heç olmasa ailələrin gedə biləcəyi yerdə kiçik xatirə lövhəsi qoyulardı. Onların təskinlik tapmaları üçün buna çox ehtiyacları var".

❑ Əli RAİS

# Qan istəyən qatil prezident

Elşad PAŞASOY
epashasoy@yahoo.com



**Bir zaman dünya ermənilərini birləşdirən Qarabağ məsələsi indi onları parçalayan amilə çevrilib. Səbəbi bəlli: Qarabağın işğalı Ermənistana səadət gətirmədi, əhali sürətlə azaldı, Ermənistan iri beynəlxalq layihələrdən kənarda qaldı, ölkə müstəqilliyindən tam imtina edib Rusiyanın qucağında oturdu, özgə torpağı erməni gənclərin məzar yerinə çevrildi...**

Qarabağ uğrunda gedən prosesdə udan yalnız hakimiyyət oldu, indi erməni cəmiyyəti bunun fərqindədir. Ona görə də etirazlar daha ucadan səslənir. Serj Sərkisyan da vəziyyətin hər an nəzarətdən çıxacağından ehtiyatlanır. Bu qədər gərgin münasibətlərin mövcudluğu şəraitində ardıcıl parlament və prezident seçkiləri keçiriləcək. Seçkilər o şəraitdə keçirilir ki, Ermənistan vətəndaşları davamlı şəkildə Bakıda yaşamaq üçün Azərbaycan hakimiyyətinə müraciət edirlər. Bu, həm də Sərksiyanın yürütdüyü siyasətə tüpürməkdir.

Özünü ərköyün uşaq kimi aparan erməni prezident çox çətin durumla üz-üzədir. Həm də ona görə ki, "arsenalındakı" bütün silahlardan istifadə edib, indi əliyalındır. Rusiya ona "İsgəndər" raketlərini oyuncaq əvəzi versə də, bu, Sərksiyanın işinə yaramır. Ermənistan prezidentin yürütdüyü siyasət tar-mar olub.

Təsəvvür edin, keçən ilin yayında Sərkisyan "bütün dünya bir olsa, Dağlıq Qarabağ əhalisini Azərbaycanın tərkibində yaşamağa məcbur edə bilməz", - deyə şivən qoparırdı. Ancaq üstündən bir neçə ay keçəndən sonra İrəvan və Xankəndi erməniləri Azərbaycan bayrağı altında yaşamaq istədiklərini bəyan etdilər və onların bir qrupu Bakıda normal həyatını yaşayır. Bu, Sərkisyana vurulan şillə deyil, bəs nədir?

Sərkisyana bu gün cəbhədə qan tökülməsi çox lazımdır. Azərbaycanlılarla ermənilərin birgə yaşamasının mümkün olmadığı barədə iddiasını sübuta yetirmək üçün. Faktiki olaraq onun siyasəti iflasa uğrayıb. Erməni prezidenti havalandıran odur ki, hətta aprel döyüşlərindən sonra Vaan Martirosyan, Syuzan Caqinyan kimi erməni fəallar Bakıya gəlib Xocalı soyqırımına görə üzr istədilər, qatilləri lənətlədilər, üstəlik, Bakıda normal həyatını yaşayırlar.

Yəni "azərbaycanlılar qatildir, Dağlıq Qarabağ ətrafındakı əraziləri təhlükəsizlik üçün azad edə bilmərik" kimi iddialar sabun köpüyünə çevrilib. Sərkisyan qorxur ki, bu situasiyanın ardınca Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsinə razılaşar. Ona görə də davamlı şəkildə təxribatlara əl atır. Kəsəsi, erməni prezidenti bu gün tökülən qan xilas edə bilər. Həm də öz millətinin qanı, dünyanı və erməniləri inandırmaq üçün...

Bu yandan da sülh platformasının yaradılması onu çətinə salıb, erməni fəalların Bakıda sərbəst yaşayıb işləməsi iddialarını alt-üst etdi. Hətta Xankəndidə ictimai fəal Lusine Nersisyan Azərbaycanla birgə yaşamaq istədiyini dedi, ağzını yumub həbsə atdılar. Bu gün Azərbaycandan Ermənistana getmək istəyən yoxdur, işğalçı ölkədən bura gələnlər var və say artır. Sərksiyan təlaşdadır ki, bir gün cəbhəboyu postlarda olan erməni hərbçilər də ağ bayraq qaldırıb təslim olar, sülh platformasına qoşular.

Xocalı qatili hər cür təxribatlara gedəcək, təki hakimiyyətinin ömrü uzansın. Sərkisyan baxır ki, o, Qarabağ danışıqlarından imtina edib, ancaq erməni ziyalılar azərbaycanlılarla sülhdən danışır. Bir neçə il əvvəl iki ölkənin ziyalıları və səfirləri qarşılıqlı səfərlər etmişdi. Onda da erməni hakimiyyəti vəziyyətin nəzarətdən çıxdığını görəndə təxribata əl atdı, proses dayandı.

2014-cü ilin noyabrında danışıqlarda aktivlik yaranmışdı, həmsədr ölkələr sülh üçün hərəkətə keçmişdi. O zaman görüşdən imtina üçün Sərksiyan bir erməni vertolyotunu, iki pilotu qurban verdi. Danışıqlar yalnız 2016-cı ilin aprel döyüşlərindən sonra bərpa olundu.

Onun növbəti fitnəsi 29 dekabrda oldu. Həmin gün həlak olan Azərbaycan əsgərinin nəşini isə hələ də geri qaytarmır bu cəsəd manyakı. Hakimiyyətdə qalmaq naminə öz vətəndaşlarını qurban verən prezidentdən əslində hər şey gözləmək olar. Yaxşı ki, bunu ermənilər özləri də anlayır. Necə ki, Amerika ermənisi Henrik Xaçaturyan cani adlandırdığı prezident haqqında "qərəzsiz və ədalətli məhkəməyə cəlb edilsə, ən azından ömürlük azadlıqdan məhrum edilər" söyləyir. Belə getsə, onu ermənilər özləri Haaqa Məhkəməsinə verəcəklər...

**P.S.** *Yazını yekunlaşdıranda Azərbaycan ordusunun əsgərinin şəhid olduğu xəbəri gəldi. Qatil prezident qan istəyir...*

# Rus politoloqların "Rusiya savaşa qarışmayacaq" açıqlamalarının arxasındakı gerçək

## Elçin Mirzəbəyli: "Belə bəyanatlar iki aspektdən dəyərləndirilə bilər"

**Rusiyalı tanınmış politoloq Vadim Dubnov bildirib ki, həm aprel savaşı, həm də dekabrda Azərbaycan-Ermənistan sərhədində baş verən insident sübut etdi ki, Moskva Azərbaycanla qarşıdurmada heç vaxt Ermənistana kömək etməyəcək.**

"Mövcud situasiyada İrəvanın özünə rəva bildiyi yeganə şey - izafi illüziyalara qapılmamaq və öz əhalisinə bunu kifayət qədər adekvat şəkildə izah eləməkdir. KTMT baş katibi Nikolay Bordyujanın gedən ərəfədə verdiyi son məlum bəyanat isə sadəcə, Ermənistanın artıq neçənci dəfə təkrarlanan KTMT uğursuzluğuna bir təsəlli kimi verilən bəyanat idi. Hətta sonradan bu bəyanata da ermənilərin zərərinə izahat verildi" - politoloq deyib.

Qeyd edək ki, bu tipli açıqlamalar son zamanlar digər bir sıra rus politoloqların da dilindən səslənir. Bəs, bu cür açıqlamaların arxasında real informasiya, təhlil dayanır, yoxsa əsası olmayan aldadıcı fikirlərdir? Rusiya, KTMT doğrudanmı Ermənistanı müdafiə etməz, yoxsa müəyyən mərhələyədək müdafiə etməsə belə, sonra açıq müdafiəyə keçə bilər?



Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, aprel döyüşlərindən sonra Rusiya ekspertləri tərəfindən bu qəbildən olan bəyanatların sayı artıb: "Amma nəzərə almaq lazımdı ki, bütün bunlar Rusiyanın rəsmi mövqeyini ifadə etmir. Son dövrlərdə bu qəbildən bəyanat və açıqlamaların arasında ən çox diqqət çəkəni Nikolay Bordyujanın təsəlli kimi dəyərləndirilən bəyanatı və bu bəyanata verilən izahdır. Qənaətimə görə, belə bəyanatlar, şərh və açıqlamalar iki aspektdən dəyərləndirilə bilər. Rusiyada Azərbaycan üçün Qarabağ məsələsinin həddən artıq həssas məsələ olduğunu, azərbaycanlıların ürəyinə gedən yolun Qarabağdan keçdiyini yaxşı başa düşürlər. Məhz bu amildən istifadə edərək ekspertlər səviyyəsində müəyyən açıqlamalar vasitəsilə Azərbaycanın ictimai rəyində Rusiyaya olan münasibəti də müsbətə doğru dəyişmək istəyirlər. Digər amil isə Ermənistanın siyasi hakimiyyətini və ictimaiyyətini təzyiq altında saxlamaq niyyətilə bağlı ola bilər. Yəni mesaj verirlər ki, Rusiya Ermənistana yardım etməsə, Azərbaycan Ermənistanı məhv edə bilər. Demək istəyirlər ki, Rusiyanın ətəyindən möhkəm yapışmaq və israrçı mövqedən əl çəkmək lazımdır".

Politoloq vurğuladı ki, rus politoloqların açıqlamalarından fərqli olaraq real mənzərə başqa cürdür: "Ermənistan Azərbaycan torpaqlarını Rusiyanın dəstəyi ilə işğal edib və işğal bu gün də davam edir. Bizə isə yalnız ekspertlər vasitəsilə ifadə olunan mülahizələrlə təsəlli verirlər. Unutmaq lazım deyil ki, rus ekspertlərinin açıqlamaları təbliğat xarakterlidir. Təbliğatı isə elə təbliğat kimi də qəbul etmək lazımdır".

❑ Etibar SEYİDAĞA

Yeni Müsavat
N 9 (6623) 16 yanvar 2017

**Sovet vaxtları Azərbaycan SSR ərazisində siyasi dissidentlər vardı. Ancaq onlar sayca çox az idi. Əvəzində iqtisadi dissidentlər - kölgə iqtisadiyyatı üzvləri itinətök qədər çox idi bizim günəşli ölkəmizdə. Siyasi dissidentləri o vaxtkı DTK-nın, yəni Dövlət Təhlükəsizlik Komitəsinin 5-ci şöbəsi nəzarətdə saxlayırdı, iqtisadi dissidentləri isə qonşuluqdakı 6-cı şöbə. Misal üçün, Stalin komandasının "qara maskalısı" sayılan Sudoplatov öz xatirələrində qeyd edir: "1942-ci ildə Gürcüstanın almanlar tərəfindən işğalı bizə qaçınılmaz göründü. Qərara gəldik hadisələri qabaqlayaq. Qondarma bir Gürcüstan Milli Komitəsi yaratdıq. Zviad Qamsaxurdianın atası Konstantin Qamsaxurdiyanı - xüsusi məxfi agentimizi, gətirib bu quruma başçı təyin etdik. İxtiyarına böyük miqdarda maliyyə, brilyant daş-qaş verib qeyd etdik ki, işğal zamanı o, almanlarla üzdə sıx əməkdaşlıq etməlidir, gizlində isə bizimlə".**

# Bakı "sexovşik"inin oğlu Moskva milyonçusuna necə çevrildi; "AST Telman"ın həyat hekayəsi - Həmid Herisçi yazır

## Moskvanı atom sığınacaqlarından məhrum edən, MOSSAD-ın siyahısına "Sayan" ləqəbi ilə düşən Telman İsmayılov barədə sensasion faktlar

SSRİ dağıldıqdan sonra həmin köhnə xətlər yenidən canlanır. Konstantinin oğlu Zviad Qamsaxurdia köhnə ssenarini təkmilləşdirdikdən sonra Gürcüstan prezidenti seçilir.

***

Oxşar xəttə, strateji at gedişlərinə 1960-cı illərdən sonra iqtisadi dissidentlər də dəvət edildi. 6-cı şöbənin sönməyən nəzarəti altında iqtisadi dissidentlər Moskva, Leninqrad, Yerevan, Odessa, Rostov, Daşkənd, Tiflis və nəhayət, Bakıda müxtəlif sexlər-filan yaradıb başlayırlar durmadan sürətlə varlanmağa. Gəlirlər artdıqca qır-qızıla, brilyant daş-qaşlara ciddi tələbat yarandığını görən DTK rəhbərliyi "əməliyyat zəncirinə" məxfi bir bank da əlavə etmək qərarını verir lap axırda. Ümumittifaq "Bilik" cəmiyyəti, dönür bu siyasi-iqtisadi eksperimentin əsl məxfi "sınaq meydançası"na. Kuryerlər Moskvadan Bakıya məruzəçi adıyla gəlib, burda çantalarını brilyant daş-qaşlarla, digər zinət əşyalarıy ilə doldurub, yallah, necə deyərlər "daban 56", Moskvaya qayıdırlar.

O zaman bu xəttə düşənlər sırasında kimlər yoxdu ki... İşbazlar siyahısında azərbaycanlılar çoxluqdaydı. Sonra gəlirdi ermənilər, aysorlar, ruslar, nəhayət, həm Avropa, həm də dağ yəhudiləri. Özlərinə "alpinist" deyən bu kiçik zümrə arasında Telman İsmailov adlı birisi, elə bəribaşdan digərlərindən, hətta doğma atası Mərdandan da çox-çox seçilirdi. Mərdan kişi, Bakıdakı ilk kooperativ dükanlar zəncirinin sahibi kimi tanınsa da, oğlu Telmanı özü kimi savadsız, təhsilsiz görmək istəmirdi. O, əvvəlcə Telmanı göndərir "Narxoz"da təhsilini artırmağa. Sonra təhsil ünvanını Moskvaya köçürür. Telman, Plexanov adına Moskva Xalq Təsərrüfatı institutuna transfer olunub gününü Bakı-Moskva reysi ilə uçan təyyarələrdə keçirir. Əlindəki diplomat çantası bəzən dolu olur o vaxtlar, bəzən bomboş.

Hadisə iştirakçılarından birisi o vaxtkı xatirələrini mənlə bax bu cür bölüşür indi: "Bank binalarını bilirsiniz də necə tikirlər? Bünövrəsinə, zirzəmisinə ağır İsveçrə seyfləri yerləşdirib binanı mərtəbə-mərtəbə yuxarı qaldırırlar. Bakıda belə köhnə bank binası çoxdan, hələ Nikolay zamanından mövcuddur. Ağır, kodlu-açarlı bu İsveçrə seyfləri həm şəhər lombardının ixtiyarındaydı, həm də kölgə iqtisadiyyatı üzvlərinin. İstifadəçilərdən biri Telmanın atası olub. Kölgə iqtisadiyyatından gələn pullar burda seyfdəki lombard əmanətləri ilə əvəzlənir. Göndərilirdi birbaş Moskvaya. Çamadan daşıyanlar arasında Mərdanın oğlu Telman da vardı".

Məşhur "Brilyant əl" filminə layiq bu süjet xətti, Telmanı öz ağuşuna alaraq onu birdəfəlik Moskvaya dartıb sürükləyir. Telman, əvvəlcə Ticarət Nazirliyində kiçik inspektor vəzifəsini qazanır, sonra "Vostokintorq"un aparıcı ekspert titulunu. 1989-cu ildə o, burda "AST" şirkətini qeydiyyata aldıraraq başlayır ildırım süräti ilə Moskva Olimpinin zenit nöqtəsinə doğru durmadan dırmaşmağa. "Alpinist" adını ilk dəfə, bax, burda doğruldur.



Adı: Telman.
Soyadı: İsmailov.
Doğum tarixi: 26 oktyabr 1956. Meymun ili, Əqrəb bürcü.
Doğum yeri: Bakı, Azərbaycan SSR.
Fəaliyyəti: biznesmen.
Çəkisi 82 kilo.
Boyu: 177 sm.

"Mosqorispolkom"un "Kooperativlər" şöbəsi sədri, gələcək Moskva meri Yuriy Lujkov, öz müavini, arvadı Yelena Baturina ilə birgə bu "alpinist"ə xüsusi simpatiya ilə yanaşıb, tezliklə onu öz bizneslərinə ortaq edirlər.

Moskvadakı 1993-cü il qanlı hadisələri, Telman üçün əsl dönüş nöqtəsinə çevrilir birdən-birə. Yeltsin, Lujkov o vaxt Rusiya Baş Ordu Qərargahını "suiqəsdçilərlə əlaqə" ittihamı ilə cəzalandırmaq istəyərkən qəfildən gözlərini açıb qarşılarında Telmanı görürlər. Qərara gəlirlər, bəs bu guya göydəndüşmə rəmzdi. Bəs guya sovet ordusunun mal-mülkünü, restoranlarını, hərbi dükanlarını bu alpinistə versək, əla olar. Rus generallarının keyf çəkdiyi "Praqa" restoranı o dövrdə keçir Telmanın ixtiyarına. Lakin siyahını təkcə elə bu restoranla məhdudlaşmaq düzgün olmaz. Siyahıda həm ordu dükanlar zənciri vardı, həm də atom zərbəsindən qorunma sığınacaqları. Telman İsmayılov tezliklə belə məxfi ünvanlardan birində "Çerkiz bazarı"nı açıb Moskvanı öz rahat atom sığınacağından birdəfəlik məhrum edir. Vyetnamlılardan tutmuş, zəncilərə qədər 72 milləti bu əraziyə sığışdırıb milyardlar qazanmağa başlayır.

***

Arada o, Bakını da unutmur. Tanış İçsveçrə seyflərinə öz dollarlarını yığıb Bakı valyuta bazarını nəzarətə götürür. Bakıya axan dollar kütləsi əvvəl həmin Nikolaydanqalma seyflərə doldurulur, burdan başqa ünvanlara. O vaxtda, Telman İsrailin kəşfiyyat orqanı olan MOSSAD-ın siyahısında özünə "Sayan" adını qazanır. "Sayan" sözünün, MOSSAD-ın lüğətində "müstəqil hizmətçi" mənasını verdiyi, görünür, çoxlarına hələ bəlli deyil. "Sayan" kateqoriyasına daxil olmaq yəhudi biznesmenlərə MOSSAD tərəfindən qayğı, kömək vəd edir, bəli, bu "iki vur iki bərabərdi dörd" düsturu qədər banaldı hamı, o cümlədən bizim üçün. Lakin bu proses bir tərəfli deyil. Qarşılıqlıdı, biləsiz.

***

Bu cür şübhəli əlaqələr, ordu mülkiyyətinin qəpik-quruşa özəlləşməsi prosesi tezliklə Kreml rəhbərlərinin, dəqiq desək, Putinin diqqətini özünə cəlb edir. Vəziyyəti rusca görən MOSSAD dərhal geri çəkilir. Telman qalır Moskvada tam köməksiz, əlacsız. Rusiya Baş Ordu Qərargahı generalları öz köhnə xoş günlərini xatırlayıb, "Praqa" restoranını, atom sığınacaqlarını, ordu univermaqlarını geri qaytarıb Telmanı düzdə qoyurlar. Sonra, Putin "Bəziləri, Kalininqrad azad iqtisadi bölgəsində istifadə etməklə 2 milyard dollarlıq malı gömrüksüz-filansız Moskvaya gətirməyə cəhd göstəriblər" deyərək üzünü Çerkiz bazarına doğru tuşlayır.

Telmanın Türkiyəyə gedib, orda təntənəli şəkildə "Mərdan-Palaz" otelini açması və s. və ilaxır kimi uşaq hərəkətləri Putini əsəbiləşdirib cin atına mindirir lap axırda. Cəza tədbirləri bir ara səngimək nədi, bilmir. Müzakirələr, öz gizli pıçıltılarıyla yadda qalır. Rusiya Baş Ordu Kəşfiyyatı (QRU), fürsətdən istifadə edərək Yeltsin dövründə itirdiyi obyektlərini - "Praqa" restoranını, Hərbi Univermaq binasını, atom sığınacaqlarını geri tələb etməyə başlayanda bəlli olur ki, ay hay...yatıbsız fil qulağında, Telman Mardanoviçin çibində qara qəpiyi də yoxdur ki, sizə qaytarsın.



***

Telman Mardanoviç, müğənnilərin başına şabaş səpmək adətini unudub indi. Başı, saysız qalmaqallara qarışıb deyəsən. Ancaq imkan yaransa, mən ona şou-biznes ulduzlarının başına yüz, iki yüz min dollar pul səpdiyi gözəl günlərini xatırladaram. Belə məclislərin birinə özüm şahidəm. "Sokolnikova" bağındakı restorana Azərbaycan şou-biznes nümayəndələrini yığmış Telman, yadımdadı, oturduğu kreslodon qəfil dik yuxarı atıldı. Manısların birinə yaxınlaşıb, başı üzərinə on min dollar pul səpdi. "AST Telman"ın bazar ortaqları, mənzərəyə qarşı biganə qalmadılar. Yerlərindən növbəylə qalxıb Telmanın hərəkətlərini eynən təkrarladılar. Hərəsi, on min dollar pul səpələdi bu şabaş zamanı çox mənasız, şit bir müğənninin daz başına.

***

Telmana ən güclü zərbəni arxadan elə öz doğmaca qardaşı Rafiq vurdu.

Dövri mətbuatda yazılır: "Mənbə bildirib ki, öldürülən Vladimir Savkin Rafiq İsmayılovla birgə Moskvada iri ticarət-əyləncə mərkəzinin sahibi olub. İsmayılov biznesini satıb. 10 milyon dollar qazanc əldə edib. Bu məbləğdən İsmayılov Savkinə 5,5 milyon dollar verməliydi.

Lakin İsmayılov şərikinə çatacaq məbləği vermək istəməyib, Savkin isə ondan pulu almaq üçün cəhdlər göstərib. Belə görünür ki, İsmayılov pulu verməmək üçün ortağını aradan götürməyi qərara alıb".

Sonrakı cari hadisələr əsl dedektiv filmini xatırladır:

"Rafiq öz killerini - Mehman Kərimovu, qətl yerinə oğlu Raul İsmayılova məxsus "Mercedes"də aparıb.

Vladimir Savkinlə görüş mayın 16-da Novorisk şosesində yerləşən BP yanacaqdoldurma məntəqəsinə təyin edilib. Təsadüfən Savkin "Lyublino Motors" şirkətinin direktoru Yuri Brilyovu da özüylə götürüb. Biznesmenlərin görüş yerinə çatmasına bir neçə dəqiqə qalmış, Telman İsmayılovun qohumu Raula məxsus "Mercedes" yanacaqdoldurma məntəqəsinə daxil olub. İstintaq müəyyən edib ki, avtomobildə killer Mehman Kərimovla birlikdə Rafiq İsmayılov da var idi. Bunu video-müşahidə kameraları qeydə alıb.

Video-görüntülərə əsasən "Mercedes" yanacaqdoldurma məntəqəsində bir qədər aralıda dayanıb ki, biznesmenlər salondakı Rafiq İsmayılovu görməsinlər.

Biznesmen Vladimir Savkinlə görüşə ancaq Mehman Kərimov çıxıb, qısa söhbətdən sonra killer biznesmenlərlə birgə "Toyota Land Cruiser" markalı cipə əyləşib. 40 saniyə sonra onun arxasınca Rafiq İsmayılovun olduğu "Mercedes" yola çıxıb. Yanacaqdoldurma məntəqəsindən bir neçə kilometr aralıda həmin "Toyota Land Cruiser"i, salonunda güllələnmiş biznesmenlərlə birlikdə tapıblar".

***

Necə deyərlər, "kəndir nə qədər uzun olsa da, doğanaqdan keçər". Ancaq hər iki qardaşın pasport qeydlərində qəribə fərqlər var. Telmanın pasportunda "İsmailov" yazılıb, Rafiqinkində "İsmaylov". Çətin vəziyyətə düşüb müstəntiqlərlə təkbətək qalanda, qardaşlar qohum olduqlarını qəti inkar edirlər. Birinci dəfə deyil ki, bu, təkrarlanır.

Növbəti məhkəmə zamanı da vəziyyət bir də gördüz təzədən təkrarlandı. Telman İsmailov yerindən qalxıb dedi ki, "ay bədbəxtlər, məni niyə dartıb gətiribsiz bura? Rafiq axı mənim qardaşım deyil"...

Qısası, serial davam edir.

Son akkordlar, yaxın vaxtlar TV-lərdə göstəriləcək. Xahiş edirəm, bu səhnələri diqqətinizdən qaçırmayın.

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017

# "Azərbaycana terror təhlükəsi artıb"

## Sabiq MTN-çidən ölkə gündəmi ilə bağlı həyəcanlı açıqlamalar; **Sülhəddin Əkbər:** "Hakimiyyətdəki "5-ci kolon" demokratik islahatların aparılmasında maraqlı deyil"

**Hazırda Azərbaycanda sosial-iqtisadi, siyasi istiqamətlərdə ciddi proseslər gedir. Son günlər həmçinin terror təhlükəsinin Azərbaycanda duyulduğu barədə vaxtaşırı həyəcanlı məlumatlar yayılır. Eyni zamanda, Qarabağ münaqişəsi ətrafında mürəkkəb proseslər getməkdir. Bundan əlavə, şəhid əsgərimizin cəsədi 18 gündür ermənitərəfdədir və hər kəsin diqqətlə izlədiyi MTN hadisələri ilə bağlı məhkəmə prosesləri davam edir.**

Gündəmdəki bu kimi məsələləri MTN-in sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərlə dəyərləndirdik.

***- Sülhəddin bəy, ölkə daxilində hazırda cərəyan edən prosesləri necə dəyərləndirirsiz?***

- Ölkə sistem böhranındadır. Eyni zamanda idarəçilik böhranı yaşayırıq. Hakimiyyət nə istədiyi kadr dəyişikliklərini, nə də islahatları həyata keçirə bilər. İslahatlar istiqamətində atılan addımlar da öz nəticəsini vermir. Bunun da idarəçilik böhranını daha da dərinləşdirdiyi görünür. Hakimiyyətin ölkədəki böhrandan çıxması mümkünsüz görünür. Müxalifətə gəldikdə isə, müxalifətin ölkədə gedən proseslərə təsiri yoxdur. Çünki müxalifət sistemdən kənar qoyulub. Görünən odur ki, iqtidar gələcəkdə bu yöndə ciddi addımlar atmayacaq, siyasi dialoqlara getməyəcək, demokratik dəyişikliklər aparmayacaq. Bunun da nəticəsində idarəçilik böhranı daha da dərinləşəcək. Buna paralel, ölkədə iqtisadi və sosial böhran gərginləşəcək. Dünyada neftin qiymətinin aşağı düşməsi ilə ölkə maliyyə-iqtisadi və sosial-iqtisadi böhran yaşayır. Ölkənin struktur islahatlarına ciddi ehtiyacı var. Lakin mövcud hakimiyyətin bu istiqamətdəki səylərini görmürük. Gələcək baxımından bu istiqamətlərdə pozitiv dəyişikliklərin olacağını düşünmürəm. Neftin qiymətinin nisbi artımı müvəqqəti xarakter daşıyır. Sabit olsa belə, bu sosial və iqtisadi yöndə irəliləyişlərə səbəb olmayacaq. Çünki ölkənin iqtisadi və idarəçilik sahəsində struktur islahatlara ehtiyac var. Struktur islahatlarının da 5 ildən tez nəticə verməsi mümkün deyil.

Sosial sahə iqtisadi sahə ilə sıx bağlıdır. İqtisadi sahədəki idarəçilikdə böhran yaşandığından bu sahədəki gərginlik də davam edəcək. Maaşların artırılması mümkün deyil, əhalinin gəlirləri və iş yerləri azalır. Digər tərəfdən də manatın devalvasiya nəticəsində alıcılıq qabiliyyəti aşağı düşür. Buna paralel də inflyasiya gedir. Bunun hansı ictimai-siyasi, yaxud sosial-siyasi nəticələri olacaq, bunu gələcək göstərəcək. Əhalinin bu günləri passivliyi sosial-iqtisadi vəziyyətə adekvat deyil. Buna səbəb də hakimiyyətin uzun illərdir apardığı repressiv siyasətdir. Demokratik mübarizə aparan qüvvələr sıradan çıxarılıb. Bu, bir müddət davam edəcək. İndiki durum yeni siyasi qüvvələrin ortaya çıxmasını tələb edir ki, bu da zaman alacaq.

***- Mart ayında struktur dəyişikliklərinin olacağının anonsları verilir...***

- Açığı optimist düşünə bilmirəm. Azərbaycanda 21 fevralda maliyyə-iqtisadi böhran başlayarkən cəmiyyət və siyasi dairələrdə müəyyən ümidlər var idi. 21 dekabrdakı ikinci devalvasiyadan sonra hakimiyyətin islahatlar aparmaq qabiliyyətində olmadığı açıq göründü. Bu baxımdan qarşıdakı zamanlarda ölkədə demokratik siyasi, iqtisadi, hüquqi islahatların aparılacağını gözləmirəm. Bunun üçün yeni siyasi baxışa malik komandaya ehtiyac var. Bu komanda hakimiyyətə gəlməyənə və yeni islahatlar proqramı irəli sürməyənə qədər müsbət dəyişikliklərin olacağına inanmıram. Hətta bu gün sistemli addımlar bu istiqamətdə atılsa belə, bunun nəticələrini beş il gözləməli olacağıq. Hakimiyyət bunun üçün lazım olan vaxtı çoxdan buraxıb. Böhrandan sonra hakimiyyət daxilində gedən proseslər də bu istiqamətdə hər hansı bir ümidə yer buraxmır. Bunun əsas səbəblərindən biri də ölkədə xarici təsirlərin güclü olması, eyni zamanda "beşinci kolon"un mövcudluğu və bu kolonun hakimiyyətdə güclü mövqeyə sahib olmasıdır. Onlar Azərbaycanda demokratik islahatların aparılmasında maraqlı deyillər.



***- Ölkə daxilində gedən proseslərdən biri də MTN məhkəməsidir. Bu proseslərin obyektiv aparıldığını demək mümkünmü?***

- Ölkədə ictimai-siyasi proseslərlə maraqlanan hər bir kəs bilir ki, bu proses obyektiv aparılmır. MTN hərbi təşkilatdır. Burada birinci şəxsin razılığı olmadan bu qədər cinayətlərin baş verməsi mümkün deyil. Nə qədər ki, birinci şəxs məsuliyyətə cəlb olunmayıb - onun məsuliyyətə cəlb olunacağını da düşünmürəm - istintaq prosesinin obyektiv aparılacağına inanmıram. Heç bir vətəndaşımız da buna inanmır. Ona görə də bunun detallarına getmək istəmirəm.

***- Sülhəddin bəy, ölkəmizə İŞİD təhlükəsi də artmaqdadır. Səngəçalda baş verən üç hadisənin fonunda bu barədə nə deyə bilərsiniz?***

- Uzun müddətdir deyirəm ki, Azərbaycana terror təhlükəsi artıb. Azərbaycanın hüquq-mühafizə orqanları, xüsusən, Antiterror Mərkəzi işlərini sürətləndirməli, ölkə daxilində qabaqlayıcı tədbirlər görülməlidir. Bununla bağlı bu sahədə təcrübəsi olan böyük dövlətlərlə kəşfiyyat informasiya mübadiləsini gücləndirməlidir. Terrorun təhdid səviyyəsi günbəgün artır. Ölkə daxilində terror hadisələri baş verir, sadəcə, hakimiyyət bunu gizlədir. Ola bilsin ki, ölkədə panikanın olacağı üçün bu hadisələr gizlədilsin. Amma bu yanlış yanaşmadır. Çünki cəmiyyətin məlumat almaq hüququ var. Hakimiyyətin borcudur ki, cəmiyyəti baş verənlər barədə məlumatlandırsın. Gizlətməklə nəticə əldə etmək mümkün deyil. Cəmiyyəti bu tipli hadisələrə psixoloji olaraq hazırlamaq lazımdır. Çünki qonşu dövlətlərdə baş verənlər tipində hadisələr bizdə də baş versə, o zaman ölkədə panika yaranacaq. Bunun olmaması üçün hakimiyyət cəmiyyəti buna hazırlamalıdır.

***- Qarabağla bağlı gedən proseslərə baxışınızı bilmək istərdik***

- 4 iyun qiyamından bu yana bu məsələdə eyni mövqedə qalıram. Neçə ki, Xəzər regionu və Cənubi Qafqazda Rusiyanın hakim mövqeyinə son verilməyib, bu münaqişənin həlli, xüsusilə Azərbaycan xeyrinə beynəlxalq hüquq normaları əsasında həlli mümkün deyil. Çünki bu konflikt Rusiyanın Ermənistan vasitəsilə ilə öz imperiya maraqlarından geri çəkilməyərək, Azərbaycana qarşı apardığı vəkalət mübarizəsidir. Neçə ki, Rusiya və onun müttəfiqi Ermənistan öz strateji niyyətlərinə çatmayıblar, Azərbaycanı yenidən Rusiyanın tərkibinə qaytarmayıblar, bu problemin həlli mümkün deyil. Digər tərəfdən, münaqişənin həlli regional geosiyasi, hərbi vəziyyətin dəyişməsi halında mümkündür. O zaman da demək mümkün deyil ki, münaqişə Azərbaycanın xeyrinə beynəlxalq hüquq normaları ilə həll olunacaq. Çünki Rusiyanın regionda mövqeyinin zəifləyəcəyi halda Ermənistan dəstəyini Amerika və Avropanın aparıcı dövlətlərindən biri olan Fransadan alacaq. Azərbaycan zaman baxımından gecikib. Ermənistan Rusiya ilə müttəfiq olduğu zamanlarda, əks qütblə ABŞ, Türkiyə, və digər dövlətlərlə, o cümlədən, NATO ilə münasibətini qurmalı idi ki, gözlənilən durum dəyişikliyinə hazır olsun. Durum dəyişərsə, Ermənistan yenə daha çevik tərpənəcək, daha tez Qərblə münasibətlər quracaq. Unutmayaq ki, Ermənistan həm də xristian ölkəsidir.

***- Dekabrın 29-dan şəhid əsgərimizin cəsədi erməni tərəfdədir. Görünən işlər nəticəsiz qalır...***

- Azərbaycan, nəhayət, Rusiya və Ermənistanla eyni anda müharibə vəziyyətində olduğunu anlamalı, Minsk Qrupunun və həmsədrlərin tərkibinə diqqətlə baxmalıdır. Hər üçü erməni lobbisinin ən güclü olduğu dünya dövlətləridir. Azərbaycanın mülkü və hərbi kəşfiyyat orqanları əməliyyat aparərkən buna hərtərəfli hazırlaşmalıdırlar. Bu hazırlıq olmadan hər hansı əməliyyatın həyata keçirilməsi yanlışdır. Sonda belə nəticələrə gətirib çıxarır.

❑ **Cavanşir ABBASLI**



# Qarabağda hərbçimiz şəhid oldu

**Dağlıq Qarabağda ermənilər tərəfindən mövqelərimizin atəşə tutulmasına qarşı cavab tədbirləri görülərkən düşmən atəşindən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu, 1980-ci il təvəllüdlü Bəşirov Fikrət Nurşiravan oğlu şəhid olub.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, ermənilərin növbəti təxribatı nəticəsində şəhid olan hərbi qulluqçu müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunub. Şəhid hərbçimiz dünən Astaranın Şahağacı kəndində dəfn olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə baş sağlığı verir və səbir diləyir.

# Müxalif partiya sədri ölkəyə qarşı təhlükələrdən xilas formulu dedi

## **Əli Əliyev:** "Tək çıxış yolu milli maraqlar zəminində platforma formalaşdırıb daxili konsensusa nail olmaqdır"



Əli Əliyev

**Ötən həftə ABŞ kəşfiyyatının açıqladığı yaxın beş ildə dünya üçün gözlənilənlər barədə proqnoz xarakterli hesabatda deyilir ki, iqtisadi böhran və kataklizmlər artacaq. Rusiyanın aqressiyası daha da güclənəcək. Bu da ətraf ölkələrə təsirsiz ötüşməyəcək.**

VİP sədri Əli Əliyev "Yeni Müsavat"a açıqlamasında bu proqnozların dünyanın bir hissəsi olan Azərbaycana da nə dərəcədə aid olub-olmayacağı barədə fikirlər bildirdi.

Əli Əliyev qeyd etdi ki, ABŞ xüsusi xidmət orqanlarının proqnozlarını nəzərə almamaq olmaz: "Həqiqətən də dünyada və regionda elə proseslər gedir, eyni zamanda, daxildə elə vəziyyət yaranır ki, dövləti təhdid edəcək bir siyasi fazaya daxil olmuşuq. Hakimiyyətin özünü tox aparmasına baxmayaraq, ətrafımızda gedən beynəlxalq proseslər, mövcud siyasi, administrativ, iqtisadi, maliyyə, sosial reallıqlar ölkənin həssas dönəmdə olmasından xəbər verir. Əlbəttə ki, belə şəraitdə kataklizmlər də ola bilər, hakimiyyətdaxili münasibətlər də çat verə bilər. Artıq bunun işartılarını da sezmək mümkündür. Hakimiyyətin ən çox ehtiyatlandığı hakim komanda daxilində təlatümün və inamsızlığın yaranmasıdır. Bu səbəbdəndir ki, keçirilən hay-küylü məhkəmə proseslərində qurumlara rəhbərlik etmiş şəxslərə dəyilmir. Bu dövlət və hökumət qurumlarının birinci şəxslərinə cinayətlərinin böyüklüyündən asılı olmayaraq "Sizə toxunmarıq" mesajıdır. Sədaqətin müqabilində toxunulmazlıq indulgensiyası iqtidar sabitliyinin qorunması məqsədi güdür. lakin bu böhrandan çıxış yolu deyil, onunla bir yerdə olmaq taktikasıdır. Ölkə daxilində gərginlik və böhran dərinləşərsə kənar təhdidlər də artacaq. Dünya dəyişir. Əminəm ki, ABŞ prezidenti Donald Tramp dediklərinin bir qisminə sahib çıxsa, Azərbaycan kimi kiçik dövlətlər iri dövlətlərin təzyiqi ilə üz-üzə qalacaq".

Partiya sədrinin sözlərinə görə, həqiqətən də ən ciddi təhlükə şimal qonşumuzun aqressiv rəftarının get-gedə artmasıdır: "Rusiyanın aqressivliyi ətrafındakı ölkələrə bu və ya digər şəkildə təsir göstərir və göstərəcək. Kreml rəhbərliyi və bütövlükdə Rusiya siyasi isteblişmenti SSRİ-nin bərpası planını açıq ifadə edirlər. Şimal qonşumuzun belə planlarından yan keçməyimiz üçün siyasi qüvvələrin üzərinə ciddi məsuliyyət düşür. Kənar və daxili problemlər məngənəsindən çıxmağın tək yolu milli maraqlar zəminində platforma formalaşdırmaq, daxili konsensusa nail olmaqdır. Yalnız iqtidarın düşünülmüş təşəbbüsləri və ona verilən müxalif qarşılıq cəmiyyətimizin vəziyyətdən çıxışı üçün yol xəritəsi ola bilər".

❑ **E.SEYİDAĞA**



# Gücümüz özümüzə çatır...

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Bir neçə il öncə siyasi məhkəmələrlə bağlı hər gün yolum Bakı Ağır Cinayətlər Məhkəməsinə düşürdü. Həmin mənzərələri daha çox orda görürdüm. "Namus üstündə" arvadını öldürən kişinin qürurlu qohumları, borca görə əmisi oğlunu bıçaqlayan gəncin bir-birini söyən atası... İndi bu mənzərələri qəzetimizin məhkəmə müxbiri İlkin Muradov daha çox görür. Elə gün olmur ki, onun qan donduran qətllərlə bağlı məhkəmə reportajlarını oxuyub, təsirlənməyək. Hətta həmin xəbərlər qəzetin "mətbəx"inə çatanda əməkdaşlar onu öz aralarında uzun-uzadı da müzakirə edirlər. Nə yalan deyim, bəzən özümüzü də qınamadan keçmirik. "Bəlkə biz bu qətllərdən çox yazırıq deyə insanlarda bir alışma, öyrəşmə, özənmə prosesi başlanır" demədiyimiz də olmur... Amma yazmağa, yazdığımızın presedentə çevrilməsinə qalsaydı, bu günə qədər bu ölkədə çox şey yaxşılığa görə dəyişməli deyildimi?**

Amma fikir verin, qətllərin amansızlığı sanki sətirlərdən yağır. Xəbəri axıra qədər oxuyursan, bunca amansızlıq üçün səbəb arayırsan. Yoxdur! Qadın boşanmaq istəyib deyə kişi 15 bıçaq zərbəsi ilə onu öldürüb. Qız təcavüzə uğrayıb, anası buna görə onu qətlə yetirib. Əmisi oğlunu borcunu qaytarmadığı üçün yaba ilə qanına qəltan edib. Bəs ailə institutu, ailə dəyərli, dünyaya örnək göstərməyə çalışdığımız mental dəyərlər? Səbəblərə baxanda ayağının altından yer ikinci dəfə qaçır. Çar-naçar hər şeyi maddi problemlərin üstünə atırsan. İnsanları çarəsizləşdirən, aqressiyasını ən yaxınındakından çıxarmağa vadar edən aclığı, işsizliyi səbəb göstərirsən bu kimi qətllərə. Təsəllidir, əlbəttə. Çünki Azərbaycan ailəsi rəsmən mənəvi aşınmaya məruz qalıb. Dəyərlər sıfırlanıb, humanizm, anlayış, empati qurmaqdan... əsər yox.

Təsəvvür edin, uşaq yaxşı oxumur. Ata-ana yaşadıqları kasıb həyatı uşaqları da yaşamasın, "oxuyub adam olsun" deyə onu şillə-qapazla kitab-dəftərin üstünə qaytarırlar. Bunun da adı olur uşağı yönləndirmək, tərbiyə, yol göstərmək. Döyə-döyə, travma yaşadaraq. Kəmərlə döyüləndən sonra dərs oxuyan uşaqdan hansı gerizəkalı savadlı kadr, yaxşı insan olacağına ümid edir? Özgəsi vaxt qərb ailələrinə ironiya edirik: bir problemləri olan kimi ailə psixoloqunun yanına gedirlər deyib, qəşş edirik. Əslindəsə bu ağır şərtlər daxilində nəinki özünü, ailəni kontrolda saxlamaq ən böyük dərddir. Problem təkcə maddi deyil ki. Ətrafında baş verən pis sürprizlər, çevrəndəki insanlardan gələn və gələcək pisliklər, bunlarla mübarizə aparma taktikası. Biri bunları dinləyəndən sonra dərdlər xeyli azalır, elmlə sübut olunub bu. Əgər bu dinləyən professionaldırsa, yol göstərəndirsə, daha yaxşı, problemlərin çözülmə ehtimalı daha böyük. Balta, bıçaq, tapança ilə çözmək yerinə professional dəstək alıb, şirin dillə həll etmək daha məntiqli görünmürmü?

Ekspertlərsə deyirlər ki, indi ailə daxilində qətllərin, zorakılığın artmasının bir səbəbi də qadınların azad yaşaması, amma kişilərin bu azadlığa qarşı çıxması ilə bağlıdır. Yəni, əvvəllər kişi nə deyirdisə, qadın lbaş üstə» deyib onunla razılaşırdı. Amma indi vəziyyət göstərir ki, qadınlar kişilərdən daha çox inkişaf edirlər. Yeni əvvəlki həyat tərzi ilə qadınlar razılaşmırlar. Bu isə kişilərdə qıcıq yaradır. Qadın itaət etməyəndə kişi ailədə başçı, idarəçi funksiyasının itirildiyini təsəvvür edir. Bu zaman ailədaxili zorakılıq halları baş verir. Anormal vəziyyətdir. Səni sevməyən, səninlə bir evdə yaşamağı istəməyən bir qadına (kişiyə) qarşı niyə zor tətbiq edəsən ki? Uzaqbaşı içində sevgi qırıntıları qalıbsa, bu ailəni xilas etmək, həyat yoldaşını özünə yenidən bağlamaq üçün çarələr axtarar, gözəlliklər edərsən. Məsələn, dava etdiyi günün axşamı evinə gül alıb gəlmiş hansı kişi aqressiya ilə qarşılaşar? Adi bir misal.

Əslində son 20 ildə müxtəlif böhranlı şərtlərin, fərqli mühitlərin daxilində yetişmiş insanların ciddi psixoloji problemlər yaşaması təbiidir. Bu, onların iş, dostluq, ailə münasibətlərinə də təsirsiz ötüşə bilməz. Amma ailə həkimi kimi, ailə psixoloqu, ailə terapisti də olmalıdır. Ailənin bütün fərdlərini tanıyan bir professionalın bu "gəmi"nin batmaması üçün verəcəyi ekspert məsləhətini xəfifə almaq olmaz. Təəssüf ki, xüsusən də bizim qadınlar baxdıqları seriallardan təsirlənib, ordakıların imitasiyası olan bir münasibət sərgiləyirlər. Unudurlar ki, orda bir həftə əvvəl görüb də, özlərini oxşatmağa çalışdıqları asi qadın qəhrəman bir həftə sonra reytinq qurbanı olduğu üçün yayımı dayandırılan serialın sadəcə maaşlı aktrisasıdır. Rejissor fantaziyası, epataj, reytinq təlsi... Doğrudanmı həyatı bu qədər xəfifə almaq olar?

Ailə hər zaman problemlərin həll olunduğu, dərdlərin sıfırlandığı ocaq olub. Adı üstündə - isti bir yer. Ora insan dincini almağa, bəzənsə qayğılarını bölüşüb yüngülləşməyə gəlir. Son zamanlar ellikcə oranı da qan çanağı etməyi başarmışıq.

Qanın istisi isə heç kimi isitmir...

---

# Valyutadəyişmə məntəqələri bərpa olunmaya bilər

## Vahid Əhmədov: "Banklar öz fəaliyyətini normal qursa, o zaman buna ehtiyac qalmayacaq"

**Ötən həftə Mərkəzi Bank valyuta siyasətində dəyişiklik edərək, tam "üzən məzənnəyə" keçid etdi. Bununla yanaşı, kommersiya bankları üçün alış-satış məzənnəsinin müəyyənləşdirilməsi zamanı 4%-lik marja da ləğv edildi. Verilən qərarların nəticəsində valyuta bazarında sərbəstlik əldə edən bankların məzənnəni özləri müəyyənləşdirəcəyi bildirilib.**

Yəni, bir növ, banklara sərbəstlik verilib. Ekspertlər hesab edirlər ki, bu qərardan sonra "qara bazar" tədricən ləğv olunacaq və xarici valyutanın alqı-satqısı banklar vasitəsi ilə həyata keçiriləcək. Bəs, belə olan təqdirdə ölkədə uzun müddətdir ki, bağlı qalan valyutadəyişmə məntəqələri açıla bilərmi?

İlk olaraq qeyd edək ki, paytaxt ərazisində vaxtilə fəaliyyət göstərən bir neçə valyutadəyişmə məntəqəsinin yerləşdiyi ünvanda olduq. Lakin müşahidə etdik ki, bu məntəqələr hələ də fəaliyyət göstərmir. Eyni zamanda onların yerləşdiyi obyektlər də başqa bir iş üçün icarəyə verilməyib. Obyektlərin üzərində indi də "mübadilə şöbəsi" yazısına rast gəlinir.

"Yeni Müsavat"a danışan deputat Vahid Əhmədov bildirdi ki, valyutadəyişmə məntəqələrinin açılması maliyyə bazarlarında nəzərdə tutulan məsələlərə baxır: "Bu məntəqələr ona görə bağlanmışdı ki, "qara bazar"la bağlı ciddi problemlər yaranmışdı. Ona görə də bütün banklara göstəriş verdilər ki, öz filiallarında dəyişməni sürətləndirsinlər. Ümumiyyətlə, dünyada faktiki olaraq valyutadəyişmə məntəqələri yalnız bankların nəzdində olub. Bankların nəzdindəki bu məntəqələrdə isə istənilən halda valyutanı gedib dəyişmək olur. Xarici dövlətlərdə vəziyyət bu cürdür. Valyutadəyişmə məntəqələri Sovet sistemindən sonra yaranmış müstəqil dövlətlərdə əmələ gəlib. Ancaq mənə elə gəlir ki, əgər banklar öz fəaliyyətlərini normal şəkildə qurarlarsa və valyuta dəyişməsində heç bir problem olmazsa, o zaman heç bu məntəqələrə də ehtiyac olmaz. Burada əsas məsələ ondan ibarətdir ki, indi "üzən məzənnə"dən, tam "üzən məzənnə"yə keçirilir. Ancaq düşünürəm ki, hələ ki buna müəyyən qədər vaxt lazımdır. Doğrudur, Dövlət Neft Fondundan Mərkəzi Banka 7.5 milyard manatlıq transfer edildi. Ancaq düşünürəm ki, tam "üzən məzənnə" siyasətinə birdən-birə keçid etmək olmaz. Birdən-birə keçid etmək həm manatın məzənnəsi, həm əhali, həm də sahibkarlar üçün çox ciddi problemlər yarada bilər".



V. Əhmədov manatın bundan sonrakı məzənnəsi ilə bağlı aşağıdakıları söylədi: "Bundan sonra manatın məzənnəsində hansı dəyişikliklərin olması Mərkəzi Bankın apardığı siyasətdən asılıdır. Misal üçün mən, Mərkəzi Bankın yerində olsaydım, qısa müddət üçün manatın məzənnəsini stabil saxlayardım. Çünki bu il Azərbaycanda iqtisadiyyatın inkişafı ili kimi nəzərdə tutulub və "strateji yol xəritəsi" yaradılıb. Ancaq bir məqam da var ki, manat onsuz da gec-tez öz həqiqi dəyərini almalıdır. Biz daim manata vəsait xərcləməli deyilik ki. İndiyə qədər onsuz da manata külli miqdarda vəsait xərclənib. Bu baxımdan hesab edirəm ki, artıq yavaş-yavaş manat bazarda öz həqiqi dəyərini almalıdır. O zaman nə "qara bazar" olacaq, nə də başqa məsələlər yaranacaq. Burada bizi narahat edən iki əsas məsələ var. Birincisi, idxal və ixrac əməliyyatlarıdır. Yəni ixrac idxalı üstələməlidir ki, problem yaranmasın, müsbət saldo olsun. Misal üçün, 2016-cı ildə 5 milyard manata yaxın mənfi saldo ticarət balansı yarandı. Bu, yaxşı hal deyil. Bir də ki, vəziyyət əsasən neftin qiymətindən asılıdır. Bütün bunlar fonunda düşünürəm ki, hazır etdiyimiz "strateji yol xəritəsi"nə uyğun olaraq, qeyri-neft sektorunun inkişafı ilə ciddi məşğul olmaq lazımdır".

Vahid Əhmədov 4 faizlik marjanın ləğv olunması məsələsinə də toxundu: "Mən daha öncədən də deyirdim ki, buna ehtiyac yoxdur. Çünki 4 faizlik marja nədən ötrü ayrılmışdı? Banklar nə edirdilər və onların funksiyası nədən ibarət idi? Onların funksiyası hərracdan alınan vəsaiti aparıb əhaliyə, biznesmenlərə və saira vermək idi. Bu, 0.5 -0.7 faiz olsaydı yenə də başa düşmək olardı. Ancaq 4 faizlik marja faktiki olaraq banklara mənfəət gətirirdi. Yuxarıda qeyd etdiyim kimi, tam "üzən məzənnə" siyasətinə indi keçmək olmaz. Bunun üçün bir çox məsələlər öz həllini tapmalıdır. Hələ ki Mərkəzi Bank tənzimləmə siyasəti aparacaq ki, ciddi problemlər yaranmasın".

❑ **Əli RAİS**

---

# Sabiq MTN zabiti: "Eldar Mahmudovun məsələsi hüquq çərçivəsindən çıxıb"

**Keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun hələ də həbs olunmaması müzakirə mövzusu olaraq qalır. Sabiq nazir 2015-ci ilin oktyabrında tutduğu postdan uzaqlaşdırılandan sonra onun tezliklə həbsə alınacağı gözlənilirdi. 61 yaşlı keçmiş nazirin müəmmalı şəkildə istintaqdan kənarda qalması bir çox suallar yaradır.**



İstefada olan MTN zabiti, polkovnik-leytenant İlham İsmayıl Politika.az-a açıqlamasında məsələnin hüquq çərçivəsindən çıxdığını deyib: "Eldar Mahmudovun həbs edilməsi üçün kifayət qədər əsaslar var. Hətta istintaq materiallarından xəbər tutmasaq belə, səhlənkarlıq deyilən bir maddə var. Bunu da tətbiq etmək olar. Bu maddə tətbiq olunmayıbsa, deməli, ittiham edən tərəf özünü suçlu bilir. Söhbət artıq burada hüquq çərçivəsində çıxır, siyasi, hansısa şəxsi münasibətlər, yaxud hansısa kompromatlar fonunda cərəyan edir. Ona görə də Eldar Mahmudovun həbs olunmaması artıq reallığa çevrilir".

Ekspertin fikrincə, hadisələrin ən gərgin vaxtında həbslər olur, sonradan araşdırılır, ya buraxılır, ya da daha ağır bir vəziyyət yaranır: "Burda isə heç bir hadisə baş vermədi. Keçmiş nazir cinayət məsuliyyətinə cəlb olunmayıbsa, deməli, ittiham edən tərəf susmağı üstün tutur. Ortada oğurlanmış pulların geri qaytarılması məsələsi ola bilər. Ancaq bu versiya da Mahmudovun azadlıqda qalmasına əsas vermir. Sonuncu versiya budur ki, guya ona deyiblər, bu qədər pulu geri qaytar, səni tutmayaq. Bunun özü də əslində cinayətdir. Belə çıxır ki, sənə şərait yaratmışıq, o pulu qazanmısan, indi də deyirik ki, həmin pulları geri qaytar, yenə səni tutmayacağıq. Əslində pulu qaytarandan sonra da tutmaq lazımdır ki, sən bu cinayətləri niyə törətmisən. Məsələ hüquqi yolla həll olunmadığından biz buna rəy verə bilmirik, proses getmir. Ona görə də müxtəlif rəylər, yalan iddialar yayılır. Hadisələrin inkişafını izləmək lazımdır".

# "Ermənistanla yalnız silahla danışmaq lazımdır"

## Etimad Əsədov: "Təsəvvür edin, həm vətənimizin, həm də bədənimizin 20 faizi gedib, bu, ikiqat ağırdır"

**"Baxış bucağı"**

**İşğalçı Ermənistanın Qarabağ danışıqlarından imtinasına beynəlxalq təşkilatların, xüsusilə də prosesdə vasitəçilik edən güclərin loyal münasibəti savaşı qaçılmaz edir. Artıq yeni ilin ilk günlərində növbəti dəhşətli savaşın anonsu barədə proqnozlar səslənməkdədir. Mövcud durum birinci Qarabağ savaşının iştirakçılarını da ciddi şəkildə narahat edir. Müharibə veteranları mənasız sülh danışıqlarından imtinanı və Vətən savaşına başlamağı yeganə çıxış yolu sayır. Qarabağ Qaziləri İctimai Birliyinin sədri Etimad Əsədov döyüş yoldaşlarının mövqeyini "Yeni Müsavat"a bölüşdü:**



**"Ölkəmizin döyüşkən oğulları kiçik partizan dəstələri ilə Qarabağda ermənilərə qarşı savaşa başlamalıdır"**

**"Əgər erməni əsgəri meyiti Azərbaycan tərəfdə qalsaydı, bütün xristian dünyası ayağa qalxardı"**

***- Etimad bəy, Qarabağ danışıqları iflasa uğrayıb və prosesin nə zaman bərpa olunacağı bəlli deyil. Görünən budur ki, düşmən bizi digər tarixi ərazilərimiz kimi, Qarabağın da əldən getməsi faktı ilə barışdırmaq üçün "nə sülh, nə müharibə" durumunun davamında maraqlıdır. Siz bu vəziyyət barədə nə deyə bilərsiniz?***

- Vəziyyət, həqiqətən də, ürəkaçan deyil. Mən on il bundan əvvəl təşkilatımızın üzvləri ilə görüşlərdə deyirdim ki, vaxt vardı babalarımız İrəvan, Göyçə, Zəngəzur, Dərələyəzin bizim olduğunu, sonrakı dönəmlərdə ermənilərə qaldığını danışırdılar, indi də "sülh danışıqları" adı altında Qarabağı özününküləşdirmək üçün ermənilərə zaman qazandırırlar. Bu danışıqlar işğal olunmuş torpaqların de-yure ilhaqına xidmət edir və prosesin də başında sırf erməni mövqeyindən çıxış edən Rusiya, Amerika və Fransa dayanır. Hər dəfə açıqlama verərkən "bu münaqişə ancaq sülh yolu həll oluna bilər, bunun müharibə variantı yoxdur" deyərək başımızın altına yastıq qoyurlar.

Amma bir məsələni nəzərə almalıyıq. Erməni xisləti elədir ki, onlar sülh yolu ilə bizim torpaqlarımızı heç vaxt geri qaytarmayacaqlar. Azərbaycan dövləti fikirləşməlidir ki, bu danışıqlar nə qədər davam edə bilər? Artıq bir nəsil dəyişib. Daha bir nəsil dəyişdikdən sonra artıq Qarabağ Göyçə, Zəngəzur kimi əlimizdən alınıb ermənilərə veriləcək. Ona görə də Azərbaycan dövləti torpaqların konkret bir müddətdə geri qaytarılması ilə bağlı qarşısına məqsəd qoymalı, bir plan işləməlidir. Ya genişmiqyaslı müharibə variantına əl atılmalı, ya da lokal partizan müharibəsi ilə ərazilərimiz uğrunda savaşa qalxmalıyıq.

***- Amma ortada vasitəçilərin, dünya güclərinin iradəsi var, onlar savaşın olmaması üçün var gücləri ilə çalışır, Azərbaycana təzyiqlər edirlər...***

- Mənim düşüncəmə görə, Qarabağ torpaqlarının ermənilərdə qalmasına bu saat xristian dövlətləri var gücləri ilə çalışırlar. Onlar ATƏT, Avropa Şurası, Avropa İttifaqı çərçivəsində ermənilləri dolayı şəkildə müdafiə edirlər. Eləcə də BMT-də qəbul olunmuş qətnamələrin yerinə yetirilməməsi Ermənistanın himayə olunması anlamını verir. Beynəlxalq aləm müharibəni istisna etməklə, danışıq adı ilə Azərbaycanı sakitləşdirir. Azərbaycan bu mövqedə qaldıqca onların da ayağı yer alır. Birmənalı şəkildə bu torpaqları düşmənə güzəştə getmək olmaz! Zaman-zaman onlar torpaqlarımıza sahib çıxıblar. Bu dəfə güzəştə getsək, növbəti mərhələdə yenə də onlar qalan ərazilərimizə də sahiblənməyə çalışacaqlar. Ona görə də Azərbaycan dövləti şərait yaratmalıdır, ölkəmizin qeyrətli, döyüşkən oğulları kiçik partizan dəstələri ilə Qarabağda ermənilərə qarşı savaşa başlamalıdırlar. Bununla da beynəlxalq aləmə bəyan etməliyik ki, mən dövlət olaraq sülhün tərəfdarıyam, amma ölkəmin vətəndaşları təslimçi sülhü qəbul etmir, onlar ölüm də olsa, vətən torpaqlarına sahib çıxacaqlarına and içiblər. Bu yolla xalqın istəyini ortaya qoymaq, dünyaya yaymaq lazımdır. Qoy bizə 20 ildən artıqdır sülh dərsi keçənlər görsünlər ki, bizim xalqımız bu sülh dərsini qəbul etmir.

***- Sülh platformasının üzvlərinin mövqeyi ilə yaqin ki, tanışsınız. Sizcə, ermənilərin də iştirak etdiyi bu proses Ermənistan hakimiyyətini ədalətli sülhə vadar edə bilərmi?***

- Mənim həmin platforma ilə bağlı məlumatım var. Amma orda təmsil olunanlar Azərbaycan cəmiyyətində tanınan şəxslər deyillər. Şəxsən mən onları tanımıram, nəinki digər vətəndaşlar. Bu, sadəcə olaraq, Azərbaycanda 10-15 il bundan qabaq başlamış "xalq diplomatiyası"nın davamıdır. Bu proses də sadəcə, vaxt udmağa, xalqın başını qatmağa xidmət edir. Ermənilər heç vaxt bu yollarla torpaqları geri qaytarmayacaqlar. Deyilir ki, erməni hakimiyyəti Xocalı soyqımını həyata keçirib, torpaqları işğal edib. Erməni hakimiyyəti o qədər xəbis, o qədər iblisdir ki, onları bu cür təsirlərlə ərazi işğalından əl çəkməyə vadar etmək mümkün deyil. Bu mənada o platformanın da müsbət nəticəsi olmayacaq. Hətta son zamanlar dövlət yetkililəri də açıq şəkildə bəyan edir ki, ATƏT-in həyata keçirdiyi danışıqların heç bir nəticəsi yoxdur, işğalçıya təzyiq göstərməyən bu təşkilat boş, mənasız bir qurumdur. Mən də o fikirdəyəm ki, Minsk Qrupunun həmsədrlərinin fəaliyyətindən imtina olunmalıdır.

***- Ermənistanda Serj Sərksiyana qarşı sərgilənən etirazlar son nəticədə onun hakimiyyətdən getməsi ilə nəticələnərsə, o halda Qarabağla bağlı anlaşmaya ümid etmək olarmı?***

- Bunun heç bir mənası olmayacaq. Ter-Petrosyan, ya Sərkisyanın hakimiyyətdə olmasının heç bir fərqi yoxdur. Kim gedir-getsin, əvəzinə kim gəlir-gəlsin, ermənilərin vahid bir Qarabağ planı var, hakimiyyətdə təmsil olunan istənilən qüvvə o planı icra edəcək. Onların Azərbaycana, türklərə qarşı qəddarcasına düşmənçilik münasibəti var. Ermənilərin qarşıya qoyduğu məkrli plan budur ki, Azərbaycan və Türkiyə torpaqları hesabına Ermənistanın ərazilərini genişləndirsinlər. Onlar heç vaxt bu plandan imtina etməyəcəklər, dünya var olduqca bu əməllərini davam etdirəcəklər. Buna görə də Ermənistanda hakimiyyətin dəyişməsi Qarabağın geri qaytarılmasına heç bir müsbət təsir göstərə bilməz. Buna inananlar sadəlövhlərdir.

***- Siz özünüz də qarabağlısınız və oradakı mülki ermənilər haqqında da məlumatsız deyilsiniz. Qarabağdakı mülki əhalinin separatçıların əlində girov vəziyyətində qaldığı barədə fikirləri necə, bölüşürsünüzmü?***

- Ola bilər ki, sadə insanlar bu müharibədən üzülüblər. Çünki acınacaqlı durumda yaşayırlar, övladları müharibədə ölür. Bu vəziyyətdən qurtulmaq üçün də sülhün əldə olunmasını istəyirlər, bu torpaqların Azərbaycana məxsus olduğunu dərk edirlər. Əlbəttə, Qarabağ erməniləri bu durumdan bezib vəziyyətə etiraz edə bilərlər. Amma bu, o demək deyil ki, onların istəyi ilə separatçıların və erməni hökumətinin məkrli planı dəyişəcək, torpaqları geri qaytaracaqlar. Orada xalqın istəyinin necəliyindən asılı olmayaraq, rəhbərliyin qarşısına qoyduğu məqsəd budur ki, Azərbaycan torpaqları hesabına Ermənistan ərazisi genişləndirilsin.

***- Azərbaycanın şəhid olmuş əsgərinin nəşi iki həftədir ki, ermənilərin əlindədir, geri qaytarmırlar. Döyüşlər vaxtı bu kimi hallar olubmu? Onu düşməndən almağın yolu, sizcə, necədir?***

- Mən bununla bağlı KİV-də beynəlxalq təşkilatların, vasitəçi ölkələrin münasibətini də oxudum. Sizi inandırım, əgər erməni əsgəri meyiti Azərbaycan tərəfdə qalsaydı, bütün xristian dünyası ayağa qalxardı. İkiüzlü siyasəti, ikiüzlü yanaşmanı görürsünüzmü? Gör ermənilər nə qədər mənfur, iyrəncdirlər ki, meyitdən də intiqam alırlar. Dəfələrlə döyüşlər zamanı həm onlardan, həm də bizdən ölənlər olub, atəşi dayandırıb meyitləri dəyişmişik, bir insani yanaşma olub. Ermənilər bizim şəhidin meyitini qaytarmır, beynəlxalq təşkilatlar isə yalnız bir həftə keçəndən sonra qurquldaşırlar. Ermənilərə təzyiq göstərmirlər ki, "qaytarın əsgərin meyitini, girovluqda saxladığınız vətəndaşlarını" - baxmayaraq ki, ATƏT də, ABŞ da, Fransa da, Rusiya da bunu bilir. İkitərəfli münasibətlər adı altında tam şəkildə ermənilərə dəstək verməklə məşğuldurlar. Tarix boyu baş verən müharibələrdə həlak olanların cəsədlərinə hörmətlə yanaşılıb. Çanaqqala savaşında da belə olub. Atəşkəs elan olunub, hər kəs öz meyitinə sahib çıxıb. Şərait yaradılıb ki, tərəflər öz meyitlərini aparıb basdırsınlar, döyüş bölgəsində hörmətsiz vəziyyətdə qalmasın. Ermənistanın həlak olan əsgərimizə münasibəti isə çox dəhşətli bir haldır. Bu fakt Azərbaycana bir daha dərs olmalıdır ki, Ermənistanla sülh danışıqlarının sonu yoxdur. Ermənilərlə yalnız silahla danışmaq lazımdır. 25 ildən çoxdur ki, torpaqlarımız ermənilərdədir. Biz nə vaxt torpaqlarımıza sahib çıxacağıq, nəyi gözləyirik?! Kimsə torpaqlarımızı alıb bizə verməyəcək. Biz özümüzdə təpər tapıb namusumuz olan vətənimizə sahib çıxmalıyıq, qardaş! Demirikmi Vətən anadır? Övlad anasının namusuna sahib çıxmalı deyil? Ananın namusu nə qədər girovluqda qala bilər?! Onda gəlin Vətənimizə "ana vətən" deməyək də...

Adam gecə-gündüz yanıb-yaxılır. Bu vəziyyət xüsusilə də bizlər, bədəninin bir parçasını itirmiş insanlar üçün çox ağırdır. Mən o döyüşlərdə bir ayağımı itirmişəm. Təsəvvür edin, həm Vətənimizin, həm də bədənimizin 20 faizi gedib, bu, ikiqat ağırdır. Şəxsən mənim bədənimin 20 faizi yoxdur. Həm ayağımı itirmişəm, həm torpağımı, bu, mənə o qədər pis təsir edir ki...Ona görə bizim müharibə insanları daha çox yanıb-yaxılırlar ki, axı, biz orda can qoyduq, bədənimizin yarısını itirdik. Ona görə yox ki, torpaqlar on illərlə işğalda qalsın. Bu mənada müharibə insanları savaş gününün daha çox intizarındadırlar. Hamımız bilirik ki, bir gün bu dünyadan köçüb gedəcəyik. Bu Vətən uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb getmək daha şərəflidir. Yetər ki, bizə şərait yaradılsın. Düzdür, ordumuz bütün sahələrdə ermənilərdən qat-qat yüksək səviyyədədir. Amma Vətən torpaqlarını azad etmək üçün ürək qoymaq lazımdır, ürək! Hərbi arsenal bəzən qələbə üçün yetərli olmur...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017



# Ev qatığı haqda

Zamin HACI
zaminhaci@gmail.com

**Bakıda dükanlarda satılan, kustar üsulla hazırlanan qatıqlara millət qabaqlar "kənd qatığı" deyirdi. İndi fikir vermişəm, çox yerdə daha səmimi olmağa başlayıb "ev qatığı" adlandırırlar. Kənd təsərrüfatı məhv edilibsə, zəhmətkeşlər Bakıda evlərində və gizli sexlərdə qatıq düzəldirsə, doğrudan da bunu elə ev qatığı adıyla markalamaq lazımdır. Yaxşı olar bir çox idarələr müftə yerə dövlət büdcəsini sümürmək əvəzinə qatıq buraxsınlar, onun da adı "idarə qatığı" olsun. "General qatığı", "bankir qatığı", "müəllim qatığı" və sairə - gör necə gözəl səslənir, iqtisadiyyatımızın inkişafına dayaqdır! Şəxsən mən jurnalistikanın başını buraxıb "Qəzet qatığı" hazırlamağa can-başla hazıram. Onsuz da hazırda cəmiyyətin tələblərinə cavab verməyən cızmaqara ilə məşğuluq. Həqiqəti yazmağa milyon dənə maneə varsa, qatıq çalmaq daha məqsədə uyğun deyilmi?**

Bax, keçən həftə həmin ev qatıqlarından bir banka almışdım, mənim sevimli məşğuliyyətlərimdən biri həmin qatıq bankalarının ağzına iplə bərkidilən kağız parçalarını oxumaqdır. Düşünürəm ki, o kağızlarda haçansa həyatımın məqsədi, gələcək planlarım, ya da bəd ayaqda keçmişdə nələr olubdur, bu haqda informasiya alacağam. (Dindarlar demişkən, vergi veriləcək).

Misal üçün, bir dəfə kağızda Şirvan şəhər maarif şöbəsinin müdiri hansısa işçinin məzuniyyətə çıxmasına dərkənar yazmışdı: "Etiraz etmirəm". Başqa vaxt "Neftçi"nin oyun sxemi haqda məşqçinin qeydləri, bir dəfə isə hətta "Azərsat" peykinin koordinatları sənədi çıxmışdı. Fikrim var o kağızları toplayıb muzey açım. "Qatıq muzeyi" - turistlər üçün də maraqlı olar.

Bu dəfəki qatığın kağızı da tam dövrümüzə uyğun idi: hansısa maliyyəçinin magistr işini vərəqi idi. Bu tip cümlələr yazılmışdı: "Auditor nəzarətin həyata keçirilməsi zamanı kapital bazarında səhmdar cəmiyyətin qiymətləndirilməsi..." və sairə və ilaxır.

Bəli, bütün maliyyə uğurlarımız beləcə qatığa çevrilib maliyyəçilərin başına yaxıldı, indi aktual temada yazsaq, uzunqulağa mindirilib atası evinə qaytarıldı. Nəticədə hazırda qonşu Gürcüstan Avropa Birliyi ölkələrinə baldan yuna, mineral sudan şəraba qədər min cür məhsul ixrac edib valyuta qazanır, biz isə dırnağımızı gəmiririk. Çünki millət gərək iki yoldan birini seçsin. Populyar iqtisadiyyatın varsa, tez-tez dəyişən, bir növ qeyri-populyar hakimiyyətin olacaq. Əksinə, dahi rəhbər və liderlər altında millətlər həmişə aclıq çəkir. Misal üçün, çox adam bilmir, SSRİ-də 1946-47-ci ildə dəhşətli aclıq olub. Bəzi hesablamalara görə aclıqdan 1 milyon yarıma qədər insan ölüb. Təsəvvür edin, faşistlər üzərində qələbədən cəmi 1 il sonra millət çörək tapmırdı. Çünki "dahi" rəhbər Stalinin axmaq siyasəti üzündən bütün iqtisadiyyat darmadağın idi. Məğlub Almaniyadan qalib SSRİ-ni xilas üçün taxıl oğurlayıb gətirirdilər.

Ancaq insaf naminə onu da yazım ki, hazırda dükanlarda satılan ev qatığı zavod qatığına nisbətən dadlıdır. Bunun özü müsbət addımdır. İstəsələr əhəngdən, karyer tozundan, alebastr və gənəgərçək yağından qatıq düzəldərdilər, nə edə bilərdik?

Yaxşı yadıma düşdü, keçən yazımda Azərbaycanın kitab çapı və oxunması üzrə miflərindən birini dağıtmışdım. O mif belədir ki, guya biz SSRİ vaxtı oxuyan olmuşuq, müstəqillik dövründə oxumuruq. Hərə servanta yaxşı cildi görünsün deyə beş-on kitab düzürdü, guya bununla alim olurdu. Sosial şəbəkədə o yazımın müzakirəsi zamanı bəziləri məni yalan yazmaqda suçladı. Həmin azmaqlar üçün (mən də səhv edə bilərəm, ancaq yalançılıq təhqirdir, bunu edənlər cavabını almalıdır) dəqiq rəqəmləri yazıram. Bu rəqəmlər hazırda internet resurslarında qalır - həzrəti-Google kömək olsun. Buyurun, qısa icmalla tanış olun.

1989-cu ildə müttəfiq respublikalar üzrə kitab çapı (çap vahidi ilə): Gürcüstan - 1971, Litva - 1672, Moldova - 1479, Latviya - 1927, Estoniya - 2070, Azərbaycan - 1264. Əhalinin hər 100 nəfərinə düşən kitab nüsxəsi: Litva - 640, Gürcüstan - 369, Moldova - 489, Türkmənistan - 226, Tacikistan - 217, Ermənistan - 382, Azərbaycan - 253 və sairə. Əlbəttə, bizim kitab oxumaq məsələsində əsas müqayisə ermənilərlə aparılsa yaxşıdır. 1918-1990-cı illər arasında SSRİ-də erməni dilində buraxılan kitab, broşür və çap vahidləri (ancaq bədii ədəbiyyat) cəmi 7991 ədəd olub. Azərbaycan dilində bu rəqəm 7770-dir. Əhalinin say nisbətini də nəzərə alanda çox pis uduzuruq. Yaxud, 1980-ci ildə hər 100 nəfərə düşən kitab çapı Azərbaycanda 191 ədəd olub, Ermənistanda isə 291. Gürcüstanda 286.

1980-ci ilin rəqəmini ona görə yazdım ki, bəzi ağzıgöyçəklər "Qorboçov elədi, yoxsa oxuyurduq" deyə mızıldanmasın. Sovetin nisbətən qarnıtox vaxtında da ermənilər bizdən çox kitab çap ediblər.

Rəqəm misalı çox gətirmək olar, ancaq nə ehtiyac? Kor kor, gör gör - vəziyyət ortadadır. Nə əkmişik, onu biçirik.

# Güney Qafqaz mühüm gəlişmələr astanasında

**Bir neçə gündən sonra ABŞ-ın yeni prezidenti Donald Trampın andiçmə mərasimi olacaq və o, rəsmən öz vəzifəsinin icrasına başlayacaq. Siyasi şərhçilər Tramp dönəmində ABŞ və Rusiya arasında münasibətlərin perspektivinə məxsusi diqqət ayırırlar. Məntiqlidir, çünki Moskva-Vaşinqton əlaqələrinin hansı məcrada inkişaf tapacağı qlobal və regional təhlükəsizliyə həlledici təsir göstərə bilən faktor sayılır.**




## Krımdan Qarabağadək - Azərbaycan üçün kritik Tramp dönəmi başlayır

Bu həftə ABŞ-ın yeni prezidenti and içəcək; Azərbaycan yeni çağırışlar və reallıqlarla üz-üzə; Kreml Qarabağ məsələsində şəriksiz moderatora çevrilir? Bakı, Ankara və Moskvanın uzlaşdırılmış siyasəti Ermənistana qarşı yeni diplomatik cəbhənin açılmasına və işğalçının təklənməsinə gətirə bilər...

Lakin D.Trampın Rusiya, prezident V.Putinlə bağlı açıqlamalarına diqqət yönəldən analitiklər son vaxtlar onun Kremlə qarşı loyal yanaşma sərgiləyə biləcəyi barədə daha ehtiyatlı danışmağa başlayıblar. Belə bir məqam önə çəkilir ki, seçki kampaniyası dövründə verilən vədlər bir, prezident kimi dərk edilən məsuliyyət isə başqadır və Tramp da sərt reallığı - Amerikanın köklü maraqlarını görməzlikdən gələ bilməz.

*****

Söz düşmüşkən, Ağ Evin yeni sahibi artıq Rusiyanı məyus etməyə başlayıb. Belə ki, o, Obama administrasiyasının Rusiyaya tətbiq etdiyi sanksiyaları qüvvədə saxlayacağını bəyan edib. Yeni prezident yalnız Rusiyanın terrorçuluqla mübarizə və digər sahələrdə özünü müsbət tərəfdən göstərdiyi təqdirdə sanksiyaların ləğv ediləcəyini söyləyib.

Bu, kifayət qədər ciddi siqnaldır. Az öncə isə dövlət katibi postuna namizəd Reks Tillerson bildirmişdi ki, ABŞ Krımın Rusiyaya birləşməsini yalnız Ukraynanın maraqlarına hörmət edəcək geniş müqavilənin imzalanması halında tanıyacaq. Yəni faktiki, şəkildə o, məsələnin çözümünün Kiyevin razılığı əsasında da mümkün ola biləcəyinə işarə vurub. Tillerson Kremlin belə bir addımı atmayacağı təqdirdə ABŞ-ın Krımın anneksiyasını tanımayacağını da deyib. O, həmçinin Krımın ilhaqını qanunsuz hesab etdiyini söyləyib.

Bu, onun anonsudur ki, Trampın Krımı Rusiyanın tərkib hissəsi kimi tanıya biləcəyi haqda məlum açıqlaması əslində hərfi mənada başa düşülməməlidir. Krım məsələsi isə xeyli dərəcədə Dağlıq Qarabağ məsələsi ilə analogiya təşkil edir...

*****

İş də ondadır ki, ABŞ-Rusiya münasibətlərinin xarakteri Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir. Ən azından o səbəbə ki, önümüzdəki il(lər)də Dağlıq Qarabağ probleminin həll perspektivi bu amildən böyük ölçüdə asılı olacaq. Doğrudur, Barak Obama dönəmində biz münaqişənin nizamlanmasında Vaşinqtonun sanballı təşəbbüskarlığını görmədik. Prezident Obama rusiyalı həmkarından fərqli olaraq, bircə dəfə də olsun, Vaşinqtonda Əliyev-Sərkisyan görüşünü təşkil etmədi - nəyə görə ki, elə amerikalı ekspertlərin özü, o sırada sabiq səfir Metyu Brayza tərəfindən Ağ Ev güclü tənqidlərə məruz qaldı.

Hərçənd, istənilən halda ABŞ-ın Qarabağ məsələsində potensial təsir imkanı qalır. Di gəl, hələ ki Ağ Ev onu hərəkətə gətirməyə tələsmir. Bəs D. Trampın dönəmi Qarabağ ixtilafı üçün nə vəd edir? Mövzunu şərh edən amerikalı politoloq Maykl Bom hesab edir ki, Qarabağ məsələsi Donald Tramp üçün maraqlı deyil (virtualaz.org). Onun qənaətincə, Trampın prezidentliyi dövründə ABŞ-ın Qarabağ münaqişəsinin həllində iştirakı minimuma enəcək.

"Qarabağ məsələsinin həlli Obama administrasiyasını elə də narahat etmirdi. Ştatların daxili problemlərinin prioritet olduğunu bəyan etmiş Trampın dövründə isə Vaşinqtonun bu münaqişənin tənzimlənməsində iştirakı daha az olacaq" - politoloq qeyd edib. Ekspertin sözlərinə görə, Ermənistan-Azərbaycan qarşıdurması da daxil olmaqla, postsovet məkanında münaqişələrin siyasi yollarla tənzimlənməsi yeni prezidentin xarici siyasət maraqlarının əsas blokuna daxil deyil: "Lakin buna baxmayaraq, Vaşinqton münaqişənin kəskinləşəcəyi təqdirdə Azərbaycanla Ermənistan arasında hərbi qarşıdurma bərpa ediləcəyi hallarda fəallıq nümayiş etdirə bilər", - amerikalı politoloq güman edir. Ümumilikdə Bom vurğulayıb ki, respublikaçılar hökuməti xüsusilə ticari-iqtisadi sahədə Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır.

*****

Bu arada Trampla bağlı Rusiyanın əlində qalmaqallı intim video kompromatların olması haqda xəbərlər ciddiləşib. Bu da ABŞ-ın yeni prezidentinin Rusiya qarşısında manevr imkanlarını daralda, onu regional məsələlərdə də Putin qarşısında daha zəif mövqeyə tuş edə bilər. Bütün bunlar o anlama gəlir ki, konkret olaraq Qarabağ məsələsində rəsmi Moskva həqiqətən də Tramp dönəmində güclü dominantlıq əldə edə bilər. Bəs, belə perspektiv Azərbaycan üçün pisdir, yoxsa yaxşı?

Ondan başlayaq ki, Qarabağ məsələsində əsas söz sahibi hələ ki Rusiyadır. Bu reallıqla hətta Barak Obama administrasıyası da barışmışdı. Rusiyanın Qarabağ məsələsində yanaşması isə qeyri-müəyyən olaraq qalır.

"Rusiya məsuliyyəti tərəflərin üzərinə atır, ancaq Ermənistan tərəfi hər vəchlə siyasi təxribatlara hazırlaşır". Bu sözləri axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. O da danışıqlar prosesinin dondurulmasında və münaqişənin həll edilməməsində Rusiyanın mövqeyinin həlledici rol oynadığını düşünür. Hüseynlinin fikrincə, Rusiya son zamanlar qəribə bir əda nümayiş etdirməkdir: "Ancaq böyük dövlətlər bölgədə müharibənin baş verməsini istəmir və onların bu istiqamətdə səylərini artırdığını görmək mümkündür. Çünki bütün tərəflər müharibə təhlükəsinin artdığını görür. Rusiya Ermənistanı istənilən vaxtı danışıqlara cəlb edə, yaxud da sülh prosesinə məcbur edə bilər. Moskva isə məsuliyyəti tərəflərin üzərinə atır, ancaq İrəvan hər vəchlə siyasi təxribatlara hazırlaşır. İş orasındadır ki, ATƏT-in də sülhyaratma prosesində səyləri zəifləyib. Görünür, Rusiyanın Avropa və ABŞ-a təzyiqləri, Qərbin və ABŞ-ın Suriya və Yaxın Şərqə yönəlməsi Cənubi Qafqaza olan diqqəti zəifledir".

Q.Hüseynliyə görə, Azərbaycan öz ordusunun qüdrətini daha da artırmaqla məsələnin yüksək səviyyədə təmin olunmasına çalışır: "Qarabağ məsələsi dondurularsa, Azərbaycan bunun beynəlxalq səviyyədə araşdırılmasına çalışacaq. Doğrudur, Azərbaycanla Rusiya arasında gizli diplomatik yolla danışıqların getdiyinə, Rusiyanın hər iki tərəfi sülhə məcbur etmək üçün xüsusi bir proqram hazırladığına dair fikirlər var. Ancaq bunlar mətbuatda yayılanlardır, Rusiya rəsmiləri bu barədə susur. Əgər danışıqlar sistemi baş tutmasa, müharibədən savayı variant qalmır".

*****

Başqa yandan, Azərbaycan üçün məsələdə kifayət qədər pozitiv olan yeni bir amil də var: Ankara-Moskva əlaqələrinin yüksəlişdə olması. Bu amil Azərbaycana yeni siyasi dividentlər vəd edir. Əslinə qalsa, Trampın Rusiyaya münasibətdə loyallığı Moskvanın konfliktli məsələlərdə əl-qolunu açsa da, Kremlin məsuliyyətini də artırır.

Ümid etmək qalır ki, Rusiyanın artan təsir və məsuliyyəti Dağlıq Qarabağ məsələsində onun nəhayət, qardaş ölkə ilə birgə çoxdan gözlənilən və müharibə risklərini sıfırlayacaq çevik addımlar atmasına gətirəcək. Suriya məsələsində Türkiyə və Rusiyanın uğurlu əməkdaşlığı bu yöndə inamı artırır ki, azaltmır.

Bir az da qabağa gedib ehtimal eləmək olar ki, Bakı, Ankara və Moskvanın uzlaşdırılmış siyasəti Ermənistana qarşı yeni diplomatik cəbhənin açılmasına və işğalçının təklənməsinə də gətirə bilər. Bütün hallarda Tramp dönəmində Azərbaycanın yeni çağırışlar və reallıqlarla üz-üzə gələcəyini söyləmək mümkündür. Qalır bu çağırış və reallıqlara adekvat və çevik reaksiya vermək.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017

**İsrail Xarici İşlər Nazirliyi və baş prokuroru Azərbaycan qanunlarını pozduğu üçün həbs edilən 40 yaşlı rusiyalı-israilli blogger, Hayfa sakini Aleksandr Lapşinin Belarusdan Azərbaycana ekstradisiyasının qarşısını almağa çalışır. Dekabrın əvvəlində Belarusda həbs edilən A.Lapşinlə bağlı əvvəlcə İsrail XİN-in rəsmi nümayəndələri Belarus hökumətindən Lapşini Azərbaycana ekstradisiya etməməyi, bu günlərdə isə İsrail baş prokuroru eyni məzmunlu müraciət edib.**



# İsrail dövləti cinayətkar Lapşini niyə müdafiə edir?

## Bu məsələ İsrail-Azərbaycan münasibətlərinə xələl gətirə bilərmi? **Elxan Şahinoğlu:** "Azərbaycanın prinsipial mövqeyi düzdür..."



Baş prokuror Lapşinin İsrailə təhvil verilməsinə çalışdıqlarını deyib. Bundan əlavə, İsrail XİN Bakıdakı səfirliyi vasitəsilə də bu məsələni həll etməyə çalışır.

Azərbaycanla yaxın tərəfdaşlıq münasibətləri olan İsrail dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edib. Belə olduğu halda İsrailin Azərbaycan qanunlarını açıq-aşkar pozmuş bir vətəndaşının həbs olunmasına bu qədər həssas yanaşması maraq doğurmaya bilməz. Bəs İsrailin Lapşin məsələsində təkidi Azərbaycanla tərəfdaşlıq münasibətlərinə xələl gətirə bilərmi?

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında öncə bildirdi ki, Aleksandr Lapşin fırıldaqçıdır: "Çox adam qanunsuz olaraq Dağlıq Qarabağa gedib, amma heç biri haqqında cinayət işi açılmayıb. Lapşin isə bir tərəfdən qanunsuz olaraq Dağlıq Qarabağa gedib, sonra isə Dağlıq Qarabağın "müstəqil dövlət" olduğunu bəyan edib, təbliğat aparıb. Buna görə də ona haqlı olaraq cinayət işi açılıb. Lapşin Azərbaycan qanunlarını ikiqat pozub. İsrail öz vətəndaşlarının qorunmasında həssas olan ölkədir. Lapşinin azadlığına nail olmaq istəklərində bu amil dayanır. Aleksandr Lapşinin bir neçə ölkənin, o cümlədən İsrail vətəndaşlığı var. O da bu faktdan fürsət kimi istifadə etməyə çalışır. Lapşin yalnız Belarus vətəndaşı olsaydı, Minsk Azərbaycanın tərəfdaşı kimi onu Bakıya problemsiz təhvil verərdi. Amma İsrail vətəndaşlığı məsələni bir az mürəkkəbləşdirir. Azərbaycanla İsrail də strateji tərəfdaşlığa malikdir. Amma burada bir məsələni nəzərə almaq lazımdır ki, İsrail dövləti hər zaman öz vətəndaşını ciddi surətdə qoruyur - dünyanın hansı ölkəsində olmasına baxmayaraq. Bu, hətta onun müttəfiqi ABŞ da ola bilər, Azərbaycan da. Vaxtilə ABŞ-da İsrailə casusluq edən bir nəfər tutulmuşdu. ABŞ yəhudi əsilli ABŞ vətəndaşı olan o adama uzun müddətli həbs cəzası verdi. İsrail illər boyu çalışdı ki, həmin şəxsi Amerika həbsxanasından çıxarsın. Təxminən 20 il sonra ABŞ prezidenti o adamı əfv etdi və həmin insan İsrailə getdi. İsrail ABŞ-la hər danışığında onun azad olunması xahişini edirdi. İndi də Aleksandr Lapşinə humanist davranılması və onun İsrailə verilməsini istəyirlər. İnanmıram ki, Lapşinin ətrafında gedən müzakirələr Azərbaycan-İsrail tərəfdaşlığına mənfi təsir edəcək. Sadəcə qəbul etmək lazımdır ki, İsrail dövləti hər zaman öz vətəndaşlarını ciddi surətdə qoruyur. Amma Azərbaycan öz prinsipial mövqeyini ortaya qoyur və düz də edir".

Ekspert vurğuladı ki, Lapşinə cinayət işi açılması və həbs olunması başqalarına da dərs olmalıdır ki, Azərbaycan qanunlarını pozsalar hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq onları da cəza gözləyir: "Bu, Ermənistana da, erməni lobbisinə də bir mesajdır. Çünki məhz belə səfərləri Ermənistan və erməni lobbisi təşkil edir. Bəzi ölkələrin vətəndaşlarını Dağlıq Qarabağa qanunsuz səfərlər etməyə cəlb edirlər. Azərbaycan da Lapşini bir nümunə olaraq cəzalandırmaq istəyir. Bütün dünya dövlətləri bilsin ki, Azərbaycan qanunları ilə o cür oynamaq olmaz. Amma düşünürəm ki, yəqin Lapşinlə bağlı sonda İsraillə bir razılaşma əldə olunacaq. Artıq Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında da hiss olunurdu ki, əgər Aleksandr Lapşin Azərbaycandan rəsmi üzrə istəsə, üzrxahlığını, səhv etdiyini, Dağlıq Qarabağın Azərbaycanın qanuni ərazisi olduğunu rəsmi ərizə yazaraq bildirsə ona qarşı cinayət işinə xitam verilə bilər. Ona görə də məncə bu adamla bağlı İsraillə Azərbaycan arasında bir razılaşma olacaq. Azərbaycan qeyd olunan ərizənin yazılmasını tələb edəcək. İsrail də həmin vətəndaşı buna məcbur etməklə cinayət işinin ortadan qaldırılmasına nail olacaq".

Xatırladaq ki, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan Aleksandr Lapşin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan digər şəxslərlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərini kobud surətdə pozmaqla Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında işğal olunmuş ərazilərə daxil olmuşdu. Sonra isə qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə internet sosial şəbəkəsində özünə məxsus səhifəsində səyahət etdiyi dövlətlər arasında Azərbaycan və Ermənistanla yanaşı Dağlıq Qarabağı da müstəqil dövlət kimi qeyd etməklə, həmçinin 6 aprel və 29 iyun 2016-cı il tarixli müraciətlərində işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməklə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edib.

Azərbaycan Baş Prokurorluğu A.Lapşinin bu hərəkətlərində dövlət əleyhinə yönələn açıq çağırışlar və dövlət sərhədini qanunsuz olaraq keçmə əməllərinin tərkib əlamətləri olduğundan Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi başlatmış və A.Lapşin barəsində dövlətlərarası axtarış elan edilmişdi. 2016-cı il 15 dekabrda A.Lapşin Belarusda Belarus Respublikası hüquq-mühafizə orqanlarının həyata keçirdikləri tədbirlər nəticəsində saxlanılıb və Minsk Məhkəməsinin qərarı ilə 2 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Hazırda A.Lapşinin Azərbaycana ekstradisiya olunması ilə əlaqədar zəruri tədbirlər aparılır.

❑ **Etibar SEYİDAĞA**

# "Ekstrasens-politoloq"ın "öncədən gördükləri"



**Xalid KAZIMLI**

**Belə anlaşılır ki, "öncəgörən" dələduzların zamanı hələ keçməyib. Keçməyəcək də. Nə qədər ki, insanlar cahildir və gələcəklərindən əndişəlidir, mütləq "sabahkı günün necə olcağı" barədə informasiya almağa çalışacaqlar ki, ona hazır olsunlar.**

"Öncəgörən" dələduzlar isə onların bu zəif damarından istifadə edir, böyük sərvət və şöhrət qazanırlar.

Heç kəs onların necə bir dələduz olduqlarını ifşa etmir, verdikləri yüz proqnozdan doxsanının puç olduğunu, düz çıxmadığını araşdırıb ortaya qoymur. Bundan ötrü uzağa getmək lazım deyil, o dələduzların bir il öncəki proqnozlarının nədən ibarət olduğuna baxmaq lazımdır.

Əslində bu adamlar nə qədər avantürist olsalar da, müəyyən bilgiləri və ağılları var, heç vaxt konkret proqnozlar vermirlər, ümumi danışırlar: "Filan ölkədə filan şey görürəm".

Dünyadan az-çox baş çıxaran istənilən adam ABŞ-da tornado görə bilər, çünki hər il bu ölkədə 20-dən artıq dağıdıcı qasırğa olur. Banqladeşdə bərənin batmasını, yüzlərlə insanın okeanda boğulub ölməsini də "görmək" asandır, az qala hər ay olur. Çində kömür mədənində partlayış, Hindistanda qatar qəzası, Yaponiyada zəlzələ, Pakistan və Əfqanıstanda terror aktları, Filippində daşqınlar, Afrikada quraqlıq və sair bu kimi qəzalar, təbii fəlakətlər də hər kəsin "görə biləcəyi" türdəndir.

"Bu il bir neçə məşhur adam öləcək". Əlbəttə. Onlar az qala hər ay ölürlər. Dünya ahıl məşhurlarla (siyasətçi, idmançı, sənətçi) doludur, qurdla qiyamətə qalası deyillər, mütləq hər il 10-15-i ölür. Hələ bunun içində qəzaya düşən, gözlənilmədən ölən məşhurların da olacağı şəksizdir.

"Öncəgörən"lər isə bu adi şeyləri ictimaiyyətə xüsusi bir istedadlarının məhsuluymuş kimi sırıyırlar. Beşi inanmayanda da yeddisi inanır.

Budur, Moskvada yaşayan azərbaycanlı ekstrasens Zirəddin Rzayevin mətbuatda öncəgörmələri dərc olunub. İçində belə ifadələr var: "Britaniya kraliçası II Yekaterinanın tezliklə vəfat edəcəyini demək çətindir. Orada üç günlük matəm elan ediləcək; "Böyük Britaniyada heç nə dəyişməyəcək. Aydındır ki, kraliçadan sonra onun oğlu şahzadə Çarlz taxta çıxacaq".

Birincisi, Britaniyanın kraliçası II Yekaterina deyil, II Elizabetdir. İkincisi, Elizabetin artıq 91 yaşı var və məlum məsələdir ki, döşəkdədir. Üçüncüsü, onun vəfatından sonra yerinə oğlu Çarlzın kral olacağı 1948-ci ilin 14 noyabrından, yəni Çarli doğulan gündən bəllidir.

Daha sonra "öncəgörən" Rzayev Trampın hakimiyyəti dövründə ciddi böhran gözlənilmədiyini, amma ondan sonra vəziyyətin daha pis olacağını proqnozlaşdırır, "Tramp əslində özünü apardığı kimi adam deyil, yaxşı adamdır" deyir. Niyə? Çünki Tramp Rusiyanı dəstəkləyirmiş.

İndi bu öncəgörmədir, yoxsa siyasi konyukturadan doğan politoloji şərh? Rzayev ABŞ-ın artıq Rusiya ilə sərhəd olan ölkələrə dirəndiyini, Ukrayna ssenarisinin Moldovada, Qazaxıstanda, Özbəkistanda təkrarlana biləcəyini "proqnozlaşdırarkən" ekstrasensdən çox, kəşfiyyat analitiki kimi çıxış edir.

Maraqlıdır, dünyada nə işlər baş verəcəyini əliylə qoymuş kimi xəbər verən "proqnozçu" Azərbaycanla bağlı proqnozlar vermək istəmir. Səbəbi də budur: "Çünki mənim adımdan çoxlu yalan məlumatlar yazırlar. Xüsusilə də bundan müxalifət istifadə edir. Ona görə də mən açıq şəkildə bəyan etmişəm - Azərbaycanla bağlı heç nə deməyəcəm ki, kimsə mənim sözlərimi öz bildiyi kimi şərh etməsin".

Adam verəcəyi "proqnozlar"a görə başının ağrıyacağını proqnozlaşdıra biləcək qədər ayıqdır, bunu öncədən "görür", daha dəqiqi, analiz edərək bu qənaətə gəlib.

Əslində, o, öz üzərinə "müasir Nostradamus" funksiyası götürmək əvəzinə analitik Qleb Pavlovski kimi regiona, ölkələrarası münaqişələrə dair siyasi şərhlərlə çıxış etsəydi, daha maraqlı olardı. Onsuz da Rzayev "Dağlıq Qarabağ münaqişəsinin həlli Kremldən asılıdır", "Ərdoğan bilir ki, Türkiyə iqtisadiyyatı Rusiyadan asılıdır", "Amerika Türkiyəni heç bir şəkildə dəstəkləmir" kimi fikirlər səsləndirərkən eyni işi görür, sadəcə, statusu fərqlidir.

Uzun sözün kəsəsi, bu və digər belə "ekstrasens"-"politoloq"ların "proqnoz"larını ciddiyə almaq lazım deyil. Əgər bekarçılıqdırsa və onların dedikləri nəyə görəsə maraqlıdırsa, o başqa məsələ...

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017

# "Amerikasız Suriya böhranının həlli mümkün deyil"

## Ekspert Orxan Qafarlı liderlərin Astana görüşündən gözləntiləri şərh edir


Orxan Qafarlı

**Rəsmi Moskva ABŞ-ın yeni hökumətini yanvarın 23-də Astanada keçiriləcək Suriya danışıqlarına dəvət edib. "Washington Post" qəzetinin məlumatına görə, Rusiyanın ABŞ-dakı səfiri yanvarın 20-də keçiriləcək andiçmədən sonra fəaliyyətə başlayacaq Tramp hökumətinin təhlükəsizlik üzrə müşaviri Maykl Flinə zəng edərək telefonla dəvəti çatdırıb. Hələlik Tramp komandasının reaksiyası bilinmir.**

Bu məlumatı Türkiyə XİN rəhbəri Mövlud Çavuşoğlu da təsdiqləyib. Eyni zamanda, Çavuşoğlu ABŞ hökumətinin kürdlərin Astana müzakirəsinə dəvət olunması təklifinə sərt reaksiya verib. "ABŞ o zaman İŞİD-di də dəvət etsin" deyən Çavuşoğlu Moskva və Ankaranın Vaşinqtonun da Astana danışıqlarına dəvət edilməsi mövzusunda həmfikir olduğunu bildirib.

Çavuşoğlu deyib ki, Ankaranın Vaşinqtondan, xüsusən də yeni hökumətdən əsas gözləntisi danışıqlar prosesinə təsir etməsi, sülh əldə olunmasına təsir etməsidir. O deyib ki, Vaşinqton terrora dəstəyini dayandırmalıdır: "Terror təşkilatı ilə əməkdaşlığa son verilməlidir. Bir terror təşkilatını danışıqlara dəvət edəcəksənsə, o zaman "ən-Nusra"nı, İŞİD-i dəvət et. Təəssüf ki, çox deməyimizə baxmayaraq, indiki hakimiyyət səhv etməkdə davam edir".

Çavuşoğluya görə, Vaşinqtonun bu addımları türk cəmiyyətində ciddi problemlərə səbəb olur. Onun sözlərinə görə, ABŞ hökuməti "gedərayaq nə zərər vursaq, xeyirdir" prinsipi ilə hərəkət etsə də, Ankara yeni komanda ilə əlaqələri bərpa etməyə ümidini itirməyib.

Qeyd edək ki, Dövlət Departamentinin sözçüsü ötən həftə verdiyi brifinqdə Vaşinqtonun Astana danışıqlarında kürdlərin də tərəf kimi iştirak etməsinə tərəfdar olduğunu deyib. Sözçü Mark Toner deyib ki, kürdlər önəmli gücdürlər və Suriyanın gələcək taleyi ilə bağlı danışıqlarda onlar da iştirak etməlidirlər. Ancaq Suriya kürdlərinin ABŞ və Avropa ölkələrinin də dəstəyi ilə günü-gündən güclənməsi Ankaranı narahat edir. Çünki PKK ilə müttəfiq olan PYD artıq Suriyanın şimalında muxtariyyət qurub və Qərb ölkələrinin də dəstəyi ilə bölgədə əsas gücə çevrilib. İndi isə Astanaya dəvət edilməklə faktiki olaraq Suriya münaqişəsinin həllində tərəfə çevrilə və legitim güc kimi qəbul oluna bilərlər. Bu isə o deməkdir ki, gələcəkdə yeni Suriyada kürd muxtariyyəti qaçılmaz olur.

Ankaranın bu mərhələdə məhz amerikalıların Astanaya dəvət olunmasında maraqlı olması bununla əsaslandırıla bilər. Türkiyə hökuməti kürdlərin deyil, Amerika hökumətinin (yeni) Astanaya dəvət olunmasını daha uyğun görür. Çünki Vaşinqton faktiki olaraq kürdləri idarə edir və Ankara masada kürd məsələsini də amerikalılarla danışıb, kürdlərlə bağlı Vaşinqtonun qarşısına şərt qoya bilərlər.

İkinci mühüm səbəb isə Vaşinqtonun hətta formal da olsa iştirak etmədiyi təqdirdə danışıqların pozulması təhlükəsidir. Çünki çoxlarına məlumdur ki, Vaşinqtonun prosesdən kənarda qalması danışıqların müsbət nəticə verməsi, hətta baş tutmasının özünü belə şübhə altına alır. Çünki bilindiyi kimi, Suriyada müxalif qüvvələr üzərində Vaşinqtonun ciddi təsiri var və bundan istifadə edə bilər. Bunu neytrallaşdırmağın yeganə yolu isə danışıqlarda Vaşinqtonun da iştirakıdır.

Siyasi şərhçi Orxan Qafarlı deyir ki, Amerikanın yeni administrasiyasının Astanaya dəvət edilməsi həm də o anlama gəlir ki, Moskva və Ankara Ağ Evin yeni administrasiyasından təkliflər gözləyir və keçmişdə olan yanaşmalar qəbul olunmayacaq. Ekspertə görə, indiki situasiyada Vaşinqtonun Astanaya yüksək səviyyəli təmsilçi göndərməsi real görünmür, ən yaxşı halda aşağı ranqlı bir diplomatın göndərilməsi ehtimal edilir.

Amerikalıların Astana prosesinə yanaşmasına gəlincə, O.Qafarlı deyir ki, amerikalılar indi daha çox müşahidə və gözləmə mövqeyindən çıxış edirlər. Çünki Vaşinqton bu prosesə perspektivli yanaşmır və tərəflərin anlaşacağına inanmır. Yəni amerikalılar Suriya siyasətlərini davam etdirəcəklər, bir tərəfdən də Astanada gözləmədə olacaqlar: "Amerika Suriya böhranı və İŞİD-ə qarşı beynəlxalq koalisiyanın aparıcı ölkəsidir. Vaşinqton olmadan Suriya böhranını həll etmək mümkün deyil. Astana görüşü əslində Cenevrə danışıqlarında region ölkələrinin mövqelərini ortaq nöqtəyə gətirməkdə önəmlidir. Bu mənada Astana Cenevrə danışıqlarının hazırlığı hesab oluna bilər".

❑ Kənan RÖVŞƏNOĞLU

# Türkiyədəki hərbi qiyamdan 6 ay ötdü - qardaş ölkə haradan-haraya gəlib?

## Qabil Hüseynli: "Türkiyə ictimai-siyasi və iqtisadi böhrandan çıxmaq üçün hələ uzun müddət böyük əmək sərf etməlidir"

**Türkiyədə baş verən hərbi çevriliş cəhdindən (15 iyuldan 16 iyula keçən gecə) 6 ay ötür. Bu müddət ərzində qardaş ölkə, bəlkə də, Cümhuriyyət dövrünün ən təhlükəli aylarını yaşadı. Həm ölkə daxili, həm də xarici düşmənlərinə qarşı mübarizə apardı. Qiyam nəticəsində on minlərlə insan ya iş yerini itirdi, ya da həbsə atıldı ki, hələ bu proses davam edir.**

15 iyul hadisənin acıları indinin özündə də qardaş ölkədə yaşanmaqdadır. Məhz bu hadisənin təsiri ilə qardaş ölkə müttəfiq olduğu Qərb dövlətlərindən üz çevirib, Rusiyaya tərəf yönəldi. Buna da səbəb həm qiyamdan sonra Avropa dövlətlərinin yürütdükləri ikiüzlü siyasət, həm də hadisənin birbaşa səbəbkarı sayılan və hazırda Pensilvaniyada yaşayan FETÖ lideri Fətullah Güləni Amerikanın Türkiyəyə verməməsi oldu. Son 6 ayda rəsmi Ankaranın yaşadıqları hadisələr tək bununla bitmir. Ölkə daxilində saysız-hesabsız terror aktları həyata keçirildi, rus səfiri öldürüldü.

Bütün bunların fonunda ekspertlərin Türkiyənin 15 iyul hadisəsindən necə çıxması ilə bağlı fikirləri müxtəlifdir. Bəzələri qardaş ölkənin əzmkar qələbə qazandığını və bu qiyamdan sonra daha da gücləndiyini düşünür, amma bunun əksini deyənlər və bundan sonra hələ də bir müddət bu cür təhlükələrin Türkiyə üzərindən sovuşmadığını söyləyənlər də var.

Politoloq Qabil Hüseynli hesab edir ki, son 6 ayda Türkiyə ziddiyyətli proseslərdən keçib: "Ölkədə hələ də hərbi vəziyyət davam edir. Üstəlik, hökumət 15 iyul hadisələrinin nəticələrini aradan qaldırmaq üçün ciddi cəza tədbirlərinə əl atdı. 100 minə yaxın insanın işdən çıxarılması prosesi baş verdi. Bunların içərisində ali və orta məktəb müəllimləri, dövlət qulluqçuları var. Amma ən böyük təmizləmə işi orduda aparıldı. Təsəvvür edin ki, mindən çox hərbi pilot işindən azad olundu. Bu yaxınlarda ölkənin hərbi pilotlara ehtiyacı üzə çıxandan sonra onlar geri çağırıldı. Onlardan cəmi 31 nəfər işə alınmadı. 900-dən çox pilot təkrar öz işinə döndü. Bundan başqa, 137 nəfər ordu generalı, general, admiral, polkovnik vəzifəsindən kənarlaşdırılıb. Onların işinə yenidən baxılmadı. Bir sözlə təmizləmə prosesi hələ də davam etməkdədir. Amma ən ciddi məsələ Türkiyənin xarici siyasətində etdiyi dönüşdür. Bu dönüşün olmasına səbəb Türkiyənin müdafiə nazirinin, AKP-li millət vəkillərinin qiyama Amerikanın Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbərlik etməsi ilə bağlı fikirləridir. Bu, çox ciddi ittihamdır. Amerika bu ittihama çox soyuqqanlı cavab verdi. Lakin bu, Türkiyə-Amerika münasibətlərini xeyli zədələdi. Türkiyə həmçinin Avropa Birliyinin ünvanına da ciddi ittihamlar səsləndirdi - xüsusilə, Almaniyanın ünvanına. Bunun nəticəsində Almaniya ilə soyuq münasibətlər davam etməkdədir. Türkiyənin Rusiya ilə yaxınlaşma prosesində sanki NATO-dan uzaqlaşma prosesi də baş verir. Bu da NATO daxilində ciddi həyəcan doğurmaqda davam edir. Hətta iş o yerə çatıb ki, qardaş ölkənin müdafiə naziri Türkiyənin İncirlik hərbi bazasını boşalda biləcəyi və hərbi bazasını NATO-nun tərkibindən çıxaracağı barədə açıqlamalar verir. Hesab edirəm ki, Türkiyənin ətrafının düşmənlərlə əhatə olunduğu bir vaxtda İncirlik hərbi bazasını boşlatması NATO-dan uzaqlaşdırılması ilə nəticələnə və Qərblə bütün iplərin qoparılmasına səbəb ola bilər. Bütün bunlara görə NATO-Türkiyə münasibətlərinin gərginləşməsi prosesi hələ də davam edir. Türkiyə tərəfinin bu yöndəki açıqlamaları münasibətləri getdikcə daha da gərginləşdirir".

Politoloq ölkə daxilində hələ də ciddi proseslərin getdiyini deyir: "Ölkə konstitusiyanı dəyişib, prezident idarə-üsuluna keçmək üçün ciddi addımlar atır. Bununla paralel, Atatürk sisteminin son qalıqları da aradan qaldırılır. Təbii ki, referendumda xalq bu dəyişikliklərə öz münasibətini bildirməlidir. Amma hər halda konstitusiya dəyişikliklərinin müzakirəsi parlamentdə başa çatmaqdadır və MHP də hakim partiyaya bu yöndə dəstək verir. Bu hadisələrin fonunda ölkədə ciddi gərginliklər yaşanır. Siyasi idarəçilik sisteminin dəyişdirilməsinin əleyhinə olanlar kifayət qədərdir. Amma hər halda keçirilən referendum göstərəcək ki, xalq bunun tərəfindədir, yoxsa yox, yaxud dəyişikliklərin əleyhinə olan siyasi qüvvələr xalqı inandıra biləcəklər ya yox. Demək referendumdan çox şey asılı olacaq. Düşünürəm ki, ölkədə etirazlar sakitləşdirilməli, proses buna doğru getməlidir. Çünki hərbi çevriliş cəhdindən sonra PKK-çılar xeyli fəallaşıblar. İŞİD da özünün terrorçuluq fəaliyyəti Türkiyə ərazisinə keçirib. 15 iyul qiyamından sonra ən azı Türkiyədə 15-ə qədər terror hadisəsi baş verib, 970 nəfərdən çox adam həlak olub. Bütün bunlar onu göstərir ki, ölkə ciddi sınaq qarşısındadır. Dövlətin xarici və daxili siyasəti ciddi imtahan verir. Ölkənin Rusiya ilə yaxınlığı NATO ilə münasibətlər baxımından xarici siyasətdə ciddi narahatlıqlar doğurmağa başlayıb. Belə bir şəraitdə Türkiyənin təklənmək və bəlli itkilərə məruz qalmaq təhlükəsi var. Bunun nəticəsidir ki, mövcud vəziyyət ölkənin maliyyə sistemində ciddi gərginliklər yaradıb. Məsələn, dollar Türkiyə tarixində ən böyük qiymətə qalxıb. Türk lirəsi dollar qarşısında böyük itkilər verməkdə davam edir. Ölkədə sənaye istehsalının həcmi də ötən ilə nisbətən xeyli azalıb. Bunlar əhalinin maddi güzəranında özünü büruzə verir. Türkiyə həm də müharibə məsələləri ölkənin xaricinə keçirib, Suriya ərazisində hərbi əməliyyatlar aparır. Bu da hərbi xərclərə və ölkədə itkilərə səbəb olur. Bunları zəruri addım hesab etmək olar. Çünki Türkiyənin yaxınlığında Suriyanın federallaşdırılması siaysətinin fonunda kürd federasiyasının yaranması ehtimalı var. Onun da qarşısını almaq üçün Türkiyə buna məcburdur. Bir sözlə, Türkiyə çox gərgin bir dövr yaşayır. Bu gərginlik siyasi etirazın, siyasi cəbhələşmənin siyasi qarşıdurma ilə nəticələnməsinə səbəb ola bilər. Bunu demək mümkündür ki, qardaş ölkə ictimai, siyasi və iqtisadi böhrandan çıxmaq üçün hələ uzun müddət böyük əmək sərf etməlidir".



Q.Hüseynli qardaş ölkənin yenidən hərbi qiyam təhlükəsi ilə üzləşəcəyini düşünmür: "Həm daxildə, həm də xaricdə düşmən qüvvələr var. Onlar müəyyən cəhdlər edə bilərlər. Amma bu hərbi çevriliş cəhdi ilə müşahidə oluna bilməz. Çünki ordu artıq tamamilə əvvəlki vəziyyətindən çıxarılıb. Hər şeyi mülki xarakter daşıyan müdafiə naziri həyata keçirir. Aparılan hərbi "islahatlar" vaxtilə Avropanın ikinci ordusu sayılan türk ordusunu xeyli gücdən salıb. Belə bir şəraitdə ordunun siyasi işlərə qarışmaq imkanları da yoxdur, əvvəlki səlahiyyətlərə də malik deyil. Buna görə növbəti hərbi qiyam cəhdini gözləmirəm".

Müsahibimiz Türkiyənin qiyamdan zəif və ya güclü çıxması ilə bağlı fikirlərə də toxundu: "Türkiyə hərbi çevrilişə görə zəifləmədi. Sadəcə, müttəfiqlərlə münasibətləri korladığına, daxildə yeritdiyi siyasətə görə zəiflədi. Üstəlik, xaricdən də müəyyən təxribatların olduğunu istisna etmirəm. Xarici dövlətlər Türkiyənin bu cür mövqeyinə heç də gülümsəyərək baxmadı. Nəticədə qardaş ölkənin vəziyyəti gərgin olaraq qalır".

❑ Cavanşir ABBASLI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 10 (6624) 17 yanvar 2017



# Qarabağda minomyot müharibəsi: düşmən mərmi yağdırdı, cavabını aldı

## Azərbaycanın Müdafiə Nazirliyindən xəbərdarlıq: "Cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür"

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca Qarabağ cəbhəsində də gərginliyin artacağı barədə ehtimallar özünü doğrultmaqdadır. Ötən ilin sonlarında Serj Sərkisyan hakimiyyətinə güzəştli sülhlə bağlı təkliflər verən müxalifət lideri, sabiq prezident Levon Ter-Petrosyanın dediklərinin əksinə olaraq, İrəvan cəbhədəki durumu günbəgün ağırlaşdırmaq siyasəti yürütməkdədir.**

Azərbaycanın Müdafiə Nazirliyi yanvarın 15-I axşamdan etibarən vəziyyətin gərginləşdiyi barədə məlumat yayıb. Məlumata görə, Ermənistan tərəfi cəbhə xəttində vəziyyəti yenidən gərginləşdirmək məqsədilə iriçaplı ağır silahlar tətbiq edib. Bazar günü axşam saatlarından başlayaraq gecəyədək erməni silahlı bölmələri 60, 82 və 120 millimetrlik minaatanlardan da istifadə etməklə cəbhənin Tərtər-Ağdam istiqamətində Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar. Məlumatda deyilir ki, hərbi qulluqçularımız arasında itki yoxdur. Nazirlik xəbər verir ki, düşmən tərəfinin aktivliyinin qarşısının alınması məqsədilə Azərbaycan Silahlı Qüvvələri adekvat cavab tədbirləri həyata keçirərək onu susdurub. Azərbaycan Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Hazırda cəbhəboyu zonada əməliyyat şəraitinə bölmələrimiz tam nəzarət edir və atəş xəttində üstünlük qoşunlarımızın tərəfindədir.

Qeyd edək ki, bundan əvvəl Qarabağ cəbhəsində ermənilər tərəfindən mövqelərimizin atəşə tutulmasına qarşı cavab tədbirləri görülərkən düşmən atəşindən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu 1980-ci il təvəllüdlü Bəşirov Fikrət Nurşiravan oğlu şəhid olub. Ötən ilin 29 dekabrında erməni diversiya qrupunun qarşısını alarkən həlak olan əsgərimiz Qurbanov Çingiz Salman oğlunun meyiti isə hələ də düşmən əlindədir və İrəvan çağırışlara məhəl qoymayaraq hərbçimizin nəşini qaytarmaqdan imtina edir.

*****

İşğalçı ölkənin azğın davranışları isə hər an dəhşətli müharibənin başlaya biləcəyini deməyə əsas yaradır. Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərovun sözlərinə görə, cəbhə xəttində aprel döyüşlərindən də genişmiqyaslı döyüşlər başlaya bilər (Unikal.org). Artıq heç kim şübhə etmir ki, Qarabağ cəbhəsində və Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən toqquşmalar Serj Sərkisyanın ssenarisinə uyğun olaraq reallaşdırılır və birmənalı şəkildə düşmənin təxribatıdır. Ermənistan prezidenti bu yolla bir neçə hədəfə çatmaq istəyir. Gərginliyin artması Sərkisyana opponentlərinin güzəştli sülh barədə iddialarına ən tutarlı cavabdır. Baş verənləri əsas gətirən S.Sərkisyan Azərbaycanla sülhə gəlməyin "mümkünsüzlüyünü" iddia edəcək və gərginliyə görə şübhəsiz ki, birmənalı şəkildə Bakını günahlandıracaq.

Digər tərəfdən, erməni prezident apreldə keçiriləcək parlament seçkilərində hakim partiyanın qalib gəlməsi üçün arqumentlərini gücləndirmək niyyətindədir. Cəbhədəki gərginlik Sərkisyana seçkilərə diqqəti azaltmaq, saxtakarlıq yolu ilə istədiyi nəticəyə nail olmaq fürsəti də yaradır. Elə parlament seçkilərinin aprel döyüşlərinin ildönümünün tamam olduğu günə təyin olunması da buna xidmət edir. Ermənistan rəhbərliyinin məkrli planları barədə artıq ermənilər özləri də danışmağa başlayıb. Ölkədəki fəlakətli vəziyyətin baiskarının S.Sərkisyan iqtidarı olduğunu nəinki xaricdəki ermənilər, həm də ölkədəki ekspertlər də dilə gətirir.

"20 il bizə yalan danışdılar ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub. Yalnız vaxtı uzatmaq qalır". Bunu erməni politoloq Aqasi Yenokyan deyib (Publika.az). Onun sözlərinə görə, 2016-cı il ermənilərə Dağlıq Qarabağ münaqişəsinin həll edilmədiyini xatırlatdı: "Əvvəl biz yaşayırdıq, işləyirdik və 20 il boyunca dövlətin o fərziyyəsinə inanırdıq ki, münaqişə həll edilib, sadəcə vaxtı uzatmaq lazımdır. Aprel müharibəsi isə göstərdi ki, illər boyu bizə yalan danışıblar və hər şey deyildiyi kimi deyil. Belə çıxır ki, bizim gözlərimizi açdığı üçün düşmən hesab etdiyimiz Azərbaycana minnətdar olmalıyıq". Erməni politoloq qeyd edib ki, Ermənistan münaqişənin həlli üzrə hərəkət etmir. "Aprel müharibəsindən sonra Qarabağ münaqişəsinin nizama salınmasında iki mərhələ baş verdi. Birinci mərhələdə Ermənistan münaqişənin həll olunması məsələsinə razılaşdı. İkinci mərhələdə isə Azərbaycan təmasları artırmaq istiqamətində işlədi, lakin Ermənistan görüşlərdən çəkindi. Hərbi paradda hakimiyyət "İsgəndər"ləri nümayiş etdirərək, bizi əmin etməyə çalışdı ki, Azərbaycandan üstünük. Lakin reallıq fərqlidir. Həmçinin, ərazilərin qaytarılması məsələsi gündəmə gəldi. 2017-ci ildə Ermənistanda seçkilər gözlənilir və güman ki, ərazilərin qaytarılması, münaqişənin həlli məsələsi əsas müzakirələrdən biri olacaq. Bütün bunlara baxmayaraq, bizim münaqişənin həlli istiqamətində hərəkət etmədiyimiz dəqiqdir", - o bildirib.

Hələ ki, Sərkisyan cəbhədəki gərginlikləri, qarşıdakı itkiləri məzuniyyətdən izləyir. Qarabağ dalğası ilə hakimiyyəti qəsb edən cani prezident hakimiyyətinin ömrünü uzatmaq üçün mümkün variantlardan istifadə edəcək. Hətta 1 mart olayında olduğu kimi, İrəvan küçələrində ermənilərin qanı axsa da...

# Tramp dövrü Qarabağa nə vəd edir - bədbin proqnozlar

## Politoloq: "Qərbin münaqişənin həllinə təsir imkanları minimuma enib, Rusiya əsas vasitəçiyə çevrilib"

**ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp yanvarın 20-də and içəcək və rəsmi şəkildə səlahiyyətlərinin icrasına başlayacaq. Ağ Evin yeni sahibinin Qarabağ münaqişəsinin həllində hansı rolu oynayacağı təbii olaraq əraziləri 25 ildən artıqdır işğal altında olan ölkənin vətəndaşları kimi bizi daha çox maraqlandırır.**

ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi ABŞ-ın bu münaqişə ocağının söndürülməsində əhəmiyyətli rolu ola bilər. Ancaq ötən illərin acı təcrübəsi göstərdi ki, dünyanın supergücü Cənubi Qafqazdakı münaqişələrin aradan qaldırılmasını özünün prioriteti hesab etmir və Rusiyanın aparıcı rol oynaması ilə razılaşıb. Təbii ki, Tramp administrasiyasının Rusiya ilə münasibətlərə yeni düzən gətirib-gətirməyəcəyindən də çox şey asılıdır. Düzdür, Vaşinqton Moskva ilə ixtilaflarının olduğu dönəmlərdə də şimal qonşumuzla Qarabağ məsələsində eyni mövqedən çıxış etməyə üstünlük verib. Bu mənada perspektiv haqda proqnoz söyləmək asan deyil.

Rusiya prezidenti V.Putinin mətbuat katibi Dmitriy Peskov da bu arada deyib ki, iki ölkə prezidenti arasında görüşün keçirilməsi barədə hələlik hər hansı danışıq aparılmır. Bu, həm də o deməkdir ki, Qarabağda hər an baş verə biləcək dəhşətli müharibəni önləmək üçün də tərəflərin ciddi istəyi yoxdur. Bu günlərdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Azərbaycan əsgərinin meyitinin qaytarılmaması faktına toxunarkən loyal münasibət sərgilədi. Belə ki, diplomat "bu faciəvi insident Azərbaycanla Ermənistan arasında baş verib. Hesab edirik ki, iki ölkə özündə müdriklik, güc və diplomatik imkan tapıb, bu problemi həll etməlidir"-deməklə kifayətləndi. Üstəlik, "problemin açarı hər iki tərəfin əlindədir" - söylədi. Belə olan situasiyada okeanın o tərəfindən də ciddi təşəbbüsün olacağını gözləmək az inandırıcıdır. Üstəlik, səslənən proqnozlar da ümidli olmağa əsas vermir. Azərbaycanlı ekspertlər də bu mənada nikbin deyillər.




Politoloq Elxan Şhinoğlu da Donald Trampın xarici siyasətində Cənubi Qafqazı bölgəsinin arxa planda olacağını düşünür: "Hətta illərdir Vaşinqton üçün aktual olan Ukrayna mövzusunun da Tramp dövründə ön planda olmayacağını zənn edirəm. Tramp Barak Obamadan fərqli olaraq Kiyevə gərəkən dəstəyi verməyəcək, hər 3 aydan bir vitse-prezidentini Ukraynaya göndərməyəcək. Bu sözləri Ağ Ev sahibinin Cənubi Qafqaz siyasətinə də şamil etmək mümkündür. Vaşinqtonun illərdir Cənubi Qafqazdakı əsas tərəfdaşı Gürcüstandır. Ancaq Tiflislə münasibətlər belə Tramp administrasiyası ciddi önəm kəsb etməyəcək. Əlbəttə, amerikalı rəsmilər və yüksək rütbəli diplomatlar həm Kiyevə, həm də Tiflisə səfərlər edəcəklər, ancaq bu səfərlərin konkret nəticələrinin olacağını zənn etmirəm. Tramp rusiyalı məsləkdaşı Vladimir Putinlə dostlaşıb Rusiya ilə birgə beynəlxalq terrorçulara qarşı mübarizə aparmaq istəyir. Bu - Putinin də arzusudur. Bunun qarşılığında Tramp administrasiyası Rusiyanın "yaxın xaric" adlandırdığı ərazidə fəal olmaya da bilər".

E.Şahinoğlu qeyd etdi ki, Putin-Tramp yaxınlaşmasının Azərbaycana nə müsbət, nə də mənfi təsiri var: "Onsuz da Barak Obama administrasiyası da Cənubi Qafqazda fəal deyildi, Rusiyanın bu bölgədə fəallığından narahatlıq keçirmirdi. Obama administrasiyası Qarabağ münaqişəsinin həllinə də maraq göstərmirdi. Bu 8 ildə Vaşinqton xüsusi təşəbbüslə çıxış etmədi. Tramp administrasiyasının Dağlıq Qarabağ münaqişəsinin həllində fərqli siyasət həyata keçirəcəyini düşünmürəm. Ümumiyyətlə, Qarabağ probleminin ATƏT-in həmsədrlər müstəvisində həlli dalana dirənib. Başqa təşəbbüslərə ehtiyac var".

Əgər dünyanın aparıcı dövləti məsələyə diqqət göstərməyəcəksə, deməli, müharibə riski daha çox olacaq. Mümkündürmü Tramp Qarabağı Rusiyaya tapşırsın?

E.Şahinoğlu: "ABŞ və Fransanın Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir imkanları minimuma enib, Rusiya əsas vasitəçiyə çevrilib. Bunu Vaşinqton da anlayır. Məhz Moskva İrəvan və Bakıya təsir edə bilər. Apreldəki döyüşlərə ara verilməsində də başlıca rol Kremlə məxsus idi. Ona görə də bölgəyə sülhü də Rusiya gətirə bilər. Ancaq Kremlin hələ ki belə bir istəyinin olduğunu zənn etmirəm. Təşəbbüsü özümüzün ələ almağımızdan başqa alternativ qalmayıb. İşğalçıya təzyiqi elə artırmalıyıq ki, Rusiya Ermənistana təsir edib İrəvana "mərhələli həll" planını qəbul etdirsin".

Yeri gəlmişkən, bu günlərdə amerikalı politoloq Maykl Bom Virtualaz.org-a açıqlamasında "Trampın prezidentliyi dövründə ABŞ-ın Qarabağ münaqişəsinin həllində iştirakı minimuma endiriləcək" demişdi. Onun sözlərinə görə, Ermənistan-Azərbaycan qarşıdurması da daxil olmaqla, postsovet məkanında münaqişələrin siyasi yollarla tənzimlənməsi ABŞ-ın seçilmiş prezidentinin xarici siyasət maraqlarının əsas blokuna daxil deyil.

Hər halda nikbinlik üçün hələlik hər hansı əsasımız yoxdur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Sərhəddə düşmən təxribatlarının artmasının arxasındakı motiv

## İşğalçı ölkə hər vəchlə özünün Azərbaycan əleyhinə avantüralarına KTMT ölkələrini qoşmağa çalışır; qazax politoloq: "Qazaxıstan heç vaxt Azərbaycana qarşı Ermənistan tərəfdən çıxış etməyəcək..."

**İşğalçı Ermənistan Azərbaycanla sərhəddə 29 dekabrda yaşanan insidentin şokundan, belə görünür ki, hələ də ayıla bilməyib. Bunu şəhid əsgərimiz Çingiz Qurbanovun meyitinin indiyədək Azərbaycana təhvil verilməməsi və düşmənin cəsəddən belə qisas almasından aşkar görmək olar.**






Rəsmi İrəvanı əsəbiləşdirən məqamlardan biri də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) digər üzvlərinin (Rusiya, Qazaxıstan, Belarus, Qırğızıstan və Tacikistan) həmin insidentlə bağlı Ermənistana dəstək ifadə etməməsidir. İşğalçı tərəf ümid edirdi ki, insidentin məhz Ermənistanla sərhəddə yaşanması qurumu hərəkətə gətirəcək və ən azından Azərbaycanın qınanmasına nail olacaq.

Ancaq göründüyü kimi, bu, baş vermədi. Bir daha aydın oldu ki, Ermənistan xaric, KTMT üzvlərinin hamısı Azərbaycanla münasibətlərə mühüm önəm verir və bu münasibətləri işğalçı ölkənin cılız maraqlarına qurban vermək niyyətində deyil. Söhbət öncəliklə Qazaxıstan və Belarusdan gedir. Bu yerdə yada salaq ki, 29 olayından az sonra Qazaxıstanın İrəvandakı səfiri erməniləri məyus edən açıqlama vermiş, Azərbaycanı müdafiə eləmişdi.

*****

"Qazaxıstan KTMT üzrə Ermənistanın müttəfiqi olsa da, Dağlıq Qarabağ münaqişəsinin kəskinləşəcəyi təqdirdə Ermənistanı dəstəkləməməlidir və dəstəkləməyəcək". Bu sözləri isə Qazaxıstandakı Altınbek Sarsınbayev adına Fondun rəhbəri, politoloq Aydos Sarım deyib. Onun sözlərinə görə, KTMT heç bir halda bütöv təşkilat deyil: "Quruma daxil olan ölkələrin hər birinin bəyan edilən hədəflərlə yanaşı, çoxlu sayda açıq deyilməyən, bəzən bir-birinə zidd hədəfləri var. Ona görə də KTMT-nin tam tərkibdə özünün hansısa üzvünə qahmar çıxacağından danışmaq axmaqlıq olardı".

"Qazaxıstanla Ermənistan arasında əməkdaşlıqdan danışsaq, bu, elə də böyük həcmdə deyil - iki ölkə arasında mal dövriyyəsi 1,5-2 milyon dollardır. Azərbaycan isə Qazaxıstan üçün qardaş ölkədir və iki dövlət arasında dövriyyə 200 milyon dollara yaxındır. İki ölkə arasında həmçinin turizm inkişaf edir, Bakı və Astana bir sıra digər inteqrasiya layihələri və təşkilatlar çərçivəsində əməkdaşlıq edir - hansılar ki, KTMT ilə müqayisədə daha perspektivli görünür", - deyə qazax ekspert qeyd edib.

Onun qənaətincə, KTMT Qazaxıstandan ötrü daha çox Rusiya ilə dinc ayrılma təşkilatıdır: "Ona görə də Qazaxıstan Azərbaycana qarşı Ermənistan tərəfdən çıxış etməyəcək. Hansısa diplomatik addımlar, vasitəçilik mümkündür, ancaq bundan o tərəfə heç nə olmayacaq".

Bundan əlavə, politoloq xatırladıb ki, Dağlıq Qarabağ beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınır və o üzdən də KTMT üzrə tərəfdaşlar bu konfliktlə bağlı Ermənistan qarşısında heç bir öhdəlik daşımır. "KTMT heç bir halda NATO-nun və ya Varşava blokunun bənzəri də deyil və ondan başqa məsələlərdə də böyük addımlar gözləməyə dəyməz" - politoloq vurğulayıb.

"KTMT-nin əlləri elə də uzun deyil. Bu, Qırğızıstanın Oş vilayətindəki konflikt zamanı da göründü. O zaman Rusiya heç nə edə bilmədi, hərgah Qırğızıstan da KTMT üzvüdür. Hansısa məsləhətlər və müəyyən kömək oldu. Bundan artıq heç nə" - qazax ekspert xatırladıb.

Politoloq bir ildən artıqdır KTMT-yə yeni baş katibin təyin edilə bilinməməsi məsələsinə də toxunub: "Bu postu rotasiya qaydasında Ermənistan nümayəndəsi tutmalıdır. Ancaq mən belə başa düşürəm ki, Belarus və Qazaxıstan bu təyinatı sabotaj edir. KTMT Nizamnaməsinə əsasən, qurumun baş katibi bütün tərəflərin iştirakı ilə təyin edilməlidir. Ancaq belə çıxır ki, təyinat olmalı olan hər bir sammiti hansısa nümayəndə heyəti iqnor edir. Əvvəlcə bu Qazaxıstan idi. İndi isə Belarus oldu". Onun sözlərinə görə, erməni şəxsin KTMT-nin başında görmək istənilməməsinin səbəbi Qazaxıstanın Azərbaycanla möhkəm əlaqələridir. "Belarus isə Bakı ilə əlaqələrlə yanaşı, tranzit və başqa məsələlərlə əlaqədar Rusiya ilə öz oyununu oynayır" - ekspert əlavə edib.

*****

Beləliklə, İrəvana açıq mesaj verilib ki, Qarabağ məsələsinin hərb ssenarisi üzrə inkişaf edəcəyi təqdirdə KTMT üzvlərinin köməyinə arxayın olmasın. O halda işğalçı ölkəyə hansısa başqa dəstəyin verilməsi isə müstəsna olaraq Rusiyanın müdaxiləsi il mümkün ola bilər. Necə ki, ötən ilin aprelində ermənilərin xahiş-yalvarışı ilə Rusiya Azərbaycan Ordusunun hücumunu dayandırmaq üçün hərəkətə keçdi və atəşkəs əldə edildi. Həm də o səbəbə ki, Rusiya özü də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları səbəbilə Bakı ilə strateji əlaqələri korlamaq istəmir.

Bununla belə, işğalçı ölkənin KTMT ölkələrini, ələlxüsus da Rusiyanı özünün Azərbaycana qarşı avantüralarına qoşmaq üçün sərhəd təxribatları ara vermir. Xəbər verildiyi kimi, 29 dekabr insidentinin ardınca, bir neçə gün öncə ermənilər Tovuz rayonu ərazisinə pilotsuz uçuş aparatı vasitəsilə kustar üsulla hazırlanmış partlayıcı qurğu atıblar. Xain aksiyanı şərh edən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, həmin qurğunun daxilinə partlayış zamanı insanın sağlamlığına xələl gətirə bilən, yaxud da ki insanı öldürə bilən çoxlu sayda metal qəlpələr, partladıcı maddə doldurub və elektrik detonatoru yerləşdirliib.

"Bu təxribat onu göstərir ki, ermənilər Azərbaycan xalqına qarşı beynəlxalq normalara və insanlığa sığmayan fəaliyyət nümayiş etdirirlər. Onların bu çirkin əməlləri və niyyətləri alınmayacaq. Bu, Azərbaycan tərəfini adekvat addımlar atmağa vadar edir. Bu, onu göstərir ki, Ermənistanın hərbi sənayesi o qədər geridə qalmış vəziyyətdədir ki, onlar ancaq belə sadə, qadağan olunmuş və kustar üsulla hazırlanmış partlayıcı qurğulardan istifadə etməyə məcbur qalıblar. Bununla da ermənilər özlərini gülünc vəziyyətə salırlar. Digər tərəfdən, həmin partlayıcı qurğu daha çox mülki əhaliyə, uşaqlara zərər vura bilər. Bir neçə il bundan əvvəl Tovuz istiqamətində ermənilərin təxribatı nəticəsində buna bənzər üsulla hazırlanmış kukla partlamışdı və nəticədə azyaşlı uşaq həlak olmuşdu. Nə qədər ki, Ermənistan analarının öz övladlarına olan məhəbbəti Azərbaycana nifrətindən az olacaq, bu qeyri-insani vəziyyət o vaxtadək davam edəcək. Çünki bu dövlət sərhədidir, əvvəllər mülki əhalinin də zərər gördüyü Tovuz rayonudur. Ermənilər yenə də həmin istiqamətdə təxribata əl atırlar" - Ramaldanov qeyd edib.

Hərbi ekspert ermənilərin atdığı bütün təxribatçı addımların beynəlxalq normalara zidd olduğunu bir daha xatırladıb. "Onlar da bunu yaxşı başa düşürlər. Azərbaycanın müəyyən qurumları təmas xəttində yaşayan sakinlərlə mənşəyi məlum olmayan əşyalardan uzaq olmaları barədə maarifləndirmə işləri aparıblar. Bizim müdafiənin ön xəttindəki hərbi qulluqçularımız da düşmən təxribatının qarşısını layiqincə alırlar. Əgər Ermənistan dövləti öz təxribatçı əməllərindən əl çəkməsə, o zaman baş verə biləcək hər hansı insidentin nəticələrinə görə bütün məsuliyyət işğalçı ölkənin üzərinə düşəcək. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev torpaqlarımızın sülh yolu ilə işğaldan azad olunması üçün bütün tədbirləri görür. Münaqişənin həlli sülh yolu ilə alınmasa, milli ordumuz ərazi bütövlüyümüzü müharibə yolu ilə də təmin etməyə tam hazırdır. Beləliklə, bizim əhalimizə, xüsusilə uşaqlara qarşı belə təxribatlara yol verənlər layiqli cavablarını alacaqlar. Bu cavab isə çox sərt olacaq. Mənə elə gəlir ki, bu təxribatın qarşısını ancaq güc yolu ilə almaq mümkün olacaq. Çünki ermənilər başqa cür anlamırlar", - deyə ehtiyatda olan polkovnik bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi




# Mosul İŞİD-dən alınır

## İraq ordusu Mosuldan sonra Suriyaya daxil ola bilər

**Dekabrın sonunda Mosul əməliyyatının ikinci mərhələsinə başlayan İraq ordusu artıq şəhərin içərisində daxil olub. Ötən həftə sonu İraq ordusu ağır döyüşlərdən sonra Mosul Universitetinə daxil olub. Universitet binası ilə ətrafda xeyli sayda binalar təmizlənib.**

Son məlumata görə, hazırda Mosulun şərq məhəllələrinin böyük qismi ordu qüvvələrinin nəzarəti altındadır. Bu səbəbdən də şəhərin qərb məhəllələrinə irəliləyişi dayandırmaq üçün İŞİD körpüləri yandırıb. Bundan başqa şəhərin cənubundakı əs-Salam rayonu da İŞİD-dən geri alınıb.

Xatırladaq ki, Mosulun azad edilməsi əməliyyatı ötən ilin oktyabrında başlayıb. Əməliyyat ilk həftələrdə çox sürtlü olub, bir sıra ətraf rayonlar sürətlə təmizlənib, ancaq Mosulun içərisində daxil olan ordunun irəliləməsi yavaşıyıb, hətta bir müddət dayanıb. Bu isə Mosulda əhalinin çoxluğu, İŞİD-in dinc əhalidən qalxan kimi istifadə etməsi ilə bağlı olub. Mosuldan 100 minə yaxın dinc insan çıxarılsa da, hazırda şəhərdə hələ də yüz minlərlə insanın qaldığı güman olunur. Bu isə əməliyyatı çətinləşdirir, üstəlik şəhərin quruluşu, gizli sığınacaqlar, terrorçular üçün əlavə müqavimtə imkanları yaradır. Bu səbəbdən Mosulun içərisində əməliyyat həyata keçirən İraq ordusu xüsusi təyinatlıları çətinliklə irəliləyir. İŞİD-in aramsız canlı bomba, minalanmış avtomobillə partlayış hücumları ordunun irəliləməsi qarşısında ciddi maneədir.

Mosul İraqın ikinci böyük şəhəridir. Ölkənin şimal-qərbindəki strateji əhəmiyyətli bu şəhər 2014-cü ilin iyununda İŞİD tərəfindən ələ keçirilib. Şəhərlə birlikdə İraqın böyük bir ərazisi də İŞİD-in nəzarəti altına düşüb. İraq hökuməti Mosul və digər şəhərlərin geri alınması üçün səfərbərlik elan edib. 2014-cü ildə hökumət kabineti yenidən formalaşdırılıb, ordu komandanlığı böyük heyətlə istefaya göndərilib, bir çoxunun isə yeri dəyişdirilib. Bundan başqa, ümumxalq səfərbərliyi elan edilib, din alimlərinin də çağırışı ilə könüllü müdafiə qüvvələri yaradılıb. Ancaq buna baxmayaraq Mosulun azad edilməsi əməliyyatı bir neçə dəfə təxirə düşüb.

2016-cı ilin 17 oktyabrında başlayan əməliyyatda ümumilikdə 100 mindən çox silahlı hərbçi iştirak edir. Bunların böyük qismi İraq ordusu, polis qüvvələri, bir hissəsi könllül ordu qüvvələri - "Həşdi Şabi" birlikləri, bir qismi Şimali İraq kürd administrasiyasına bağlı olan peşməgə qüvvələri və nəhayət, Türkiyə ordusunun Başika düşərgəsində təlim keçdiyi silahlı tayfa qüvvələridir. Ancaq əməliyyatın əsasını İraq ordusunun xüsusi təyinatlı qüvvələri təşkil edir. Xüsusi hazırlanmış bu qüvvələr Mosulun içərisindəki əsas əməliyyatlara qatılır. Qərb ölkələrinin və Türkiyənin təzyiqi ilə hökumət "Həşdi Şabi" birliklərinin Mosul əməliyyatına daxil etməyib. Dekabrın əvvəlində İraq parlamenti "Həşdi Şabi"yə ikinci rəsmi ordu statusu verən qərar qəbul etsə də, bu birlikləri şiə ağırlıqlı olması (135 min aktiv hissəsinin 100 indən soxunu şiələr təşkil etdiyiddia olunur - K.R.) və sünni əhaliyə qarşı zorakılıq olması haqda etirazlardan sonra hökumtə bu qüvvələri Mosulun ətrafında yerləşdirilib. Kürdlər isə yalnız Mosulun ətrafında Ərbilə doğru kəndlərdə təmizlik aparırlar.

Bu səbəbdən də əməliyyatın əsas ağırlığı ordunun üzərindədir, ordu isə məhz ciddi müqavimət səbəbi ilə irəliləyə bilmir. Ancaq İraq ordusunun artıq şəhərin mərkəzi məscidini təmizlədiyi ilə bağlı məlumatlar var. Mosulun azad edilməsi İŞİD-in ən böyük dayağını, İraqda faktiki olaraq gücünü itirməsi deməkdir. Bəzi iddialara görə, İraq ordusu və könüllü ordu birlikləri İŞİD-in Mosuldan çıxarılmasından sonra qərbə odğru irəliləyib Suriya ərazilərinə daxil olmağı planlayır.

"Həşdi Şabi" birliklərinin əsasə hədəfi məhz budur. Bir neçə gün əvvəl "Həşdi Şabi" birliklərinin komandirinin Moskvaya və Dəməşqə səfərlərinin əsas məqsədinin Mosuldan sonrakı əməliyyat olması ilə bağlı iddialar var. Artıq birləşmənin komandanlığı da Mosuldan sonra İŞİD-in Suriyadakı hədəflərinə də hücum ediləcəyini bildirib. Bu isə Mosul əməliyyatının taleyindən çox asılı olacaq. Şəhər təmizləndirkdən sonra yeqin ki, İraqda artıq ciddi dayaqalrı qalmayan terror təşkilatı güclərini Suriyaya keçirəcək, burda möhkəmlənməyə çalışacaq. Bu isə İraqdakı savaşın Suriyada davam edəcəyi anlamına gəlir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

---

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov ətrafında gedən müzakirələr səngimək bilmir. Xüsusilə, ötən ilin avqustunda 11 illik cəzasının başa çatmasına iki ay qalmış əlavə cinayət maddələri ilə üzləşən sabiq nazirlə bağlı bundan sonra səslənən iddiaların sayı durmadan artır.**

# Qərbi azərbaycanlı siyasətçidən Əli İnsanova açıq dəstək

## Elşad Musayev: "Sanki Qərbi Azərbaycanı hədəfə gətirmək istəyirlər"

Günlər öncə yeni maddələr üzrə haqqında seçilən 3 aylıq həbs qətimkan tədbirinin müddəti 2 ay uzadılan İnsanov ətrafında bir istiqamətdə müzakirələr getmir. Həm onun həbsdə qalması, həm hakimiyyətin onu nə üçün azad etməməsi, həm də azadlığa çıxarsa mövcud iqtidara qarşı hansı təhlükələri yarada bilmək gücündə olub-olmaması ilə bağlı müxtəlif fikirlər var.

Bütün bu müzakirələrin fonunda əsas diqqətçəkən məqam Qərbi Azərbaycandan olan tanınmış simaların susqunluğudur. Təsadüfi deyil ki, bəzi istisnalar olmaqla əksər tanınmış şəxslər, hətta vaxtilə İnsanova yaxınlığı ilə seçilənlər belə onun müdafiəsində nəinki dururlar, hətta onunla bağlı danışmaqdan boyun qaçırırlar.


Əli İnsanov


Elşad Musayev

**Məsələ ilə bağlı "Yeni Müsavat" müraciət edən, Qərbi Azərbaycandan olan Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev bunları dedi:** "Bu şəxsi qanunsuz olaraq həbsdə saxlayırlar. İndi də həbs müddətini uzadıblar. Məsələnin məğzi burdadır. Bəziləri var ki, İnsanovun nazir olduğu və ondan sonra bu günə qədər ki fəaliyyətini araşdırırlar, azad olunarsa təhlükəli olub-olmamasını analiz edirlər. Sifarişli olaraq İnsanovla bağlı birtərəfli yazılar gedir, bu tipli yazıların əksəriyyəti qərəzlidir. Təhlil xarakterli yazılar var ki, buna normal yanaşıram. Amma söhbət konkret insanın hüquqlarının pozulmasından gedir. İnsanova qarşı hər kəsin fərqli münasibəti ola bilər, kimisi sevər, kimisi də nifrət edə bilər. Söhbət 11 ildən sonrakından gedir. Bu şəxsin həbs müddəti bitib, Avropa Məhkəməsinin qərarı var. İndi onun adı hallandırılır ki, azadlığa çıxdıqdan sonra təhlükəli tendensiya yarana bilər. Qərbi Azərbaycan faktorunu burada önə atırlar. Başqası həbs ediləndə bu cür demirlər. Burada sanki Qərbi Azərbaycanı hədəfə gətirmək istəyirlər. İstəyirlər ki, kimsə çıxıb İnsanovu müdafiə etsin, onu da həbs etsinlər. Necə ki, Rizvan Talıbovu belə etdilər. Şəxsən İnsanovu tanımıram. Sadəcə, onun yaxın adamları ilə münasibətim olub. Nə mənə, nə də partiyama onun heç bir xeyri dəyməyib. Amma açıq şəkildə deyirəm ki, bundan sonra İnsanovu açıq şəkildə müdafiə edəcəyəm. Çünki 70 yaşdan yuxarı bir şəxsi orada qanunsuz saxlamaq Allaha da xoş getmir. İnsanov bu hakimiyyətə qarşı dirəniş göstərir. Məhz onun bu qətiyyətinə görə onu sona qədər müdafiə edəcəyəm".

Partiya sədri indiyədək susqunluğuna da aydınlıq gətirdi: "Həbs olunduğu gündən bu günə qədər onunla bağlı bütün suallara cavab vermişəm. Sadəcə, mətbuat bununla bağlı mənə azsaylı suallar ünvanlayıb. Elə şəxslərə İnsanov barədə suallar ünvanlayırlar ki, cəmiyyət arasında bir qəpiklik hörmətləri yoxdur. Söhbət regionçuluqdan getməməlidir. Kimsə region baxımından onu müdafiə etməməlidir. Mən həbs edilən digər siyasi məhbusları da müdafiə etmişəm. Amma indi görürəm ki, İnsanov məsələsinə xüsusi diqqət yetirilir. O kimsəsiz şəkildə qələmə verilir. Əli İnsanovun vaxtilə kömək etdikləri qərbi azərbaycanlılar var ki, indi tülkü kimi qaçıb gizləniblər. Onların əvəzindən cavab verməli deyiləm ki. Onlara münasibətim çox pisdir. Onun siyasi adamlara köməyi dəyməyib, çünki YAP-da təmsil olunurdu. Amma çoxsaylı qərbi azərbaycanlı var ki, onlara çoxlu köməyi dəyib. İndi onların saçları ağarıb, amma yenə də qaçıb gizlənirlər. Həqiqəti müdafiə etməyə cəsarətləri yoxdur".

E.Musayev sabiq nazirə olan münasibətə də toxundu: "Ona qarşı qərəzli münasibətə səbəb onun şəxsiyyət olmasıdır. Söz sahibi olan, şəxsiyyətinə hörmət edən birisidir. Digər tərəfdən, onun bu iqtidara təslim olmamasıdır. Qarşısına şərt qoyurlar, əfv yaz, əlində olan pulları ver, amma o bunları etmir. Eyni zamanda hakimiyyətdə aşağıdan-yuxarı təmsil olunan şəxslərin onu görməyə gözləri yoxdur. İnsanovun regional faktorunun olması danılmazdır. Qərbi Azərbaycanla bağlı bir mətbuat orqanı, bir partiya belə yoxdur. İnsanovun bölgə daxilində böyük nüfuzu var. Ona qarşı şəxsi qərəz də yüksəkdir. Halbuki İnsanovun indiki hakimiyyətin möhkəmlənməsində böyük xidmətləri olub".

❑ **Cavanşir ABBASLI**

---

# "Mən qalmaqallı insan deyiləm"

## Nəzakət Teymurova Opera və Balet Teatrından çıxmasından danışdı

**Opera və Balet Teatrında bir-birinin ardınca 15 sənətçinin işdən çıxması mədəniyyət aləmində qalmaqala səbəb olub. Teatrın əməkdaşı xalq artisti, baletmeyster Mədinə Əliyevanın sözlərinə görə, bədii rəhbər Kamilla Hüseynova təyin olunduqdan sonra bu olay baş verib.**



Teatrı tərk edənlər arasında 20 il bu mədəniyyət ocağında çalışan xalq artisti Nəzakət Teymurova da var. Xalq artisti "Yeni Müsavat"ın əməkdaşının suallarını cavablandıraraq teatrdan getməsinin səbəblərini açıqlayıb:

***- Nəzakət xanım, gözlənilmədən bu cür qərar verməyinizə səbəb nə oldu?***

- Özüm ərizəmi yazıb çıxmışam.

***- Amma bundan əvvəl müsahibələrinizdə bildirmişdiniz ki, Opera və Balet Teatrına gəlişiniz heç də asan olmayıb, hətta ikinci qəbuldan sonra siz ora daxil olam bilmisiz. Bəs gedişiniz niyə belə asan oldu?***

- Mənə görə narahat olan hər kəsə öz təşəkkürümü bildirirəm. Amma bir daha qeyd edirəm ki, bu qərarı özüm vermişəm və ərizəm qəbul olunub. Səbəbi də odur ki, pedaqoji fəaliyyətimlə çatdıra bilmirəm. Yəni, heç bir narahatçılığa səbəb yoxdur.

***- Bəziləri sizin gedişinizi teatrda baş verən qalmaqalla əlaqələndirdi. Hətta iddialarda o da səsləndi ki, həyat yoldaşınız sizi səhnəyə qısqandığından bu cür addım atmaq məcburiyyətində qalmısınız.***

- Bunlar bəhanədir. Mən 20 illik tamaşamı keçən il oynamışdım. Demişdim ki, özümə hörmət, sənətimə hörmət edən, özümə qarşı çox tələbkar insanam və müəyyən yaşa gəldikdə teatrdan çıxacağam. Heç bir yoldaş, bacı, bu barədə söz deyə bilməz. Sadəcə istəmişəm ki, hər şey vaxtında gözəl olsun.

***- Belə anlaşılır ki, səhnədən tamamilə gedirsiz?***

- Yalnız Opera səhnəsindən gedirəm. Mənim nə səsimi, nə də görkəmimi əlimdən alıblar. Sadəcə oradan yolları mı ayırdım və pedaqoji fəaliyyətimə davam edəcəm. Tədbir və konsertlərdə olacağam.

***- Bu il sizin üçün uğurlu başlamadı deyə bilərikmi?***

- Yox, mən qərarımı oktyabr ayında vermişəm. İndi deyil, 3 ay bundan əvvəl çıxmışam. Sadəcə, indi mətbuatda bu barədə yazıldı, şişirdildi. Mən hər şeyi sivil şəkildə olmasını xoşlayıram, qalmaqallı bir insan deyiləm ki, onu bayraq edib çıxım. İndi bəzi məsələlər üst-üstə düşdüyündən, bu belə qalmaqallı oldu. Amma bir daha qeyd edirəm ki, oktyabr ayından müdiriyyətə özüm ərizə yazımı vermişəm.

***- Kifayət qədər dəyərləndirilmədiz, layiqli qiymətinizi almadınız, ya başqa olaylar baş verdi deyə, bu cür qərar verdiz?***

- Heç nə baş vermədi (gülür). Hər şey yaxşıdır, indi işlərimin hamısına çatıram. Operada zaman çox tələb olunurdu, ona görə də fəaliyyətimi dayandırmağa məcbur oldum. Gənclər var ki, onlar "Leyli Məcnun"u oynayarlar.

***- İddialar var ki, sizinlə bərabər 15 sənətçi gözlənilmədən teatrdan çıxmaq qərarına gəlib. Bu məlumat doğrudurmu?***

- Mən bu barədə mətbuatdan oxudum. Heç xəbərim yox idi ki, 15 nəfər çıxıb. Bəzi solistlərimizin çıxdığını bilirdim, amma onların 15 nəfər olduğunu bilmirdim. Hamısı da yaxın insanlarımızdır.

***- Həmkarlarınız, yaxınlarınız bu qərarınızı necə qarşıladı? Sizi fikrinizdən döndürən oldumu?***

- Həmişə düşünüb-daşındıqdan sonra qərarı verirəm.

***- Qızınızın sizin sənətə marağı varmı? Onun da bu sənətdə olmağınızı istərdinizmi?***

- Yox. Mənim qızım Bakı Dövlət Universitetində oxuyur. Onun bu sənətlə heç bir əlaqəsi yoxdur.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017

**Əməkdar artist, məşhur qiraətçi, "xalq ruhunun əfsunedici səsi" adlandırılan Ağalar Bayramovun bu gün doğum günüdür. Ömrünün 30 ilindən çoxunu bədii-qiraət sənətinə həsr edən Ağalar Bayramov təkcə güneyli-quzeyli Azərbaycanda deyil, digər ölkələrdə, türk dünyasında da sevilir, sənətinə böyük hörmətlə yanaşılır. Azərbaycanın bir çox məşhur şairləri, o cümlədən Xalq şairi Fikrət Qoca, Musa Yaqub, Məmməd Aslan Ağalar Bayramov səsinin sehrinə, gücünə şeirlər həsr edib, barəsində çoxsaylı məqalələr dərc olunub.**



# "Ürək yoxdursa, uğur da olmur"

## 63 yaşını tamamlayan **Ağalar Bayramov:** "Mənə qarşı niyə belə oldu, özüm də anlaya bilmirəm"



Qiraətçi ilə doğum günü ərəfəsində görüşüb söhbətləşdik:

***- Ağalar bəy, 63 yaşınızda özünüzü necə hiss edirsiz?***

- Təbii ki, yaş özünü göstərir. Amma Cabir Novruz demişkən, "İnsan ruhdan düşməsin, təki ruh yaşasın". Ağrıyıram, azarım var, amma bütün bunlarla bərabər həyata baxışım, inamım o qədər müsbətdir ki, ruh qocalmır, ürək yaşayır hələ. Yaxşıdır, gileylənməyə ixtiyarım da yoxdur. Əsas odur ki, mənim dövlətə, millətimə, xalqıma, böyük qiraət sənətinə, poeziyaya, ədəbi parçalara məhəbbətim o qədər böyükdür ki, hər gün məşğul oluram, yaddaşımı təzələyirəm. Bu, həyat eşqi deməkdir. Yaxşıdır, narazı deyiləm.

***- "Qarabağın kəsilməyən kişnərtisi var Ağalar Bayramovun səsində". O səsin yenə də həmin sehri, gücü yerindədirmi?***

- Öz yerindədir. İnanın, hər gecə yuxularımda mən bu torpağı görürəm. Hərdən göz önümə gəlir ki, İlahi, birdən Allah mənim canımı alar, mən Qarabağın azad olunmasını görmərəm. Hərdən də inamdan düşürəm. Ona görə ki, məsələn, mənim çox əziz dostum, haqqımda misralar, məqalələr yazmış Məmməd Aslan Kəlbəcər deyə-deyə bu dünyadan getdi. Çox böyük şairimiz Famil Mehdi, alim Xudu Məmmədov Ağdam həsrəti ilə getdi. Allahdan bircə arzum odur ki, Qarabağın azad olunmasını görüm. Özümün özümə ən böyük arzum bundan ibarətdir... Mənim Qubadlının Xocavənd kəndində 9 yaşlı nakam oğlum uyuyur. Onun başdaşının üzünü güney Azərbaycana çevirmişəm. Çünki adı Şəhriyar idi, Məhəmməd Hüseyn Şəhriyarın adını vermişdim ona. Düşünürəm ki, mən onu ziyarət edə, o torpaqları görə biləcəmmi? Ən böyük, ən ümdə arzum budur, bu torpağın övladı, vətəndaşı kimi.

***- Güney Azərbaycandan söz düşmüşkən, oradakı soydaşlarımız sosial şəbəkələrdə mütəmadi olaraq sizin səs yazmalarınızı, şeirlərinizi paylaşırlar. Yəqin bu da ondan irəli gəlir ki, siz Güney Azərbaycan mövzusuna da tez-tez müraciət edirsiz.***

- Təbii ki, həm onunla, həm də Allahın verdiyi səs ilə bağlıdır. Hansısa məşhur aktyor demişdi ki, "səs mənim ən böyük var-dövlətimdir". Təkcə şeiri deməklə deyil, şeirə can verməklə, səsdən düzgün istifadə etmək lazımdır. Nəsə əldə etmişəm ki, xalqın, millətin qəlbində yuva sala bilmişəm. Tehrandan, Təbrizdən, Ərbəbildən, Parsabaddan hər gün də olmasa 2-3 gündən bir mənə zəng edirlər. Sanki onda uçmağa qanadlanıram ki, deməli bu illəri boş yerə yaşamamışam. Bundan böyük xoşbəxtlik yoxdur. Xalqın məhəbbətini qazanmaq insan üçün ən böyük amildir. Çox sevinirəm ki, bu illər ərzində vətənimə, millətimə, dövlətimə üz qarası gətirən hərəkətlər, sənətimə xəyanət etməmişəm. Əsl sənətlə məşğul olmuşam. O şeirləri ki, qiraət etmişəm, onlar xalqın ürəyindən, bağrından qopan fikirlərdir. Yəni, günün, dövrün, həyatın mövzusu, mənzərəsi var orda. Nöqsanlarım da olub. Olub ki, bir salama hansısa şeiri götürüb oxumuşam. Amma səsimlə o şeirə bər-bəzək vermişəm. Amma biri var nöqsan, biri də var günah. Onları səhv salmaq olmaz.

***- 63 illik ömrünüzün neçə ilini bu sənətə həsr etmisiz?***

- 1983-cü ildən bədii-qiraət sənəti ilə məşğulam. Məni efirə, AzTV-yə Əmirhüseyn Məcidov gətirdi. O vaxtlar folklor ilə bağlı "Ozan", sonralar adı dəyişdirilərək "Durna teli" olan veriliş hazırlanırdı. Bir gün Əmirhüseyn Məcidov təhsil aldığım Azərbaycan İncəsənət və Mədəniyyət Universitetinə gəldi. Söhbət əsasında da mən nəsə danışdım. Səsimi eşidən kimi dedi ki, "nə gözəl səsin var Ağalar, sabah gəl çəkilişə". Və mənə rəvayət oxutdurdu. O vaxtdan bu sənətin yolunu getdim və uzun müddət Azərbaycan Dövlət Televiziyasında bədii verilişlərə çəkildim, özüm verilişlər hazırladım. 11 müxtəlif adda verilişlərim oldu. Onlar hazırda Qızıl Fondda qorunub saxlanılır.

***- Aktyorların əksəriyyəti sənətə ilk addımlarını atanda qiraətçiliyə böyük maraq göstərir. Amma uğur qazana bilmirlər. Səsiniz sizə uğur gətirdi deyə bilərikmi?***

- Mənim bu sənətə olan məhəbbətimlə bərabər güclü yaddaşım və səsim mənə uğur qazandırdı. Dördüncüsü də var - ürək. Sənətdə ürək yoxdursa, uğur da olmur. Bədii-qiraət sənəti asan sənət deyil, onun daşıyıcıları çox azdır. Adətən Azərbaycanda deyirlər ki, "şeir deyəndir". Amma ruslarda deyilir bədii-qiraətçi. Bədii-qiraətlə məşğul olanların adlarını sayım; 1937-ci ildə güllələnmiş Kazım Ziya, Mədəniyyət və İncəsənət Universitetində vaxtilə kafedra müdiri olmuş Müxlis Cənizadə, rəhmətlik Həsən Əbluc, Mikayıl Mirzə, sənət dostum, çox dəyərli İlham Əsgərov. Bu beş nəfər dünyasını dəyişib. Əminə Yusifqızı və bəndəniz Ağalar Bayramov, oldu 7 nəfər. Demirəm başqaları yoxdur, bir neçə nəfər var, amma əsasən xalqın bağrına hopmuşlardan danışıram. Xalqın birmənlaı olaraq barmaqla göstərdiyi cəmi 7-8 qiraətçi var. Bu sənət bir qədər diqqətdən kənarda qalır, kimlərisə mükafatlandıranda bəzən onlar kənarda qalır.

***- Səhv etmirəmsə, xalq şairi Fikrət Qocanın sözləri idi ki, "Ağalar Bayramov başqasının şeirini özünküləşdirəndən, içindən keçirdikdən sonra auditoriyaya təqdim edir". Sualı ona gətirəcəkdim ki, bəzən qiraətçilər şeirləri özünküləşdirərkən ya misraların, ya sözlərin yerini dəyişirlər. Olur ki, şairlər buna görə incik düşür. Buna münasibətiniz? Siz də bu cür dəyişikliklər edirsizmi?***

- Fikrət Qocanın yubileylərində mən çox iştirak etmişəm. Ötən il Moskvada, Mərkəzi Ədəbiyyat Evində xalq şairinin 80 illik yubileyi keçirilirdi. Bir çox görkəmli sənətkarlarla yanaşı, mən də həmin tədbirə getmişdim və təxminən yarım saat səhnədə çıxış etdim. Fikrət müəllim sonralar bu barədə söz düşəndə efirdə deyib ki, "Ağalar Bayramov mənim "Cənnətdən qovulanlar" poeması deyirdi. Mənim bağ qonşum dedi ki, "ay Fikrət sənin yubileyində hündür bir oğlan necə gözəl şeir deyirdi". Dedim ki, "mənim şeirimi deyirdi". İnanmadı, dedi ki, "yox əşi, başqasının şeirini o cür deyə bilməzdi, o, öz şeirini deyirdi". Onda dedim ki, "düz deyirsən, mən Ağalara onun sənəti kimi baxırdım, o, şeirləri özünküləşdirir". Yəni, o fikrə gəlib çıxıram ki, götürdüyüm materialı özümünkü etməsəm, onu dilimə gətirə bilmirəm. Yəni, elə ifa etməlisən ki, sanki onu sən yazmısan.

- Baxır nə cür. Sözü, fikri dəyişmək olmaz. Bir dəfə Aşıq Ələsgərin şeirində mən bir sözü dəyişmişdim. Gördüm ki, bir kitabda da o cür yazılıb, özüm özümə nifrət etdim. Olmaz belə. Fikrət Qocanın "Cənnətdən qovulanlar" poemasında belə bir hissə var: "Gözləri birinin malındadır, birinin cibində, birinin dalındadır. Bəzi minilmək üçün darıxmış at kimidi. Kimi də ayağı sürüşkən... nəisə". Amma Fikrət Qoca yazıb ki, "Kimi də ayağı sürüşkən arvad kimidir". Mən orda pauzanı götürdüm. Bu, düzəliş deyil, ona rəng qatdım, efirdə deyirdim axı. Onsuz da hamı bilir ki, ayağı sürüşkən deməkdir. Amma biri də var bəndi dəyişmək, bu, olmaz, qəbuledilməzdir.

***- Bəs az tanınan şairlərə də müraciət edirsizmi?***

- Olub ki, hansısa şair heç tanınmır. Amma mənim üçün onun tanınmağı vacib deyil. Məni maraqlandırır ki, kim nə yazıb.

***- Sizi xoşbəxt qiraətçi hesab etmək olar. Çünki məşhur şairlər Musa Yaqub, Məmməd Araz, Fikrət Qoca, son olaraq Ayaz Arabaçı sizə şeirlər həsr edib. Maraqlıdır, özünüzə həsr olunan şeirləri qiraət edəndə hansı hissləri, duyğuları keçirirsiz?***

- Mənə ilk dəfə şeri yazan Eldar İsmayılov oldu. "Qeybdən gələn səs" şeirini mənə həsr etmişdi. Daha sonra Səadət Buta iki dəfə mənə şeir həsr edib, Musa Yaqub isə "Sözün rəngi cilvələnir səsində, Söz incidir, səs dürdanə, nə deyim?.." misralı şeir yazıb. Amma mən onları ifa etməmişəm. Yalnız Eldar İsmayılovun mənə həsr etdiyi şeirini AzTV-nin mənim 50 illik yubileyim münasibəti ilə hazırladığı verilişdə Xalq artisti, gözəl diktorumuz Sabir Ələsgərli kadr arxası səsləndirdi. İctimai televiziyada isə haqqımda hazırlanan verilişdə Ələmdar Quluzadənin mənə yazdığı şeiri Nuranə xanım kadr arxası səsləndirmişdi. Yəni, mənə həsr olunana şeirləri özüm ifa etməmişəm, bu, bir az yerinə düşmür. Son olaraq mənim haqqımda Araz Arabaçı mənə "Bu səsdə nə yoxdu ki... " şeirini həsr edib.

***- Ömrünün 30 ilindən çoxunu qiraət sənətinə həsr etmiş Ağalar Bayramov hələ də "Əməkdar artist"adı ilə çağırılır... Ağalar Bayramova Xalq artisti adı verilməsi üçün nə çatışmır?***

- (Bir anlıq susur, fikrə gedir). Vallah qalmışam ki, sizin bu sualınızı cavabsız buraxım. Sonra deyəcəklər ki, Ağalar gileylənir. Mən heç vaxt gileylənməmişəm. 2002-ci ildə rəhmətlik Heydər Əliyev mənə Əməkdar artist adını verdi. Həmin vaxt bir çoxları bu ada layiq görüldü. Sonralar gördüm ki, onların demək olar ki, əksəriyyəti bir neçə ildən sonra Xalq artisti adını aldı. Amma mənə qarşı niyə belə oldu, özüm də anlaya bilmirəm. Mənim günüm səngərlərdə, dövlət tədbirlərində, şairlərin yubileylərində keçir. Nə bilim... bəlkə də mənim səs-sorağımı yuxarılara çatdıran yoxdur, bəlkə də mən qapı-qapı gəzib boynumu əyib durmuram. Bu da mənə yaraşmaz axı. Kor-kor, gör-gör, hər şey ortadadır. Xalq, millət, dövlət, elə nazirliyin də özü görür ki, Ağalar yubiley tədbirlərində şairlərin şeirlərini səsləndirəndə alqış sədası aləmə yayılır. Bunu görüb onların yadında salmaq day deyil. Millətim, dövlətim sağ olsun... Sizə bir dodaqqaçdı dedim, Hüseyn Arifə dəfələrlə xalq şairi adını verəcəklərmiş, alınmırmış. Axırda bir alim yerlisi deyir ki, "qağa, darıxma da, verərlər". O da qayıdır ki, "Lazım deyil, lazım deyil. Osman Sarıvəlliyə o vaxt verdilər ki, Nəsimiyə Yesenin, Natəvana da Lupskaya deyirdi". Demək O.Sarıvəlli qocalan vaxtı xalq şairi adını alıb, yazığın gözləri görmürmüş artıq, Nəsiminin şəkilinə Yesenin, Natəvanın da şəkilinə Lupskaya deyirmiş. İndi kimdir bunları tutub saxlayan, verirlərsə versinlər də. (gülümsəyir-red). Daha 63 yaşımda bundan artıq mən nə etməliyəm? Yəqin belə məsləhətdir, ya yada düşmürəm, ya heç yada düşməyəcəm də.

***- Son vaxtlar efirlərdə də az görünürsüz...***

- Dəvətlər olur. Məsələn, "Səni axtarıram" və digər verilişlərə ekspert kimi çağırırlar. Axırda dedim ki, mən sənət adamıyam, getdiyim yerdə oturub tamaşaçı kimi baxmağa ixtiyarım yoxdur. Məndən ekspert çıxmaz. Mən bədii formada çıxış edəcəyim yerlərə gedirəm. Seriallara da çağırırlar...

***- Elə suallarımdan biri də bununla bağlı idi.***

- Getmirəm. Ona görə ki, 5 dəqiqəlik "Mozalan" mənim üçün o seriallardan xeyli irəlidir. Mən demirəm ki, o serialların hamısı pisdir, amma ürək çəkən bir şey yoxdur. Hətta məni bir dəfə rejissor dəvət edəndə elə qiymət oxudum ki, bildim ki, onu verə bilməyəcəklər. Bu o demək idi ki, getmirəm. Bununla da telefon zəngləri kəsildi.

***- Təkcə qiraətçi deyil, həm də sanballı toy aparıcısı, tamada da kimi də tanınırsız. Hazırda yenə də toylara gedirsizmi?***

- Bəli, gedirəm, dolanışığın ucbatından. Amma getməyin də fərqi var. O yerə gedirəm ki, orda məni istəyir, səsimi eşitməyi arzulayırlar.

***- Məşhurlardan kimlərin toyunu aparmısız.***

- Çoxlu sayda vəzifəli şəxslərin toyunda olmuşam. Hətta xaricdə də toy aparmışam.

***- Geriyə baxanda nədən təəssüflənir, nədən qürur duyursuz?***

- Musa Yaqubun belə bir şeiri var, "Eləmədiklərim yandırar məni". Hərdən fikirləşmişəm ki, gərək bunu başqa cür edərdim. Ağlımla bəzən qəlbimin arasında qalıram. Qürur duyduğum günlərim isə çoxdur. Bu gün də qürur duyuram ki, məndən sonra bu dünyada səsim qalacaq. Bundan böyük qazanc, qürur yeri yoxdur... "

❑ **Xalidə GƏRAY**
❑ **Məğrur SALMANOV**

# Yeni ilin ilk yarım ayında ərzaq 10-30 faiz bahalaşıb

## Qubad İbadoğlu: "Bahalaşma həm də monopolist şirkətlərin qərarları ilə baş verir"

**Yanvar ayının ilk 15 günü iqtisadi sahədə əsasən bahalaşma ilə yadda qaldı. Əsasən də ərzaq və gündəlik tələbat məhsullarının qiymətində ciddi artım oldu. Manatın tam üzən məzənnə rejiminə keçməsi, banklar üçün marjanın ləğv edilməsi dolların daha da bahalaşmasına səbəb oldu ki, bu özünü bazarlarda göstərdi. Bəs, görəsən ayın ilk yarısının nəticələri nə deyir, tendensiya necə olacaq, inflyasiya artacaqmı?**

"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert, Demokratiya və Rifah Hərəkatının rəhbəri Qubad İbadoğlu bildirdi ki, bahalaşma dinamik bir prosesdir və bütün sahələri əhatə edir: "Ötən ildən başlayan bahalaşma yanvar ayının ilk 15 günündə də özünü göstərdi. Ərzaq məhsullarının bahalaşması həm də monopolist şirkətlərin qərarları ilə baş verdi. Azərbaycanda istehlak mallarının istehsalı və satışı ilə məşğul olan əsas şirkətlər yanvar ayında qiymətləri 10 faizdən 30 faizə qədər bahalaşdırdılar. Bunların arasında çay, yağ, un və un məmulatları var. Görünən odur ki, yanvarda daha çox ərzaq məhsullarının qiyməti bahalaşacaq".

İqtisadçının sözlərinə görə, bank və vergi sistemi ilə bağlı qanunvericilikdə edilən bir çox dəyişikliklər də qiymətlərin artmasına zəmin yaradacaq: "Əgər diqqət yetirsəniz görərsiniz ki, ötən il daha çox qeyri-ərzaq məhsulları bahalaşmışdı. Bu il ərzaq məhsullarındakı bahalaşma digər mal və xidmətləri üstələyəcək. Artıq bankların marjası götürüldü. Bu da banklarda manatın satışının müxtəlif məzənnələrini müəyyənləşdirdi. İndi



elə bank var ki, onlarda dolların alış kursu ilə satış kursu arasındakı fərq 10 qəpiyə qədərdir. Bu da satış kursunun daha baha olmasına gətirib çıxarır. Dolların alış kursu aşağı olanda insanlar dolları banklara satmaqdan imtina edir və yenidən qara bazara üz tuturlar. Yəqin ki, getdikcə dolların alış və satış kursu arasındakı fərq azalacaq. Çünki bu bazarın ilkin reaksiyasıdır, sonrakı mərhələdə aralarındakı rəqabət kursun yaxınlaşmasına gətirib çıxara bilər".

Manatın bundan sonra da dəyərdən düşəcəyini vurğulayan ekspert tam üzən məzənnə siyasətinin baş tutmayacağını qeyd etdi: "Amma manatın ucuzlaşması davam edəcək. Mərkəzi Bank elan etdi ki, manatı tam üzən məzənnəyə keçirib. Lakin bu, yenə də baş vermədi. Necə ki, 2015-ci ilin dekabrında üzən məzənnə rejimi elan olunmuşdu, sonradan yenə əvvəlki vəziyyətinə qayıtdı. Görünür, Mərkəzi Bank indi də manatı sərbəst üzən məzənnə rejiminə keçirməyə hazır deyil. Həmçinin, manat da bu rejimə hazır deyil. Bunun üçün müəyyən qədər işlər görülməlidir".

İqtisadçının fikrincə, hazırda sahibkarların ən böyük problemlərindən biri də nağdsız hesablaşmalara qoyulan məhdudiyyətdir: "Yanvar ayı ümumiyyətlə ağır aydır, alıcılıq qabiliyyətinin aşağı düşüyü, dövriyyənin iki dəfə azaldığı bir aydır. Yanvar ayının özəlliklərindən biri də ondan ibarət oldu ki, "Nağdsız hesablaşmalar haqqında" Qanun qəbul olundu. Bu ayda banklar və şirkətlər yeni qaydalarla işləməyə başladılar. Burada ən problemli məsələlərdən biri şirkətlərin vəsaitlərinin nağdsızlaşdırılmasından ibarətdir. "Nağdsız hesablaşmalar haqqında" Qanuna görə, nağd hesablaşmalarla bağlı müəyyən məhdudiyyətlər var. Banklar isə indiki halda bu məhdudiyyətə əməl etmədən şirkətlərin sifariş etdiyi qədər nağd vəsaiti onların ixtiyarına buraxmağa başlayıblar. Mənim fikrimcə, bu, sonradan vergi orqanlarının həmin şirkətlər üzərində cərimə tətbiq etməsinə gətirib çıxaracaq. Çünki "Nağdsız hesablaşmalar haqqında" Qanunda nəzərdə tutulan məhdudiyyətlərin pozulmasına görə Vergi Məcəlləsində cərimələr nəzərdə tutulub".

Qubad İbadoğlu sahibkarların və vətəndaşların qanunvericilikdə aparılan son dəyişikliklərdən əziyyət çəkdiyini diqqətə çatdırdı: "Bu baxımdan Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklərin yanvar ayından başlaması da müəyyən mənada yenilikdir. Çünki 201 dəyişiklik baş verib, bunlar kifayət qədər çoxdur. Bu dəyişikliklər nəticəsində nağdsız hesablaşmalarda problem yaranıb, ölkədən kənara valyuta köçürmələrində problem yaranıb. bəzi adamlar öz övladlarının təhsil haqlarını belə köçürməkdə çətinlik yaşayırlar. Çünki bir çox banklar onlardan 10 faizlik vergi tələb edir. Əslində bu qanunda nəzərdə tutulmayıb. Sadəcə, Vergi Məcəlləsində edilən dəyişikliklərin izahında problemlər var. Banklar haqqında da təlimatlar hazırlanıb, ancaq tətbiq edilmir. Birdən-birə çoxlu dəyişikliklər edildiyindən indi onların tətbiqi məsələsində çətinliklər əmələ gəlib. Bundan da ən çox əziyyət çəkən sahibkarlar və vətəndaşlardır".

❑ Nərgiz LİFTİYEVA

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Bərdədə 7-ci sinifdə oxuyan oğlan niyə öldürüldü - təfərrüat

**İki gün öncə Bərdə rayonunda törədilmiş qətl hadisəsi ilə bağlı yeni məqamlar üzə çıxıb. Lent.az -ın əldə etdiyi məlumata görə, Mirzəcəfərli kəndi ərazisində 18 yaşlı Tapdıq Mustafalının 14 yaşlı Həsrət Mirzəməmmədovu otlaq sahəsi üstündə deyil, başqa səbəbdən qətlə yetirməsi məlum olub.**

Araşdırmalar zamanı müəyyən edilib ki, H.Mirzəməmmədov hadisədən bir neçə gün əvvəl Tapdığı bacısı ilə görüb. O, özündən 4 yaş böyük olan T.Mustafalıdan bir də bacısına yaxın durmamasını tələb edib. Bu səbəbdən onlar arasında dava-dalaş baş verib. 14 yaşlı oğlanın başına zərbələr endirib onu öldürən T.Mustafalı meyiti kanala ataraq qaçıb. Çox keçmədən polis əməkdaşları onu yaxalayıb.

Qeyd edək ki, ilkin məlumatda Tapdıq Mustafalı ilə Həsrət Mirzəməmmədovun otlaq sahəsinə görə dalaşdığı bildirilirdi.

Orta məktəbin 7-ci sinif şagirdi olan Həsrət xeyli vaxt imiş ki, dərsə getmirmiş və hadisə günü də məktəbə yol-

YENİ MÜSAVAT
N 9 (6623) 16 yanvar 2017

**Ötən həftənin ən çox müzakirə olunan mövzularından biri də ABŞ prezidenti Barak Obamanın Çikaqoda təşkil olunmuş vida mərasimində göz yaşı tökməsi olub. Obama vida çıxışı zamanı Amerika xalqına demokratiyanı qorumağı, hadisələrə başqalarının baxış bucağından baxmağı və diqqətli olmağı tövsiyə edib. Həmçinin Obama bildirib ki, Amerika 8 il əvvəlki göstəricilərdən indi daha yaxşı vəziyyətdədir.**



# Prezidenti ağladan qadın - Mişel Obama barədə bilinməyənlər...

## Amerikanın eks birinci ledisi amerikanların qəlbini nələrlə fəth edib?

Amma bu çıxışı daha da sentimental edən cəhət prezidentin öz xanımı Mişel Obamaya təşəkkür etməsi olub. O, hər bir amerikalının Ağ Evi öz evi kimi görməsində həyat yoldaşının böyük rolu olduğunu dedi. Tədbiri izləyənlər xatırlayır: gurultulu alqışlar, Mişelə təşəkkür dolu sözlər, sonuncunun kövrələrək ağlaması... Bu, bir çox amerikalı üçün olduqca sentimental səhnələr idi və tarixdə özünə yer etdi.

Amma bununla yanaşı, Mişel Obamanın da ABŞ-ın birinci xanımı kimi son çıxışı diqqət çəkdi. O, çıxışı zamanı əsasən mühacir övladları olan gənclərə üz tutub.

“Bu ölkənin sizə məxsus olduğunu bilməlisiniz. Əgər siz və ya ailəniz mühacirdirsə, Amerika ənənəsinin bir hissəsi olduğunuzu bilməlisiniz. Yeni mədəniyyətlər, istedadlar, ideyaların ölkəyə axını Amerikanı dünyada möhtəşəm bir ölkəyə çevirib”- deyə birinci xanım bildirib.

Ağ Evdə onun 2015-ci ildə başlatdığı məktəb direktorlarının şərəfləndirilməsi ənənəsinə əsasən keçirilən tədbirdə Mişel Obama qəhrələnərək öz uşaqlığından danışıb, atasının uşaqlarının təhsil alacağına dair ümidlərindən bəhs edib: “Bu, kim olursa olsun, siyasətçi, valideyn, keşiş - biz hamımızın gənclərə ötürəcəyimiz şey ümiddir. Ümidimiz gələcəyə və ağır əməyin nəticə verdiyinədir”.

Vida mərasimində bu cür sentimental bir səhnənin yaradıcısı olan Mişel Obama barədə bir xatırlatma yerinə düşür. Kimdir prezidenti ağladan, onun hisslərini gözündən axıdan bu qadın? Etdiyi hansı hərəkətlər onu amerikanların və ərinin gözündə sevimlinin sevimlisi edib?

“Yeni Müsavat” eks birinci ledinin bu illər ərzində etdiyi hərəkətlər, verdiyi açıqlamalar və başına gələn hadisələrin dosyesini hazırlayıb.

### Hüquq doktoru, Harvard məzunu olan Mişel...

Öncə bu qadının tərcümeyi-halı barədə. Mişel Obamanın qızlıq soyadı La Von Robinsondur. Mişel 1964-cü il yanvarın 17-də Çikaqoda dünyaya gəlib. 1985-ci ildə Prinston Universitetini sosiologiya ixtisası üzrə, 1988-ci ildə isə Harvard Hüquq Məktəbini bitirib. Mişel Obama hüquq doktorudur. İlk iş yeri “Sidli Ostin” hüquq firması olur. Mişel burada marketinq və intellektual mülkiyyət qanunvericiliyi sahəsində ixtisaslaşır. Barak Obama ilə də o, firmada işləyərkən tanış olur. Və bu tanışlıq evliliklə nəticələnir. Barak Obama qaradərili sevgilisi hüquqşünas Mişellə 1992-ci il oktyabrın 3-də evlənirlər. Onların 2 qız övladları var - Maliya və Saşa.

Mişel 1992-ci ildə Çikaqo merinin köməkçisi, daha sonra isə meriyanın planlaşdırma və inkişaf üzrə komissar müavini vəzifələrində çalışır. 1993-96-cı illərdə qeyri-kommersiya qurumlarında çalışan xanım Obama daha sonra Çikaqo Universitetində dekan köməkçisi olur. 2002-ci ildə Mişel Obama həmin universitet nəzdində Akademik Tibb Mərkəzinə icraçı direktor təyin olunur. 2005-ci ildən həmin mərkəzin vitse-prezidentidir.

### Ağ turpla rəqs edən birinci ledi

Birinci lediliyi dönəmində Mişel Obama bir çox jestləri və səmimi hərəkətləri ilə amerikalıların qəlbini fəth edib. Onlardan biri Amerikanın birinci ledisinin çəkdiyi qeyri-adi video olub. Sözügedən videoda birinci ledi əlindəki ağ turpla rəqs edib. Videonu Ağ Evin saytında paylaşan xanım Obama 5 milyona yaxın baxış toplayıb. Videonun çəkilməsinə səbəb amerikan aktyor İman Krossonun onlayn konfrans zamanı birinci lediyə verdiyi sual olub. O, Mişel Obamanın yer qazarkən nə qədər kalori xərclədiyini soruşub. O, bununla birinci ledinin bağbanlığa olan marağına işarə vurub.

Buna cavab olaraq birinci ledi əlində turpla, hip-hop janrında rəqs edib və içində “Ey, birinci ledi bilmək istəyir... Mən nə qazıram” sözlərinin olduğu rep oxuyub.

Amma bu, onun “əyləncəli qadın” olduğunu göstərən ilk detal deyildi. Mişel Obama, qonaq olduğu şou proqramlardan birində hər kəslə bir yerdə rəqs edib. Belə ki, Ellen Degeneresin proqramına qonaq olan xanım Obama, verilişin ortalarında səhnəyə çıxaraq rəqs edən qrupa qatılaraq onlarla birgə rəqs edib və izləyicilərin rəğbətini qazanıb.

M.Obama “Gəlin, hərəkət edək” (“Let’s Move!”) adlıq sağlamlıq kampaniyasının tanıtımı üçün tanınmış cizgi film qəhrəmanı “Big Bird” ilə kameralar qarşısına keçib. Birinci xanım, çəkilən video çarxda idmanla məşğul olmağın müsbət cəhətlərindən danışıb. Xanım Obamanın 2010-cu ilin fevralında başladığı kampaniyaya Beyons və Devid Bekhem kimi məşhur ulduzlar da dəstək verir.

### Mişeli kişi olmaqda da suçlayıblar, amerikalıları acından öldürmək istəyində də...

Amma bütün bunlar ona qarşı tənqidləri azaltmayıb. Amerikada da Mişeli sevməyən və onun etdiyi hər hərəkətdə bir səhv axtaranlar ordusu var. “O, burnunu çox dik tutur, geyimi pisdir, sadə insanlara məhəl qoymur”, - mühafizəkarlar Mişeli belə ittiham edirlər. “New Yorker” jurnalına müsahibəsi zamanı Mişeli sözün əsl mənasında alçaltmışdılar. Jurnalın üz qabığında Mişel əllərində avtomat olan “Qara panterlər”lə yanaşı dayanmışdı. Mühafizəkar KİV-də, həmçinin, sosial şəbəkələrdə Mişelin istənilən addımı baş-ayaq, səhv yozulurdu. Misal üçün o, piylənməyə qarşı Ağ Evin həyətində bostan düzəltdi və oradan çəkdiyi fotosunu paylaşdı. Lakin onun bu addımı “birinci xanım ağ amerikalıları acından öldürmək arzusundadır” fikirləri ilə qarşılaşdı.

Amerikalıların mühafizəkar kəsimi Mişel Obamaya nifrət edirdi. Nə etməsindən asılı olmayaraq, irad üçün əsas tapırdılar. Məsələn, düzgün geyinmir, hər yerə «burnunu soxur» və s. Piylənməyə qarşı proqramın təbliğinə başlayanda isə onu ağdərili amerikalıları acından öldürməyə çalışmaqda ittiham etmişdilər.

Aleks Cons adlı bir radio aparıcısı isə bir az da uzağa gedərək Mişel Obamanın əslində kişi olduğunu, sonradan cinsiyyətini dəyişdiyini iddia etmişdi. Aparıcı Mişelin qızlarının da ona qətiyyən oxşamadığını bildirmişdi.

Amerikanın birinci xanımı Mişel Obama kökəlmə əleyhinə apardığı kampaniyanın ad günü münasibətilə bir-birindən maraqlı işlərə imza atıb. Bu da ona qarşı qeyri-səmimi olmaqla bağlı suçlamaları artırıb...

Mişel Obama deyəndə yada düşən mənzərələrdən biri də onun qısqanclığıdır. Nelson Mandelanın vida mərasiminə qatılan ABŞ prezidenti Barak Obamanın Danimarka baş naziri ilə səmimi görüntüləri dünya mətbuatının gündəminə oturmuşdu. Mərasim zamanı yanaşı oturan Danimarka baş naziri Helle Thorning-Şmidtlə Barak Obama uzun müddət bir-birlərilə səmimi söhbət ediblər. Ancaq Mişel Obama sarışın baş nazirlə əri arasındakı bu səmimiyyətdən o qədər də məmnun qalmayıb. ABŞ-ın birinci xanımı buna dözməyərək Obama ilə Danimarka baş nazirinin arasında oturub.

Mişel Obama bir neçə dəfə özü haqqında bilinməyən şeylərdən danışıb və qızları ilə birgə prezident əri Barak Obamanı böyük qulaqlarına görə doladığını deyib. Birinci ledi növbəti etiraflarında isə deyib ki, həyat yoldaşı iş səfərlərində olanda iti Bo ilə yatır.

Yanında iPodu olmadan heç yerə getmədiyini deyən Mişel uşaq ikən ən sevimli oyuncağının geniş “Barbi” kolleksiyası olduğunu da vurğulayıb: “Hər axşam saat 18:30-da ailəliklə axşam yeməyi yeyirik və yeməyin axırında Allaha ”uzun və sağlam yaşamağımıza icazə ver" deyə dua edirik. Mənə özümü günahkar hiss etdirən ən böyük günahım zövqlə yediyim kartof qızartmasıdır. Ağ Evdəki komandamla iclasda oturanda etdiyim ilk iş ayaqqabılarımı çıxarmaq olur. Barak ilə toy mahnımız Nat King Colenin oxuduğu “Unforgettable” mahnısı idi".

ABŞ-ın birinci xanımı Mişel Obamanı digər birinci ledilərdən fərqləndirən bir başqa cəhət isə onun bostançılığa meyil etməsi olub. O, Ağ Evin bağçasında bostan qurub və Ağ Evin mətbəxinə tərəvəzlər ordan gətirilib. Hətta xanım Obama zaman-zaman öz aşpazlıq bacarıqlarını nümayiş etdirməkdən də çəkinməyib. Məsələn, bir dəfə o, ənənəvi acı Koreya qəlyanaltısı olan kimçxinin hazırlanması ilə bağlı öz reseptini geniş ictimaiyyətlə bölüşüb, tvitter-dəki mikrobloqunda bir neçə banka kimçxinin şərhlərlə müşayiət olunan hazırlanma qaydasının fotoşəkillərini yerləşdirib. Məlum olub ki, ABŞ-ın birinci xanımı da koreyalılar təki əsas inqridient kimi Çin kələmi, ya da “Napa” adlandırılan kələm yarpağını götürür.

“Prezident kələmi” yüngülvari sarı çalara malikdir. Ona görə ki, inqridientlər və hazırlanma qaydası alınan məhsulun həddindən artıq kəskin olmaması üçün bir qədər Qərb zövqünə uyğunlaşdırılıb.

Onun bu cür fərqli cəhətləri isə hər zaman prezident əri tərəfindən sevgi dolu cavablar alıb. Məsələn, Barak Obama həyat yoldaşı Mişel Obamanı “Sevgililər günü” münasibəti ilə təbrik edərkən onu xeyli tərifləyib: “Prezident olarkən çox mühüm qərar verdim. Ancaq həyatım boyu verdiyim ən önəmli qərar Mişel Obama ilə evlənməyim oldu. Mişel, səni xoşbəxt etmək üçün hər şeyi edəcəyəm”.

Mişel Obama isə həyat yoldaşına göndərdiyi sevgi mesajında fikirlərini şeirlə izah edib: “Güllər qırmızı, bənövşələr də mavi, sən prezident, mən də sənin sevdiyin”.

M.Obama bir neçə dəfə həyat, sevgi və ailə barədə fikirlərini mətbuatla bölüşüb. Oradakı bir neçə maraqlı cümləyə diqqət: “Yatağa küsülü girməmək möhkəm nikahın mühüm qaydalarından biridir. Hərçənd, Barak evə gec gələndə mən rahatlıqla yatağa gedirəm. Amma biz bir-birimizlə çox küsülü qalmamağa çalışırıq. Bəzən mənə də hər bir qadın kimi elə gəlir ki, ərim məni daha sevmir. Bunu hiss edəndə ona bu barədə deyirəm və hər dəfə o məni fikrimdən daşındırır.Özünüzü içində rahat hiss etdiyiniz paltarlar geyinin. Onda digərlərinin də xoşuna gəlməyə başlayacaqsınız. Yadınızda saxlayın ki, hamıya xoş gəlmək mümkün deyil. Stresslə mübarizə apara bilmirəm. Hər xırdalığı özümə dərd edirəm. Barak isə, hətta ən mürəkkəb vəziyyətlərdə də sakitliyini qoruyub saxlayır. Ümumiyyətlə, Barak əmin olduğuna başqalarını da inandıra bilir”.

ABŞ prezidenti Barak Obama həyat yoldaşı Mişelə qeyri-adi Yeni il hədiyyəsi edib. Belə ki, prezident B.Obama öz xanımına Havay adalarında dostları ilə istirahət etməyə icazə verib. Və məzuniyyətini bitirən prezident onu Havay adalarında dostlarıyla yalqız buraxaraq, geri dönüb. Bu barədə “Associated Press” agentliyi Ağ Evdəki mənbəyə istinadən məlumat verib.

ABŞ prezidentinin nümayəndəsi bildirib ki, birinci ledi - Mişel Obama son iki həftə ərzində dincəldikləri Havay adalarından əri və onların iki qızları ilə birlikdə evə qayıtmaq əvəzinə bu kurort məkanında qalıb.

Obama ailəsi son dövrlərdə daha çox fərqli səbəblərlə gündəmə gəlməyə başlayıb. Agentlik qeyd edir ki, iki həftəlik məzuniyyət zamanı prezident Obama dəfələrlə qolf oynayıb və dəbdəbəli məclislərə qatılıb.

2013-cü il dekabrın sonunda amerikalı jurnalistlər prezident Obamanın öz həyat yoldaşı ilə münasibətlərində ixtilaf yaşadığından şübhələnmişdilər. Amerikalı tabloid National Enquirer adının açıqlanmasını istəməyən mənbəyə istinad edərək, prezidentin və onun həyat yoldaşının hazırda müxtəlif otaqlarda yaşadıqlarını da iddia etmişdi.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 9 (6623) 16 yanvar 2017



# Həftədə 3,5 saat kitab oxuyan adam.... 2 il artıq yaşayır

**Araşdırmalara görə, hər gün ən azı yarım saat kitab oxuyan adam öz ömrünü bir neçə dəqiqə uzatmış olur. ABŞ-ın nüfuzlu Yaley Universitetinin alimləri 50 yaşdan yuxarı 3700-ə qədər insan arasında apardıqları təcrübələrdə belə qənaətə gəliblər ki, həftədə 3,5 saatdan çox kitab oxuyan adamlar başqalarına nisbətən ən azı 2 il çox yaşayır.**

Alimlər kitab mütaliəsinin zehni fəaliyyəti aktivləşdirməsi və onu sağlam saxlaması nəticəsində insan ömrünü bir neçə il uzatmağa qadir olduğunu qeyd edirlər. Onların fikrincə, iki il minimal başlanğıc həddidir. Daha çox kitab oxuyanlar ömürlərini bir o qədər də artıra bilərlər. Lakin bu çox nisbi məsələdir. Təbii ki, fiziki xəstəliyi olan adamın nə qədər kitab oxumasından asılı olmayaraq başqalarına nisbətdə az yaşaması realdır. Yaley Universitetinin alimləri kitab mütaliəsinin insana təsirinin başqa yönlərini də araşdırıblar. Mütəxəssislər hətta elektron kitabla adi kitabın insana göstərdiyi təsirlər arasındakı fərqləri də müəyyən ediblər.

# Çılpaq qadın polis maşınını qaçırdı

**Amerikanın Arizona ştatında lüt qadın polis maşınını oğurlayıb. Hadisə şerifin sinəsindəki kamera vasitəsilə qeydə alınıb. Videoda qeyd olunur ki, çılpaq bir qadın yanacaqdoldurma məntəqəsində polis maşınının qabağından keçir. Polis maşını dayandıranda isə o, zorlanma qurbanı olduğunu xəbər verir.**




Qadına yardım etmək üçün maşından düşən və baqajdan yorğan götürmək istəyən polis bu dəfə şok mənzərə ilə qarşılaşır. Çılpaq qadın sürücü sükanının arxasına keçir və son sürətlə oradan uzaqlaşır. FOX 10 xəbər verir ki, polis 1 saata yaxın qadını təqib edib. Saatda 160 kilometrlə hərəkət edən qadın nəhayət saxlanıb. Bu məqamda isə anlaşılıb ki, o, güclü narkotikin təsiri altındadır. Onun təcavüzə uğraması iddiası isə öz təsdiqini tapmayıb.

Qadına isə polis maşınını qaçırma, polisin əmrinə tabe olmama, yalan ifadə vermə... kimi bir neçə ittiham irəli sürülüb.

# Kök qadınlar arıq həmcinslərindən daha az qazanır



**Tədqiqatlar göstərir ki, şişman qadınlar kök kişilərə nisbətən, daha çox ayrı-seçkiliyə məruz qalırlar. Exeter Universitetinin alimləri, artıq çəkili qadınlara təqdim olunan imkanların daha az olduğunu və onların daha az pul qazana bildiklərini müəyyənləşdiriblər.**

Onlar 40 və 70 yaş arası 120 min Britaniya Biobank iştirakçısının, bədən kütləsi indeksinə aid 70 genetik fərq aşkar ediblər. kök adamlar ixtisaslı olduqları halda belə, iş tapmaqda çətinlik çəkirlər. "Qadını kök edən genetik fərq həm də onu bir az kasıb edir" insan genetikası üzrə professor Tim Frayling söyləyib.

Araşdırmaya əsasən, başqa səbəblə deyil, sırf genetikaya görə 6 kq kök olan qadınlar, eyni hündürlükdə və daha arıq qadınlara nisbətən ildə 1867 dollar az qazanırlar.

Nashvilledə yerləşən Vanderbilt Universitetinin dosenti Jennifer Bennett Shinallın apardığı tədqiqata əsasən, kök qadınlar normal çəkili qadınlarla müqayisədə daha çox səhiyyə, yemək hazırlanması və uşaq baxımı vəzifələrində çalışırlar, nəink, müştərilərlə münasibətdə olacaq işlərlə.

Bundan başqa o müəyyən edib ki, normal çəkili qadınlarla müqayisədə şişman qadınlar "piylənmə cəzasını məvacibləri ilə ödəyirlər". Bunun bir səbəbi fiziki güc tələb edən işlərə müştəri münasibətləri işlərindən daha az maaş verilməsi olsa da, Shinall müəyyən edib ki, müştəri xidmətləri işində çalışan kök qadınlar belə, digərlərindən daha çox əmək haqqı alırlar.

# Qoroskop




**QOÇ** - Aldığınız yeni və gözlənilməz təkliflərdən imtina etməyin. Çünki ulduzlar bu istiqamətdə böyük perspektivdən xəbər verir. Daşınmaz əmlak alqı-satqısında isə qətiyyən iştirak etməyin.

**BUĞA** - Qarşınızda elə bir gün durub ki, ən azı ötən iki ayda dondurulan əksər planlarınızı reallaşdırmaq imkanı qazanacaqsınız. Təbii ki, bu istiqamətdə aktivliyinizi də artırmalı, tərəfdarlara güvənməlisiniz.

**ƏKİZLƏR** - Yaxşı olar ki, dostlarınızı imtahana çəkəsiniz. Çünki indi onların əksəriyyəti sizdən sui-istifadə edir. Aldanmamaq üçün bunu etməlisiniz. Əsəblərinizi qorumaq istəyirsinizsə, təbiət qoynunda gəzinməyə dəyər.

**XƏRÇƏNG** - Ulduzlar bildirir ki, bu gün yeni əlaqələr və maddi dirçəliş sizi məmnun edəcək. Səfərə çıxdığınız təqdirdə isə hündür yerlərə qalxmayın. Bu tarixdə qidanıza da fikir verin. Sevgi münasibətlərini isə arxa plana keçirməyin.

**ŞİR** - Əksər Zodiak işarələrində olduğu kimi bu gün sizin üçün də əhəmiyyətli gündür. Yeni əlaqələr, iş təklifləri, büdcədə qismən də olsa artım, sizi sevindirəcək. Üstəlik, səhhətiniz də normallaşacaq.

**QIZ** - Əgər zərdüştilərin dediyi "xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl" prinsipinə sadiq qalsanız, saat 12-dən etibarən hər mənada uğurlarınız artacaq. Yeni iş təkliflərinə başdansovdu yanaşmayın.

**TƏRƏZİ** - Bu şaxtalı təqvimdə əsas enerjinizi qarşınızda duran vəzifələrin icrasına yönəltməlisiniz. Hər hansı lovğalıq və ya məsuliyyətsizlik sizi gözdən sala bilər. Saat 15-17 arası müqəddəs yerləri ziyarət edin.

**ƏQRƏB** - Bu gün sübut etməlisiniz ki, astroloqların sizin haqqınızda söylədiyi "əsəbi adam" fikri səhvdir. Bu mənada dedi-qoduya, məhəlli qeybətlərə əhəmiyyət verməyin. Əliniz hər yerdən üzüləndə isə nicatı sevgidə arayın.

**OXATAN** - Təmkinli olmağı bacarsanız, saat 14-dən sonra vəziyyət xeyrinizə dəyişəcək. Fəaliyyət yönümündə və maddi irəliləyişdə zaman xeyrinizə işləyəcək. Amma siyasi qovğalardan uzaq olmalısınız.

**OĞLAQ** - Münasibətlər konteksində ciddi redaktələr etməyinizə böyük ehtiyac var. Ulduzlar məsləhət görür ki, ilk növbədə qarşı tərəfə güzəştə gedəsiniz. Çünki sizin xilasınız ədalətli olmaqdan keçir.

**SUTÖKƏN** - Günün ilk yarısı süst keçməsin deyə həmin ərəfədə darıxdığınız adamlarla görüşməyiniz vacibdir. Bir anlıq bütün qayğılarınızı unutmalısınız. Sonrakı müddətdə isə fəaliyyət müstəvisində böyük uğurlara yetişəcəksiniz.

**BALIQLAR** - Gün ərzində üzərinizə düşən başlıca vəzifə ailə-sevgi münasibətlərini tənzimləməkdir. Digər məsələləri arxa plana salmaq da olar. Bunu bacardığınız təqdirdə digər işləriniz də qaydasına düşəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Xəmirin üzərindən hoppandığı üçün işdən qovuldu

**"Jimmy John's" restoranının işçisini çox qəribə hərəkətinə görə işdən çıxarıblar. Belə ki, o, xəmirdən uzun ip hazırlayaraq, onun üstündən bir neçə dəfə hoppanıb. Bu barədə lenta.ru saytı "Huffington Post"a istinadən yazıb. Qalmaqala səbəb isə bu videonun internetdə yayılması olub.**

Həmin videoda önlük geyinmiş gənc adamın xəmir yayması, daha sonra onu ip formasına gətirib, üstündən necə hoppanması səhnəsi yer alıb. Hadisə Florida ştatındakı Ceksonvil şəhərində baş verib. Videorolik öncə facebooka, ardınca isə KİV-ə yayılıb. Restoran sahibləri isə ictimaiyyəti inandırmağa çalışıblar ki, işçilərinin üzərindən ip kimi hoppandığı xəmir istifadəyə yararsız və atılmış xəmir olub: "Biz də belə hərəkəti bəyənmir və lazımi tədbirlər görürük ki, təkrarlanmasın".

Bu olaydan sonra isə restoranda aparılan yoxlama nəticəsində ortaya 17 pozuntu çıxıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.